# Fransanın baş diplomatı hansı beynəlxalq hüquqdan danışır?



**Fransa 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın öz gücü hesabına regionda formalaşdırdığı reallıqların dəyişdirilməsi istiqamətində addımlar atır. Rəsmi Paris ölkəmizə qarşı bütün platformalarda intensiv iş aparır.**

Bu prosesdə, necə deyərlər, əsas ağırlıq Fransanın müdafiə və xarici işlər nazirliklərinin üzərinə düşür. Əgər Ermənistanın silahlandırılması prosesi "Beşinci respublika"nın müdafiə qurumu tərəfindən aparılırsa, xarici siyasət idarəsi də ölkəmizə qarşı pozuculuq işlərinin siyasi təminatçısı rolunda çıxış edir.

**(ardı 2-ci səhifədə)**




Xalqın qəzeti!

# Xalq qəzeti

№ 231 (30635) 20 oktyabr 2024-cü il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## "3+3" və regional gərginlik seqmentlərinə baxış

**"3+3" regional məşvərət formatının bu formata daxil olan ölkələrin xarici işlər nazirləri səviyyəsində İstanbulda keçirilmiş görüşü başa çatdı.**



Görüşdə bir çox məsələlər müzakirə edildi və ötən sayımızda onların üzərində dayandıq. Amma hesab edirik ki, toplantının önəmini vurğulamaq üçün bir vacib məqam var. Söhbət "3+3"-ün özünü Cənubi Qafqazla bağlı məsələlərin müzakirəsi baxımından mühüm müstəvi kimi göstərməsindən gedir. Bu müstəvi xaricdəki təhdidlərə müqavimət üçün ilk növbədə bölgə ilə bağlı gərginliklərin aradan qalxmasına çalışmalıdır. Hansı gərginliklərin? Yazımızda onların müxtəlif çalarlarından söz açacağıq.

Əvvəla, onu deyək ki, "3+3" məşvərət formatı Azərbaycanın və Türkiyənin birgə təşəbbüsüdür. Platformada, eyni zamanda, İran, Ermənistan və Rusiya da iştirak edir, Gürcüstanın ona qoşulması nəzərdə tutulur. Beləliklə, üç Cənubi Qafqaz ölkəsi və regionda tarixi maraqları olan üç böyük ölkə. Platformanın şüarı da adekvatdır – region region ölkələri üçündür! XİN rəhbərlərinin İstanbul görüşü bu şüarın daha dolğun şəkildə vurğulanması ilə yadda qaldı. Hərçənd, ayrı-ayrı fraqmentlərə diqqət yetirəndə, məsələnin asan başa gəlmədiyini görmək mümkündür.

Bəli, İstanbul zirvəsinin heç də rəvan olmayan məcrada keçdiyini, gərginliklər və onları vurğulayan subliminal mesajlarla yadda qaldığını söyləyə bilərik. Cənubi Qafqazdakı gərginliyin isə bir aktiv, iki və daha çox passiv qütbü var. Aktiv qütb Azərbaycan – Ermənistan münasibətləridir. Passiv qütblərdən biri bu münasibətlər fonunda Türkiyə – Ermənistan əlaqələridir. Rusiyanın Xarici işlər naziri Sergey Lavrov da həmkarları ilə İstanbuldakı görüşündən sonra verdiyi açıqlamada bildirmişdi ki, Ankara – İrəvan təmasındakı durum Bakı – İrəvan münasibətlərinin tənzimlənməsindən asılıdır.

**(ardı 2-ci səhifədə)**

## "Charlie Hebdo"nun növbəti həyasızlığı və...

*Fransa jurnalı ifadə azadlığına meydan oxumağından qalmır*

**Medianın xalqlar, dövlətlər arasında qarşıdurma, nifaq yaratması yolverilməzdir. Bu, jurnalist peşəsinə həssas yanaşmanın, etik prinsiplərə sadiqliyin başlıca meyarıdır. Belə məsələlərdəki həssaslıq, həmçinin bəşəri dəyərlərin qorunması baxımından da müstəsna əhəmiyyət daşıyan ictimai missiyadır. Təəssüf ki, yaşadığımız dünyada qeyd etdiyimiz məqamları nəzərə almayan, özünün qızışdırıcı mövqeyi ilə seçilən, lokal maraq və mənafelərin əsiri olan, jurnalistikanı siyasi alətə çevirən media orqanları da vardır. Onlardan biri də Fransanın "Charlie Hebdo" satirik dərgisidir.**




"Charlie Hebdo" yenidən "aktivləşib" və indi də ölkəmizi COP29 müstəvisində hədəfə alıb. Bəs jurnalın yuxarıda qeyd etdiyimiz tərzdə davrandığını sübut edən faktlar nədən ibarətdir? Məsələ ondadır ki, "Charlie Hebdo"nun 2023-cü ildəki ilk sayında yayımlanmış "Pantürkizm yenə erməni meyitləri üzərində möhkəmlənmək istəyir" sərlövhəli yazısında yaşadığımız Cənubi Qafqaz regionunda gərginliyi artırmaq, Azərbaycana və Türkiyəyə münasibətdə mənfi beynəlxalq ictimai rəy formalaşdırmaq istəkləri özünü aşkar şəkildə göstərmişdi. Nəşrin yanaşması, eyni zamanda, bölgədə sülhün bərqərar olması naminə həyata keçirilən fəaliyyəti heçə saymaq idi. Diqqətə çatdıracağımız fikirlər isə o vaxt jurnalın məqaləsinə münasibət bildirən Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayevaya məxsusdur: "Charlie Hebdo" jurnalı, dinləyin. Azərbaycan ərazilərinin 20 faizinin 30 il ərzində işğalı zamanı Ermənistanın yaratdığı təhlükəni unutmusunuz. İndi Azərbaycan öz suveren ərazilərində sülhü təmin etdiyi halda siz hansı təhlükədən danışırsınız?".

Əlbəttə, "Charlie Hebdo"-ya dinləmək yaddır. Jurnal Fransanın ermənipərəst dairələrinin mövqeyini əsas tutur və regiondakı münaqişə ocağından yeni müharibə mühiti formalaşdırmaq istəklərinin ifadəçisi qismində çıxış edir. Nəşr, ümumən, İslam dünyasına münasibətdə haqsız mövqeyi ilə seçilir ki, bu barədə söz açacağıq. İndi isə jurnalın COP29 qərəzinə nəzər salaq.

"Charlie Hebdo" COP29 məsələsində ölkəmizə qarşı hədyanlar yağdırır. Dərgi müxtəlif ermənipərət dairələrin əsirinə çevrilmiş insan hüquqları təşkilatlarının Azərbaycanla bağlı qərəzli mövqeyini öz səhifələrinə çıxarır və Bakının COP29-a evsahibliyinə kölgə salmağa çalışır, onu məsxərə predmetinə çevirir. Ən maraqlısı isə dərginin bu cür cəfəng yanaşmasını Ermənistan dövlətinə və hökumətinə yaxın media orqanlarının tirajlamalarıdır. Sonra da rəsmi İrəvan Azərbaycanla sülh müstəvisində səmimiyyətdən dəm vurur. Nə isə...

**(ardı 6-cı səhifədə)**

# Azərbaycan çoxşaxəli enerji ölkəsidir



**Ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə 1981-ci il oktyabrın 20-də "Azərbaycan" istilik elektrik stansiyasının birinci enerji blokunun istifadəyə verilməsi ilə ölkə elektroenergetikasının inkişafında yeni mərhələnin əsası qoyulub. Dahi şəxsiyyət respublikaya rəhbərlik etdiyi bütün dövrlərdə energetika kompleksinin, o cümlədən elektrik enerjisi sisteminin inkişafını diqqətdə saxlayıb, genişmiqyaslı layihələrin gerçəkləşməsi istiqamətdə səmərəli fəaliyyət göstərib.**

Ümummilli liderin müəyyənləşdirdiyi enerji siyasəti dövlət başçısı İlham Əliyevin prezidentlik fəaliyyətinin bütün mərhələlərində də uğurla həyata keçirilib, enerji sistemi, enerji istehsalı infrastrukturu yenidən qurulub, şəhər və rayonlarda onlarla böyük və kiçik elektrik stansiyaları tikilib, ölkədaxili və respublikamızı xarici ölkələrlə əlaqələndirən magistral elektrik xətləri yenilənib, elektrik enerjisi təminatının yaxşılaşdırılması nəticəsində daxili enerji tələbatı tamamilə ödənilib, eyni zamanda, elektrik enerjisinin ixracı gerçəkləşdirilib.

Yeni elektrik stansiyalarının istifadəyə verilməsi ilə hazırda ölkəmizin ümumi elektrik enerjisi istehsalı gücü 8415,6 meqavata (ötən ilin müvafiq dövrü ilə müqayisədə 324,8 meqavat və ya 4 faiz çox) yüksəlib. Elektroenergetika sistemində 22 istilik elektrik, 58 su, 9 günəş, 5 külək və 3 hibrid elektrik stansiyaları istifadəyə verilib.

**(ardı 7-ci səhifədə)**

## Azərbaycan "yaşıl" iqtisadiyyata keçidi dünyaya zərurət kimi təqdim edir




**Azərbaycanın dünyanın ən irimiqyaslı konfranslarından birinə – COP29-a evsahibliyi etməsi respublikamızın beynəlxalq nüfuzu baxımından mühüm önəm daşıyan tarixi hadisədir. Bu, həm də respublikamızın "yaşıl" iqtisadiyyata keçid strategiyasının məntiqi davamı, eləcə də Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsinə verilən dəyərin təsdiqi kimi qiymətləndirilir.**

Respublikamız COP29-a evsahibliyi missiyasını üzərinə götürməklə müsbət ekoloji dəyişikliklə bağlı beynəlxalq aləmə böyük töhfə verməyi, bu istiqamətdə çıxış edən ölkələr üçün model nümunəsi göstərməyi qarşıya mühüm vəzifə kimi qoyur. Buna görə də dünya ictimaiyyətinin qlobal iqlim dəyişikiliyi ilə mübarizənin yeni mərhələsinə qədəm qoyduğu indiki şəraitdə bu iqlim konfransından gözləntiləri də çoxdur. "Yaşıl" dünya ilə bağlı bir sıra yeni prioritetlərin məhz Azərbaycan paytaxtında müəyyənləşdiriləcəyinin gözlənilməsi də bunun bariz ifadəsidir.

**(ardı 9-cu səhifədə)**

# Şərqi Zəngəzurun nicat, şərəf və öyünc günü

**Zəngilanlı köhnə dostum Sərməs Əhmədov bugünlərdə rayonun Ağalı kəndində yaşayan yaxın qohumuna baş çəkməyə getmişdi. Qayıdanda telefonda mənə fəxrlə söylədi ki, orada, "ağıllı kənd"də, həqiqətən, sakinlər üçün elə yaxşı həyat və iş şəraiti qurulub ki, heç çağdaş dünyanın zəngin ölkələrində də belə nümunə yoxdur.**

Dostumun hədsiz sevincək olduğu səsindən aşkar hiss olunurdu:

–Torpaq nisgili ağır dərd idi. İndi isə hər şey dəyişib. Keçmiş məcburi köçkün ailələri doğma yurd yerlərinə qayıtdıqları üçün özlərini çox xoşbəxt hiss edirlər.

**(ardı 4-cü səhifədə)**



# Ölkəmizdə qış idman növləri də inkişaf edir



**Ölkəmizdə qış idman növlərinin inkişafı, lazımi infrastrukturun yaradılması, yerli idmançıların yetişdirilməsi istiqamətində işlər davam edir.**

Oktyabrın 19-da Bakıda Beynəlxalq Xizək Alpinizmi Federasiyasının 17-ci Plenar Assambleyasında xizək alpinizminin inkişafı üzrə görülən işlər və yeniliklərlə əlaqədar geniş məlumat verilib.

**(ardı 11-ci səhifədə)**

# “3+3” və regional gərginlik seqmentlərinə baxış

(əvvəli 1-ci səhifədə)

Əlbəttə, Lavrov haqlıdır. O anlamda ki, Türkiyə, Azərbaycan torpaqlarını işğal etdiyini görə, Ermənistanla quru sərhədini bağlamışdı və sərhədlər bu gün də qapalı qalmaqdadır. Hərçənd, Ermənistanın XİN rəhbəri Ararat Mirzoyan Türkiyə ilə sərhəddə Marqara sərhəd-buraxılış məntəqəsinin yenidən qurulması üçün işlərin aparılmasından söz açdı və bunu müsbət məqam kimi vurğuladı. Amma pozitiv anlamda başqa nə isə, demək olar ki, yoxdur. Baxmayaraq ki, erməni işğalına son qoyulub...

Əlqərəz, regiondakı gərginliyin bir aktiv, bir passiv qütbünü diqqətə çatdırdıq. Digər passiv qütbü vurğulayan məqam kimi Rusiya – Gürcüstan münasibətlərindən söz açmaq mümkündür. Məlumdur ki, Gürcüstan hazırda “3+3”-ə məhz Cənubi Osetiya və Abxaziya münaqişələrinə görə qoşulmur. Daha doğrusu, bu bölgələrin işğalı səbəbindən. Nəzərə alaq ki, sözügedən ərazilərdəki separatçı quruluşlara dəstək verən Rusiyadır. İlk baxışdan, rəsmi Tbilisinin regional platformada iştirak etməməsini doğuran amil budur. Amma hesab etmirik ki, söhbət yalnız bundan gedir.

Gürcüstan hazırda bacardıqca neytral qalmağa çalışır. O qədər neytral ki, Cənubi Qafqazla bağlı məsələlərə, bir növ, yaxın durmur. Daha doğrusu, bölgə kontekstində mümkün qədər yalnız öz maraqlarından çıxış edir. Görünür, qərb qonşumuz bu davranış üçün hansısa birləşmədə olmağı vacib saymır. Hər halda, seçim onundur. Ancaq Gürcüstanın “3+3”-də iştirakı hər zaman arzuolunandır. Həm də ona görə ki, müştərək regional hədəflər bir çox məsələlərin aradan qalxmasına səbəb ola, güzəştlər doğura bilər. O cümlədən, separatçılıqla bağlı məsələlərdə də.

Regiondakı daha bir passiv gərginlik seqmenti var ki, o da İrandır. Nəzərə alaq ki, İran mahiyyətcə hansısa prosesin passiv fiquru olmayacaq qədər böyükdür. Yəni, cənub qonşumuzdan çox şey asılıdır. Hətta, onun özünün gələcəyi də. Deyimi təsdiqləmək üçün bir neçə cəhətə diqqət yetirmək zərurəti yaranır ki, onlardan biri Tehran – İrəvan münasibətləridir.




Hazırda İravan regional platformanın məramına qarşı çıxan tərəfdir. Bu, Azərbaycanla yanaşı, Rusiyaya və Türkiyəyə əks mövqedə dayanma deməkdir. Ermənistanın, belə demək mümkünsə, böyük sipəri Qərbdir. Digər sipər isə İrandır. O İran ki, hazırda Qərbin sanksiyaları ilə üzləşən tərəfdir və ciddi şəkildə yaşam təminatlarına ehtiyac duyur. Üstəlik, kollektiv Qərbin İranın Cənubi Qafqazla bağlılığını aradan qaldırmaq yönümlü planlarının mövcudluğunu da bilirik. Yəni, “region region ölkələri üçündür” deyimi üzərindən immunitet formalaşdıracaq Tehran gələcək təhdidlərdən qoruna bilər. Rəsmi İrəvan isə Qərbin Cənubi Qafqazdakı peyki kimi “3+3”-ün təlqin etdiyi Qafqaz evi ideyasına əks mövqedə dayanan tərəfdirsə, deməli, bunun perspektivdə ehtimal olunan ən böyük ziyanının Tehrana dəyməsində təəccüblü heç nə olmamalıdır. Axı dedik ki, İran böyükdür. Böyüklərə isə böyük zərbələr dəyir.

Əminliklə deyə bilərik ki, İranın bölgəyə kənar qüvvələrin nüfuzunu yolverilməz saydığı halda, onun Ermənistanın avantürist niyyətləri baxımından sipər missiyası Qərbin bölgəyə nüfuz trayektoriyasına dəstəkdir. Rəsmi İrəvan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəliyi yerinə yetirmək istəmir. Daha dəqiq desək, bəyanatın 9-cu bəndinə əsasən Naxçıvana maneəsiz – heç bir gömrük və sərhəd nəzarəti olmayan yolu təmin etməkdən boyun qaçırır, ərazi bütövlüyü və suverenlik klişesi ilə manipulyasiya yolunu tutur. Bu yol, bütövlükdə, regiondakı sabitliyə təhdid mahiyyəti daşımaqdadır. Qərb çalışır ki, erməni avantürizmini diri tutmaqla, həm Rusiyanı Cənubi Qafqazdan sıxışdırsın, həm də Azərbaycana qarşı təzyiq rıçağı əldə etsin. Onun məqsədini gerçəkləşdirmək üçün irəli sürdüyü təşəbbüs isə “Dünyanın kəsişməsi”dir.

Yeri gəlmişkən, Ermənistan “Dünyanın kəsişməsi”ni “3+3”ün İstanbul görüşünün müstəvisinə də çıxardı və bu, gərginliyi şərtləndirən cəhətdir. Erməni XİN rəhbəri Ararat Mirzoyanın dediklərinə diqqət yetirək: “Regional əlaqələrin möhkəmləndirilməsinə dair baxışımız Ermənistanın baş nazirinin bir il əvvəl təqdim etdiyi “Dünyanın kəsişməsi” təşəbbüsündə aydın şəkildə əks olunub. Bu layihənin əsas məqsədi avtomobil yollarının, dəmir yollarının, boru kəmərlərinin, kabellərin və elektrik xətlərinin bərpası, tikintisi və istisması yolu ilə regionda və ondan kənarda bütün ölkələr arasında kommunikasiyaları inkişaf etdirməkdir. Bu layihənin həyata keçirilməsi üçün dörd prinsip vacibdir: bütün dövlətlərin suverenliyinə və yurisdiksiyasına hörmət, habelə bərabərlik və qarşılıqlılıq. Həyata keçirilərsə, “Dünyanın kəsişməsi” yüklərin daşınmasında daha yüksək sürət və səmərəliliyi təmin edən qlobal logistik marşrutların tərkib hissəsinə çevrilə bilər”.

Bəli, Ermənistan Azərbaycanın Naxçıvana yol məsələsində irəli sürdüyü “Zəngəzur dəhlizi” təşəbbüsünə qarşı çıxmaqda israrlıdır. Deməli, Qərb Ermənistanı qlobal logistik xabın əsas fiquruna çevirmək istəyir. Ancaq Mirzoyan deyir ki, “Dünyanın kəsişməsi” “bir çox tərəfdaşlarımız tərəfindən müsbət qarşılanıb və İran onların arasında birincilərdən olub”.

Əlbəttə, İranın “Dünyanın kəsişməsi”ni bəyənməsi kimi bir durumun mütləq mənada olub-olmadığını söyləmək qeyri-mümkündür. Tehran hər zaman bəyan edib ki, regionda sərhədlərin dəyişməsinin əleyhinədir. İrəvan isə həmişə “Dünyanın kəsişməsi”ni Ermənistanın ərazi bütövlüyünün və suverenliyinin pozulmasının yolverilməzliyi kontekstində tirajlayıb. Bəs bu durumda gərginliyi səngidən hansı tərəfdir? Cavab birmənalıdır – Azərbaycan.

“Dünyanın kəsişməsi”nə heç zaman yol verməyəcək Azərbaycan Ermənistanın nazı ilə oynamaq istəmir. Rəsmi Bakı Naxçıvana yol məsələsində israrlıdır və eyni zamanda, İrəvan və havadarlarının ona qarşı təcavüzkar damğası vurmasını, onların mövcud istiqamətdəki təbliğatlarına yol vermək, siyasi spekulyasiyalara imkan tanımaq istəmir. Ona görə də Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov İstanbulda Naxçıvana yol məsələsində İranla razılaşmanı qabardır. C.Bayramov deyib ki, Azərbaycan birgə layihələrin Naxçıvan Muxtar Respublikasını da əhatə etməsi, xüsusilə İran ərazisindən keçərək, Şərqi Zəngəzur iqtisadi rayonumuz ilə muxtar respublikanı birləşdirən kommunikasiyaların tezliklə tamamlanmasına ümidvardır.

Deməli, qalır İranın məsələyə “hə” deməsi. Nəzərə alaq ki, bu “hə” ilə regional gərginliyin vacib qütbü aradan qalxmış olur. Ancaq digər gərginliyin başlaması istisna deyil. Axı Qərb Naxçıvana İran ərazisindən keçməklə gediləcək yolu, belə demək mümkünsə, süngü ilə qarşıladığını açıqlayıb. Məsələ barədə təfərrüatlı yanaşmanı gələn sayımızda təqdim edəcəyik.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Fransanın baş diplomatı hansı beynəlxalq hüquqdan danışır?

(əvvəli 1-ci səhifədə)

Fransa xarici işlər naziri Jan-Noel Barrot ənənəsinə sadiq qalaraq bugünlərdə yenə Azərbaycanın əleyhinə danışıb. Ölkəsinin “France İnter” kanalına müsahibəsi zamanı bildirib ki, guya, Azərbaycan Ermənistana münasibətdə beynəlxalq hüququ pozur. Fransız nazirin ölkəmizin Ermənistana münasibətdə beynəlxalq hüququn hansı norma və prinsiplərini pozmasını nəzərdə tutduğu müəmmalıdır. Amma aydın olan bir məqam var. Bu da Ermənistanın təxminən 30 ilə yaxın beynəlxalq hüquqa, onun sərhədlərin toxunulmazlığı və dövlətlərin ərazi bütövlüyü kimi başlıca prinsiplərinə məhəl qoymamasıdır. Xüsusilə, BMT Nizamnaməsində və Helsinki Yekun Aktında təsbit edilmiş ərazi bütövlüyü prinsipinin başlıca məzmunu ondan ibarətdir ki, dövlətlər bir-birinin ərazi bütövlüyünə hörmət etməlidirlər. Hər bir dövlət başqa dövlətin ərazi bütövlüyünün pozulmasına yönəlmiş hüquqazidd hərəkətlərdən çəkinməlidir.

Dövlətin ərazisi qanunsuz güc tətbiqi nəticəsində hərbi işğal obyekti ola bilməz. Ermənistan isə Birinci Qarabağ müharibəsi dövründə Azərbaycan ərazilərini işğal etmiş, həmin ərazilərdən qeyd-şərtsiz çıxmaqla bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin tələblərinə əməl etməmiş, üstəlik, işğal etdiyi ərazilərdə daha bir cinayət – qanunsuz məskunlaşdırma siyasəti həyata keçirmişdir. Məgər bütün bunlardan Fransa XİN başçısının xəbəri yoxdur?! Əlbəttə ki, var! Sadəcə olaraq, erməni sevgisi onların gözlərini elə tutub ki, son vaxtlar hər kəsin bildiyi həqiqətləri belə təhrif etməyə girişiblər.

Ölkəmizin Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə fransız nazirin Azərbaycan əleyhinə səsləndirdiyi fikirlərə dair şərhində bildirib ki, Jan-Noel Barrotun müsahibə zamanı Azərbaycanın Ermənistana münasibətdə beynəlxalq hüququ pozduğunu bildirməsi bu ölkənin Azərbaycana qarşı növbəti əsassız və qərəzli münasibətinin, beynəlxalq hüquqa dayaz və səthi yanaşmasının göstəricisidir.

Azərbaycanın bütün addımlarında beynəlxalq hüququ və ədaləti əsas götürdüyünü diqqətə çatdıran XİN rəsmisi qeyd edib ki, ölkəmizin beynəlxalq hüquqa zidd davrandığını iddia etmək absurddur və Fransanın bunun əksini sübut edəcək heç bir dəlili yoxdur.

A.Hacızadənin açıqlamasının davamında bildirilib: “Maraqlıdır ki, özünü beynəlxalq hüququn təbliğatçısı və ədalətin təminatçısı kimi təqdim edən Fransa heç zaman Azərbaycana münasibətdə beynəlxalq hüququn bütün norma və prinsiplərinin kobud şəkildə pozulmasını tənqid etməyib. Bir milyona yaxın azərbaycanlını öz doğma yurd-yuvasından didərgin salmış, kütləvi qırğınlar və insanlığa qarşı cinayətlər törətmiş, Ermənistan ərazisindən kütləvi şəkildə deportasiya edilmiş yüz minlərlə azərbaycanlının qayıdış hüququnu heçə sayan Ermənistanı qurban kimi təqdim etmək yanlış siyasətdən xəbər verir. Dünyanın bir çox yerlərinə münasibətdə xarici siyasəti iflasa uğramış Fransanın bölgəmizdə destruktiv fəaliyyətinə son qoyulmasını bir daha tələb edirik”.







**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** mövzu ilə bağlı XQ-yə açıqlamasında bildirdi



ki, Parisdən verilən belə açıqlamalar hazırkı Fransa prezidentinin, hökumətinin və parlamentinin Cənubi Qafqaz və Azərbaycan siyasətini korrektə etmək fikrində olmadığını bir daha sübut edir. Onun sözlərinə görə, Fransa yenə də anti-Azərbaycan siyasətlərini davam etdirir və bununla da özlərini Cənubi Qafqazda sülh prosesindən faktiki olaraq təcrid edirlər. Çünki əsl ermənipərəst kimi çıxış etməklə, qatı anti-Azərbaycan mövqeyi ilə Cənubi Qafqazda sülh quruculuğunda Fransanın hər hansı formada iştirakı istisna olunur: “Halbuki, ötən illərdə, yəni, Emmanuel Makronun prezident seçilməsinədək Parisin də müəyyən vasitəçilik təşəbbüsləri olur, Fransa ərazisində də görüşlər keçirilirdi. İndi isə bunlar istisnadır. Çünki Azərbaycan rəsmiləri haqlı olaraq, Parisin vasitəçiliyini qəbul etməyəcək, Fransada hər hansı görüşün təşkilinə də mənfi yanaşacaqlar. Bu da Azərbaycan tərəfinin haqlı mövqeyidir”.

Fransa xarici işlər nazirinin sonuncu müsahibəsində ölkəmiz əleyhinə səsləndirdiyi fikirlərə gəldikdə isə E.Şahinoğlu qeyd etdi ki, nazir yeni bir şey deməyib. Yenə də məntiqsiz, anti-Azərbaycan açıqlamalarını davam etdirib. Ermənistanın törətdiyi vəhşiliklərdən, qəsbkarlıq siyasətindən, işğal dövründə ərazilərimizi minalarla çirkləndirməsindən və digər cinayətlərdən heç bir söhbət açılmır: “Amma mina mövzusu özü də maraqlıdır. Azərbaycanın bu problemlə mübarizəsinə hətta, ABŞ və Avropa İttifaqının bəzi ölkələri də müəyyən töhfələr verirlər. Onlar minaların axtarışı üçün az da olsa, maliyyə ayırırlar. ABŞ tərəfi mina və partlamamış hərbi sursat təmizləmə işlərində iştirak etmək üçün Azərbaycana xüsusi təlim görmüş itlər verib. Çünki hər kəs, o cümlədən ABŞ və Avropa ölkələri başa düşürlər ki, həmin minaları Ermənistan ordusunun hərbçiləri və Qarabağda mövcud olmuş separatçı rejimin özünü “müdafiə ordusu” adlandıran qanunsuz hərbi birləşməsinin mənsubları basdırıblar. Bunun nəticəsində biz 44 günlük Vətən müharibəsindən sonra yüzlərlə soydaşımızı itirmişik. Yaxşı, Fransa bu qədər anti-Azərbaycan mövqedən çıxış etdiyi halda mina basdırılması mövzusunda niyə susur? Deməli, bütün bunlar ikili standartların əlamətləridir”.

E.Şahinoğlunun sözlərinə görə, belə görünür ki, Fransanın Azərbaycanla münasibətləri normallaşdırmaq istəyi yoxdur. Amma bundan itirən özləri olacaq. Zatən, Azərbaycanın Avropada dostlarının sayı da az deyil. Elə Fransanın qonşuluğunda yerləşən dövlətlər – dəniz qonşusu Böyük Britaniya və cənub-şərqindəki İtaliya da bizim dostlarımızdır. Biz onlarla əməkdaşlığı davam etdiririk. Əgər Paris bundan sonra da bu siyasəti yürüdəcəksə, Azərbaycan obyektiv səbəblər üzündən Parislə əməkdaşlığı bərpa edə bilməyəcək. Yəni, münasibətlər indiki nöqtədən tərpənməyəcək.

**Politoloq İlyas Hüseynov** isə dedi ki, Fransa Azərbaycana münasibətdə özünün ədalətsiz və qərəzli mövqeyini yenidən göstərməkdədir. Onun sözlərinə görə, ölkəmizə qarşı müxtəlif müstəvidə hücumlar, təhdidlər davamlı xarakter daşıyır. Eyni zamanda biz ötən dövrlərdə baş verən hadisələrlə bu gün Fransanın mövqeyini müqayisə edirik. Çünki 30 illik işğal dövründə beynəlxalq hüququn fundamental norma və prinsiplərini heçə sayan rəsmi Paris bu gün ermənilərə münasibətdə beynəlxalq hüququn pozulmasından danışır. Əlbəttə, bu da ikili standartların göstəricisidir. Digər tərəfdən, dünyanın müxtəlif bölgələrində geosiyasi maraqlarını təmin edə bilməyən, müxtəlif regionlardan açıq-aşkar şəkildə qovulan Fransa Ermənistan hesabına Cənubi Qafqazda möhkəmlənmək istəyir. Ermənistandan bir alət kimi istifadə edən Fransa bu gün Cənubi Qafqaza aqressivcəsinə, radikal düşüncə ilə soxulur və bu da neokolonial təfəkkürün göstəricisidir.

Ekspertin fikrincə, Fransa bu gün öz müstəmləkələrində də böyük problemlər yaşayır: “Xalqlar öz azadlıqları, müstəqillikləri uğrunda mübarizə aparırlar və gələcəklərini Fransadan kənarda görməyə çalışırlar. Fransanı öz bölgələrində görmək istəmirlər. Fransa isə güc tətbiq etməklə, polisin, dəyənəyin gücü hesabına müstəmləkəsi olan ərazilərdə öz varlığını sübut etməyə çalışır. Ona görə də Makron hökuməti bu gün həm erməni diasporunun sifarişlərini yerinə yetirmək, həm gələcək seçkilərdə erməni mənşəli seçicilərin səslərini qazanmaq, həm də Cənubi Qafqazda, belə deyək, maraqların bölgüsü prosesində iştirak etmək istəyir. Bu isə uğursuzluğa məruz qalır, fiaskoya uğrayır”.

İ.Hüseynov bildirdi ki, biz Vətən müharibəsindən sonrakı dövrdə Fransanın ölkəmizə Avropa İttifaqı, BMT Təhlükəsizlik Şurası, Beynəlxalq Frankofoniya Təşkilatı kimi qurumlar vasitəsilə təzyiq etməyə çalışdığını görmüşük: “Lakin bunlar heç bir nəticə verməyib. Parisin bütün məkrli addımları səmərəsiz qalıb və Azərbaycan özünün milli maraqlarını təmin edib. Düşünürəm ki, bundan sonra da Azərbaycan bütün müstəvilərdə Fransaya qətiyyətli cavab verəcək. Fransa dövləti indi nümayiş etdirdiyi mövqedən çəkinməlidir”.

**Politoloq Ramiyə Məmmədova** hesab edir ki, Fransanın Azərbaycanla bağlı hazırda yürütdüyü siyasət həm E.Makron hökumətinin Cənubi Qafqazda möhkəmlənmək istəyindən, həm də erməni lobbisi ilə çox yaxın əlaqələrindən irəli gəlir. Onun sözlərinə görə, Azərbaycanla Ermənistan arasındakı problemlər iki dövlətin özü tərəfindən həll edilməlidir. Yəni, rəsmi İrəvan, nəhayət, başa düşməlidir ki, Cənubi Qafqazın dünyanın sabit bölgələrindən birinə çevrilməsi, Ermənistan əhalisinin sülh içində yaşaması üçün Azərbaycanla münasibətləri qaydaya salmaq başlıca şərtdir. Bunun üçün ilk növbədə sülh müqaviləsi üzrə qalan məsələlər də razılaşdırılmalıdır. Ancaq bu gün havadarları Ermənistanı başqa səmtə yönəldirlər ki, bu da İrəvan üçün yaxşı heç nə vəd etmir.

Ekspert qeyd etdi ki, Fransanın XİN başçısı ümumi danışmamalı, Azərbaycanın Ermənistana münasibətdə beynəlxalq hüququn hansı prinsipini pozduğunu açıq şəkildə bildirməlidir. Ancaq belə bir fakt olmadığı üçün nazir ümumi danışmağa üstünlük verir: “Azərbaycan heç bir dövlətin ərazisini işğal etməyib. Əksinə, beynəlxalq hüquqa uyğun olaraq 2020-ci ildə öz ərazilərini işğaldan azad edib. Əgər fransız nazir 2023-cü ildə keçirilən antiterror tədbirlərini nəzərdə tutursa, burada da demək lazımdır ki, heç kim diskriminasiya həyata keçirərək erməniləri Qarabağın dağlıq hissəsindən qovmayıb. Onlar elə Fransa kimi xarici qüvvələrin fitnə-fəsadına uyaraq yaşadıqları yerlərdən könüllü şəkildə çıxıb gediblər. Bu gün Azərbaycan rəsmiləri yenə də beynəlxalq hüquqa söykənərək deyirlər ki, ölkəmizin qanunlarını, milli atributlarını, vətəndaşlığını qəbul edəcəkləri təqdirdə, erməni əsilli şəxslər geri qayıda bilərlər. Onların hüquqlarının qorunmasına təminat verilir. Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə həyata keçirdiyi işlər isə beynəlxalq və milli qanunvericiliyə uyğun həyata keçirilir. Nəzərə almaq lazımdır ki, burada söhbət Azərbaycan ərazilərindən gedir”.

R.Məmmədova onu da bildirdi ki, Azərbaycanın fransız xalqı ilə problemi yoxdur. Bizim tarixən normal əlaqələrimiz olub: “Ermənilərin Fransada saylarının çox olmasına baxmayaraq, Paris və Bakı arasında da əlaqələr normal olub. Azərbaycanın bir çox görkəmli mütəfəkkirləri XIX əsrin sonu, XX əsrin əvvəllərində Fransadakı ali məktəblərdə təhsil alıblar. Mən Azərbaycan və Fransa xalqları arasında hansısa irsi problemlərin olduğunu düşünmürəm. Bu, sadəcə siyasi məsələdir. Söhbət ondan gedir ki, Makronun yürütdüyü siyasət Azərbaycanla münasibətlərin indiki səviyyəyə düşməsinə gətirib çıxarıb. Bəllidir ki, burada da erməni amilinin böyük rolu var”.

***Səxavət HƏMİD***
***XQ***

# ABŞ-nin dövlət missiyası: diktə və dəyənək!

**I məqalə**

***Amerikanlar bütün səhv gedişləri edəndən sonra doğru olanını seçirlər.***

***U.Çörçill***



## Dövlət identikliyi və onun böhranı

Açıq görünür ki, ABŞ indiki tarixi mərhələdə identiklik böhranı yaşayır. “İdentiklik” sözünün mənası “eynən özü olmaq”dır. Yəni insan, cəmiyyət, dövlət özünü hansı keyfiyyətlərlə eyniləşdirirsə, bu, onun identikliyidir. Müasir fəlsəfi və politoloji elmdə identikliyin müxtəlif formaları təhlil edilir. Milli identiklik, siyasi identiklik, dövlət identikliyi, mədəniyyət identikliyi, etnomədəni identiklik, sosial identiklik və başqaları.

Tədqiqatlar göstərir ki, siyasi, milli və dövlət identiklikləri qalıcıdır. Lakin müəyyən mərhələlərdə cəmiyyəti və dövləti böhran bürüyəndə identikliklərin də böhranı meydana gələ bilir. İdentiklik böhranını həyatı boyu hər bir insan yaşaya bilər. Dövlət kimi identiklik böhranının da öz əlamətləri vardır. Onların sırasında dövlətin başqalarının özünəməxsusluğunu və dəyərliliyini inkar etmək xüsusi yer tutur. İndi bu əlamətlər ABŞ-də də müşahidə edilir.

Maraqlıdır ki, dövlət identikiliyinin böhranından iki xilas yolu olur. Onlardan biri yeni identiklik axtarışlarıdır, digəri isə başqaları üzərində hakimlik hissinin daha da güclənməsidir. Politoloqlar birinci yolu konstruktiv, ikinci yolu isə destruktiv adlandırırlar.

## ABŞ-nin destruktiv təcrübəsi

Amerikalı alim U.Blum dövlət identikliyinin üç növünü ayırır. Onlardan birincisi identikliyin xarici siyasətin aləti kimi götürülməsi ilə bağlıdır. Xarici siyasət bu kontekstdə xarici siyasətin problemlərinin həll edilməsi üçün cəmiyyəti səfərbər edir. Bunun nümunələrindən biri “messian millətçiliyi”dir (burada “messiya” termininin məzmununa varmırıq, çünki detalların bu kontekstdə əhəmiyyəti yoxdur). Dövlət identikliyinin messian nümunəsi kimi, U.Blum ABŞ və Rusiyanı göstərir. Alim bu cür dövlət identikliyinin gec və ya tez başqa millətlərə və dövlətlərə qarşı aqressiv davranışlara aparıb çıxardığını vurğulayır.

Bunu ABŞ dövlət identikliyinin acı və destruktiv (dağıdıcı) təcrübəsi kimi qəbul etmək olar. Bu tezisi irəli sürməyə əsas verən faktları 1990-cı illərin əvvəllərindən rəsmi Vaşinqtonun dünya miqyasında və onun fraqmentlərindən biri olan Cənubi Qafqazda yeritdiyi siyasətdən görmək mümkündür.

Öncə bir geosiyasi-nəzəri qeyd etmək zəruridir. Hələ keçən əsrin 80-90-cı illərində Amerikada tanınmış araşdırmaçılar xarici siyasətin prirotetlərini və strateji məqsədlərini müəyyən etməklə bağlı mübahisələr aparırdılar. Onların sırasında Z.Bzejinski, H.Kissincer, S.Hantinqton, C.Fridman, C. Nay (kiçik) və başqaları da vardı. Bu mübahisələrin təməlində isə Amerikanın milli identikliyinin (milli maraqlar və milli ideya əsas yeri tuturdu) müəyyən edilməsi ilə bağlı yaranmış fikir ayrılığı dayanırdı (konkretliklərə getməyək). H.Kissincer bu mübahisələri ümumi halda liberalizmlə (idealizm kimi) realpolitikanın (realizm kimi) mübarizəsi olaraq xarakterizə edirdi. Onun anlamında idealizm öncə Amerika dəyərlərinin bütün dünyaya tətbiq edilməsini, realizm isə real vəziyyəti nəzərə alaraq, Qərb dəyərlərini müvəqqəti arxa plana atmaqla, sonucda yenə də onun yayılmasını nəzərdə tutur. Yəni ikinci variantda ABŞ güc də tətbiq edə bilər ki, dəyərlərini qəbul etsinlər. Ancaq çıxış yolu kimi H.Kissincer idealizmlə realizmin sintezini doğru sayırdı – yəni yuxarıda vurğulanan hegemonluq üsullarının harmoniyasını!

Onu deyək ki, C.Nay “sərt güc”, “yumşaq güc”, “ağıllı güc” anlayışlarını leksikona məhz bu cür dövlət identikliyi axtarışları fonunda daxil etmişdi. İrəli getməyək, çünki daha dərin və geniş yanaşma üçün qəzet formatı kifayət etmir.

## İkili yanaşmadan – ikili standartlara

Keçmiş sovet respublikaları müstəqilliklərini əldə edəndən sonra Vaşinqtonun postsovet məkanı ölkələri istiqamətində yeritdiyi siyasətin əsl üzü aydınlaşdı. Onun ən ziddiyyətli tərəfi Cənubi Qafqaz dövlətləri ilə bağlı siyasətdə özünü göstərdi. Xüsusilə, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində yaranmış vəziyyətə reaksiyası sözdə demokratik və liberal olan ABŞ xarici siyasətinin real mahyyətinə işıq saldı. Nə qədər məntiqsiz, antidemokratik, antireal olsa da rəsmi Vaşinqton Azərbaycanı günahlandırdı və bədnam “907-ci düzəliş” kimi vandalist sənədi ölkəmizə qarşı qəbul etdi.

Bu, H.Kissinceri də narahat edən ABŞ xarici siyasətində ikili mövqenin, tərəddüdün birbaşa təzahürü idi. Onu vurğulayaq ki, başqa amerikan araşdırmaçılar da milli ideyanı müəyyən edərkən həmin tərəddüdləri vurğulamışdılar. Bütün hallarda amerikan siyasi və politoloji şüurunda mövcud olan ikili mövqe birbaşa xarici siyasətdə ikili standartlara yol açdı. Çox təəssüf ki, Azərbaycan bundan daha çox ədalətsizlik görməyə başladı.

Təsəvvür edin, həmin dövrdə torpaqları işğal edilən Azərbaycanı boykot, ona maliyyə yardımını qadağan edir və güzəştə getməyini tələb edirdilər. “Arqumentləri” də ermənilərin və Ermənistanın hüquqlarının təmin edilməsi idi. Aydındır ki, bəhanə olaraq erməni lobbisinin ABŞ-də və bütövlükdə Qərbdə güclü olması ilə bağlı idi. Guya özlərinin arzusu, istəyi və ya dövlət kimi seçimi deyildir. Əlbəttə, bu “uşaq nağılını” Azərbaycanda çox gözəl anlayırdılar. Lakin həmin dövrdə Bakının bunlara qarşı durması üçün gücü yetmirdi. Bundan başqa, məsələ ABŞ-nin özünün dövlət maraqlarına gələndə “güclü erməni lobbbisi” olurdu bir heç.

Azərbaycan Prezidenti İlham Əliyev rəsmi Vaşinqtonun bu cür davranışını və onun konkret əlamətlərini çox gözəl izah etmişdir. ABŞ Əfqanıstandakı maraqlarına görə “907-cü düzəliş”lə bağlı müəyyən addımlar atdı, ancaq Kabildən biabırçı surətdə çəkildikdən sonra yenə əvvəlki aqressiz və ədalətsiz mövqeyini irəli sürdü. Bütövlükdə, ABŞ 2020-cı ilə qədər Ermənistan və Gürcüstanı Azərbaycandan üstün tutmuşdur və onlara maliyyə yardımlarını əsirgəməmişdir. Bakı da belə davranışları unutmur!

## 2020-ci il: yeni dönüm məqamı

Çoxları ABŞ-nin Azərbaycanın öz torpaqlarını azad etməsi prosesinə olduqca qərəzli və dağıdıcı yanaşmasını gözləmirdi. Çünki, birincisi, Amerika dünyada özünü müstəqil dövlətçilik tərəfdarı kimi təqdim edirdi, ikincisi, söhbət müstəqil bir dövlətin ərazi bütövlüyünü və suverenliyini bərpa etməsindən başqa heç nədən getmirdi, üçüncüsü, ABŞ artıq keçmiş olan ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərindən biri kimi münaqişənin ədalətli həllini boynuna götürmüş ölkələrdən idi, dördüncüsü, Azərbaycanın enerji siyasətinin Avropanın enerji təhlükəsizliyi üçün prinsipial əhəmiyyətini vurğulayırdı.

ABŞ bütün bunların üstündən xətt çəkərək, beynəlxalq hüquqa sığmayan formada Azərbaycanı “işğalçı müharibə” aparmaqda ittiham etməyə başladı. Onunla kifayətlənməyərək, regionda pozucu fəaliyyətini gücləndirdi, bu istiqamətdə praktiki addımlar atdı. Bu fəaliyyətin nümunəsi kimi ABŞ Konqresi, Dövlət Departamenti və KİV-nin Azərbaycana qarşı tutduğu mövqeyi göstərə bilərik.

## Gülünc və ədalətsiz ittihamlar

Bir neçə gün əvvəl 60 konqresmen adından Dövlət Departamentinə biabırçı və haqsızlıqlarla dolu müraciət daxil olmuşdu. Sonra aydın oldu ki, sənədi Dövlət Departamentinin özündə hazırlayıblar. Bu da Amerika demokratiyası və liberalizmi. Sənəddəki ittihamlara baxın: “Azərbaycan Dağlıq Qarabağ anklavını ələ keçirərək, etnik erməni əhalisini öz yurdlarından didərgin” salmışdır, “Dağlıq Qarabağda ermənilərin hüquqi, siyasi və mülki institutlarını məhv” edilmişdir, “23 tanınmış erməni siyasi xadimini Azərbaycanda hələ də həbsdədir, “bütün tələblərə baxmayaraq, R.Vardanyanı həbsdən azad etmirlər” və s.

Bu qondarma ittihamlara “Washington Post” kimi bir nəşr daha gülünc bir “tezis” də əlavə edir: Azərbaycan “ABŞ-nin 60 konqresmeninin etnik ermənilərin, girovların və hərbi əsirlərin dərhal və qeyd-şərtsiz azad edilməsi çağırışını “iyrənc” adlandırmışdır” və buna görə də cavab verməlidir.

Bütün bunlardan amerikan siyasi şüuru üçün tarixi biabırçılıq olan nəticə çıxarılır: “daha bir nəhəng iqlim konfransı despotik rejimə kömək edir"! Söhbət nədən gedir? COP29-un Azərbaycanda keçirilməsindən! Qəribə deyildir, demokratiya və sivillik adına çox utandırıcıdır! Çünki bu kimi saxta ittihamlara bir qədər geniş kontekstdə baxanda rəsmi Vaşinqtonun nə dərəcədə qərəzli və yanlış yolda olduğunu görürük.

Məsələn, indiyə qədər Azərbaycanda ABŞ siyasiləri və diplomatlarının, KİV nümayəndələrinin də aktiv iştirak etdiyi tədbirlər olmuşdur. “Bakı prosesi”, Humanitar forum, enerji təhlükəsizliyi ilə bağlı beynəlxalq tədbirlər və s. Həmin tədbirlərdə Qərbin yüksək səviyyəli nümayəndələri iştirak edəndə onlar “despotik rejimə dəstək”dən danışmırdılar. Çünki dəqiq bilirlər ki, Azərbaycanda nə despotik, nə də avtoritar rejim mövcud deyildir. Əksinə, reallıq göstərir ki, Azərbaycan Cənubi Qafqazda yeganə güclü və demokratik dövlətdir ki, bütövlükdə regionaı əməkdaşlıq və təhlükəsizliyin təminatçısıdır. Məhz rəsmi Bakı ərazi bütövlüyünü bərpa edəndən sonra təcavüzkar Ermənistana barış və sülh əlini uzatdı. Bu barış və əməkdaşlıq əlini geri itələyən isə birbaşa ABŞ və Avropanın havadarlıq etdiyi rəsmi İrəvandır.

Bunlardan başqa, ABŞ-nin istinasız olaraq hər bir prezidenti Azərbaycan Prezidentinə müxtəlif əlamətdar günlərdə məktub yazaraq təbrik etmişdir. Bakının uğurlarını vurğulamış və əməkdaşlığı davam etdirməkdə maraqlı oldularını bəyan etmişlər. Lakin məktublarda Azərbaycandakı iqtidara hər hansı iradları olmamışdır! Bəs indi nə oldu ki, qəfil biz “despot” olduq?

Əsas səbəb Azərbaycanın kimsəyə baş əymədən müstəqil siyasət yeritməsi ilə bağlıdır. Həmin siyasət nəticəsində Azərbaycan Respublikası regionun lideridir, tam olaraq ərazi bütövlüyünü və suverenliyini təkbaşına təmin etmiş Cənubi Qafqaz dövlətidir! İndi də Azərbaycan bütün dünya üçün strateji əhəmiyyəti olan və təşəbbüskarı Qərbin özünün olduğu iqlim təhlükəsiliyi ilə bağlı, külli miqdarda maliyyə xərci çəkərək, böyük tədbir keçirir. Buraya dünyanın hər yerindən on minlərlə nümayəndə gələcək. Onlar Azərbaycan reallıqlarını öz gözləri ilə görəcəklər. Anlayacaqlar ki, Azərbaycanda despotik deyil, demokratik və həm də humanitar bir iqtidar vardır. Ayrıca, Azərbaycan cəmiyyəti tolerant, sülhsevər və çox qonaqpərvərdir. Belə bir cəmiyyətdə kiminsə etnik mənsubluğa görə heç bir problemi ola bilməz. Deməli, növbəti dəfə dünya ictimaiyyyəti erməni nağılının zərərini və onu uyduranların saxtakarlığını görəcəklər!

Ermənistanı, Fransanı, ABŞ-ni və digərlərini məhz bu gerçəklik narahat edir. Buna görə son dərəcə saxta və qərəzli davranırlar. Ancaq tarixin öz hökmləri vardır. Burada U.Çörçilin də bir fikrini xatırlatmaq olar. O demişdi ki, amerikanlar bütün səhv gedişləri edəndən sonra doğru olanını seçirlər! Görünür, Vaşinqton səhv gedişlər siyahısını hələ tamamlamamışdır!

Məsələ həm də başda ABŞ olmaqla kollektiv Qərbin Gürcüstana olan münasibətləri prizmasında bütövlükdə region kontekstində aktualdır. Bu aspekt üzərində ayrıca dayanmaq lazımdır.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# “Hazırda Gürcüstan hökumətinə Qərbdən ciddi təzyiqlər var”

**Gürcüstanda bu il oktyabrın 26-na planlaşdırılmış parlament seçkiləri ərəfəsində qonşu ölkədə ciddi siyasi gərginlik müşahidə edilməkdədir. Əsas mübarizə hakim “Gürcü Arzusu – Demokratik Gürcüstan” partiyası ilə kollektiv “Milli Hərəkat” adlandırılan və Gürcüstanda ictimai mühiti sarsıtmağa, inqilab təşkil etməklə hakimiyyət çevrilişinə nail olmağa çalışan müxalifət arasında gedir. Amma siyasi təhlilçilər hesab edirlər ki, hakimiyyət dəyişikliyi baş verərsə, Gürcüstan müharibəyə sürüklənə bilər. Müsahibimiz Gürcüstandakı vəziyyəti yaxından izləyən “Soydaş” İctimai Birliyinin sədri, siyasi təhlilçi Kamran Ramazanlıdır.**




***– Gürcüstan mühüm siyasi hadisə ərəfəsindədir. Ölkədə parlament seçkiləri keçiriləcək. Qonşu ölkədəki hazırkı siyasi atmosferi necə qiymətləndirirsiniz?***

– Gürcüstanda keçiriləcək parlament seçkiləri ərəfəsində siyasi atmosfer olduqca gərgindir. Eyni zamanda, qeyd etməliyəm ki, Gürcüstan seçkiləri təkcə bu ölkənin özündə deyil, bütün regionda xüsusi əhəmiyyətə malikdir. Mən xüsusilə vurğulaya bilərəm ki, bu gün bölgəmizin taleyi Gürcüstanda həll olunur. Artıq məlumdur ki, bu ölkədəki seçkilər dövründə müxtəlif ölkələrin özlərinə məxsus planları var.

Bundan əlavə, ölkədə seçkilər yalnız proporsional sistem üzrə keçirildiyi üçün prosesdə iştirak edən partiyalar arasında çox ciddi rəqabət var. Hətta bəzi qüvvələr arasında siyasi qarşıdurma yaranıb. Gürcüstanda seçkiqabağı proseslər təxminən bu vəziyyətdədir.

***– Proqnozlar seçkilərdə “Gürcü Arzusu – Demokratik Gürcüstan” partiyasının qalib gələcəyini göstərir. Ancaq Qərb ölkələrindən səsləndirilən hədə dolu son bəyanatlar belə düşünməyə əsas verir ki, Transatlantik icma dəfələrlə sınaqdan keçirdiyi “rəngli inqilab” ssenarisini reallaşdırmağa çalışa bilər. Bununla bağlı nə düşünürsünüz, belə bir ssenari mümkündürmü?***

– Ölkədə seçki öncəsi keçirilmiş sorğular mümkün nəticələri obyektiv qiymətləndirməkdədir. Yəni bütün sorğuların nəticələrinə görə, hazırkı hakimiyyət rəqiblərini xeyli qabaqlayır. Eyni zamanda, onu da qeyd etmək istəyirəm ki, ölkədəki müxalifət partiyaları bir neçə blokda birləşdiyi üçün, təbii ki, onların səsləri də bölünəcək. Bu isə o deməkdir ki, mövcud hakimiyyətin daha çox səs toplamaq imkanı olacaq. Mən nəticələrlə bağlı proqnoz kimi bunu vurğulaya bilərəm.

Ancaq sizin də qeyd etdiyiniz kimi, hazırda Gürcüstan hökumətinə Qərbdən də ciddi təzyiqlər var. Bu təzyiqlər, şübhəsiz ki, regionda sabitliyin pozulmasına xidmət edir. Bunlar son nəticədə təkcə Gürcüstanda deyil, bütün Cənubi Qafqazda sabitliyin pozulması ilə nəticələnə bilər. Buna cəhdlər edilir. Bu isə Azərbaycan-Gürcüstan müttəfiqlik münasibətləri üçün zərərlidir.

Hamımıza yaxşı məlumdur ki, Azərbaycan–Gürcüstan müttəfiqlik münasibətlərinin əsası müstəqillik dövründə ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulub. Gürcüstanın sabiq prezidenti Eduard Şevardnadze ilə ulu öndərin çox yaxşı münasibətləri vardı. Hər ikisi keçmiş SSRİ rəhbərliyində yüksək səviyyədə təmsil olunurdu. Hazırda Gürcüstanla strateji müttəfiqlik münasibətləri cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Gürcustanın mövcud hökuməti ilə Azərbaycan rəhbərliyi arasında sıx əməkdaşlıq var, tez-tez qarşılıqlı səfərlər edilir. Bu da bölgəmiz üçün böyük əhəmiyyət daşıyır. Çünki Gürcüstan-Azərbaycan münasibətlərinin yüksək səviyyədə olması, strateji müttəfiqlik səviyyəsinə gəlib çatması bütün bölgənin taleyi üçün mühümdür. İndiyədək hər iki ölkənin çalışdığı budur ki, bölgədə sülh, əmin-amanlıq və sabitlik olsun.

Azərbaycanın uğurla həyata keçirdiyi 44 günlük müharibədən sonra bölgəmizdə rəsmi Bakı tərəfindən sülhün təmin edilməsi ilə bağlı sanballı addımlar atılır. Qərb dairələri bunu qəbul etmək istəmirlər. Azərbaycanla Gürcüstan arasında münasibətlərin pozulmasını istəyirlər. Odur ki, seçkilərdən dərhal sonra bölgədə siyasi sabitliyi pozmaq üçün ən müxtəlif metodlardan istifadə etmək niyyətləri ortadadır.

Amma bu istiqamətdəki destruktiv səylərə baxmayaraq, inanıram ki, gürcü xalqı ölkədə yaşayan digər xalqlarla birgə düzgün seçim edəcək, bölgədə sülhə, əmin-amanlığa, Gürcüstan-Azərbaycan dostluğuna səs verəcək.

***– Gürcüstandakı seçkiləri Qərb və Rusiya arasında seçim imkanı kimi qiymətləndirməyə çalışanlar da var. Necə düşünürsünüz, iddia edildiyi kimi, gürcü xalqı hazırda belə ciddi seçim qarşısındadırmı?***

– Bəli, Qərbdə bəzi dairələr məsələni bu cür təqdim etmək istəyirlər. Kənardan da görünən odur ki, Qərb Gürcüstanın hazırkı hakimiyyətini Rusiyayönümlü kimi təqdim etməyə çalışır. Bu fikirlər əslində reallığı əks etdirmir. Bu hakimiyyət müstəqil siyasət aparır, ölkənin və bölgənin milli maraqlarını nəzərə alır, Azərbaycan-Gürcüstan dostluğunu davam etdirir. Bu isə bəzi Qərb dairələrini narahat etdiyi üçün gürcü iqtidarının bütün addımlarını Rusiyayönümlü kimi qələmə verirlər.

Məncə, bu kökündən yanlış yanaşmadır. Rusiya bizim qonşumuzdur, böyük



dövlətdir. Bu baxımdan Azərbaycanın bu dövlətlə strateji münasibətlər saxladığı, bunu müvafiq sazişlərdə, sənədlərdə əks etdirdiyi kimi, Gürcüstanın da Rusiya ilə normal münasibətlər qurması, məncə, doğru addımdır. Amma, təəssüf ki, Qərb dairələri Gürcüstanın bu addımlarını həzm etmək istəmirlər. Onların istədiyi budur ki, Ermənistanda atdıqları son addımları Gürcüstanda da tətbiq etsinlər və bölgədə Azərbaycanı sıxışdırsınlar. Təbiidir ki, Azərbaycan müstəqil dövlətdir, özünün xüsusi mövqeyi var. Qərbi narahat edən də Bakının müstəqil siyasət yürütməsidir.

İnanıram ki, bu seçkilərdə də Gürcüstanda sülhü, əmin-amanlığı istəyən, eləcə də Azərbaycanla dostluğun inkişafında maraqlı olan qüvvələr qalib gələcəklər. Yəni indiki hakimiyyət öz mövqeyini qoruyub saxlaya biləcək.

***– Gürcüstanın bəzi siyasi xadimləri müsahibələrində qeyd edirlər ki, sanki hakim partiya qalib gələrsə, ölkə təcridlə üzləşəcək və müharibə riski artacaq. Sizcə, hakim partiyanın qalib gələcəyi təqdirdə Gürcüstanda belə bir vəziyyət baş verə bilərmi?***

– Məncə, belə bir risk gözlənilmir. Çünki hakim partiya qalib gələrsə, Gürcüstan qonşu ölkələrlə, eləcə də Rusiya ilə normal münasibətlərin qorunub saxlanmasına tərəfdar olacaq. Belə olan təqdirdə, müharibə riski yoxdur. Gürcüstan istər Türkiyə, istərsə də Azərbaycanla çox yaxşı münasibətdədir. Azərbaycan və Gürcüstan liderləri arasında şəxsi münasibətlər də yüksək səviyyədədir və bu özü də az əhəmiyyət daşımır. Əgər qonşu Rusiya ilə də bu cür mehriban qonşuluq münasibətləri yaransa, məncə, müharibə riski olmayacaq.

Bu ölkədə müharibə riskini Qərb dairələri yaratmaq istəyirlər. Gözümüzün qabağında acı Ukrayna təcrübəsi var. Eyni zamanda, Gürcüstanın özünün 2008-ci il təcrübəsi var. O zaman həmin dairələr Gürcüstanla Rusiya arasında münasibətləri gərginləşdirdilər və rus qoşunu Tbilisinin ətrafına qədər gəlib çatdı. İndi Gürcüstanda sabitliyi pozmağa çalışan Qərb dairələri yenə Rusiya ilə münasibətləri gərginləşdirmək istəyirlər. Ancaq buna ehtiyac yoxdur.

***Söhbəti yazdı:***
***Paşa ƏMİRCANOV***
***XQ***

20 Oktyabr Zəngilan Şəhəri Günüdür

# Şərqi Zəngəzurun nicat, şərəf və öyünc günü




**(əvvəli 1-ci səhifədə)**

Qeyd etmək lazımdır ki, zəngilanlılara, qarabağlılara, əslində böyüklü-kiçikli bütün soydaşlarımıza bu xoşbəxtliyi müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin liderliyi ilə yenilməz Milli Ordumuzun igid, qeyrətli əsgər və zabitləri bəxş ediblər. Bu gün külli Qarabağda böyük quruculuq işləri görülür. Ən yaxın aylar, illər ərzində bütün köçkün ailələri doğma torpaqlara qayıdacaq, burada əkib-becərəcəklər, bəxtiyar ömür sürəcəklər.

Xatırladaq ki, şanlı Vətən müharibəsinin 24-cü günü – 2020-ci il oktyabrın 20-si hərb tariximizə Zəngilan şəhərinin və ətraf kəndlərin erməni işğalından azad edildiyi gün kimi yazılıb. Bu, qürurverici və unudulmaz qələbə Zəfər tariximizin ən şanlı səhifələrindən biridir.

Azərbaycan dövləti, təbii ki, bu əlamətdar hadisəni əbədiləşdirib. Prezident İlham Əliyevin 2023-cü il iyulun 31-də imzaladığı sərəncamla 20 oktyabr Zəngilan şəhəri günü elan edilib. Bu il artıq 2-ci dəfədir ki, xalqımız bu əlamətdar hadisəni təntənəli surətdə, böyük ruh yüksəkliyi və coşqu ilə bayram edir.

Bu məqamda yaddaşım məni təxminən 30-35 il əvvəlki illərə aparır. 1980-ci illərin sonlarında "Bakinski raboçi" qəzetinin Mil-Muğan regionu üzrə müxbiri idim. Zəngilana tez-tez gedərdim. Qarabağda separatizm baş qaldıranda Ermənistanla sərhəddə yerləşən Zəngilanın bir çox kəndlərində sabitlik pozuldu. Belə ki, erməni yaraqlıları dinc əhaliyə qarşı ağır təxribatlar törədirdilər. Əhali gecə-gündüz sərhədlərdə keşik çəkir, düşmən basqınlarını dəf etməyə çalışırdı.

Təəssüf ki, 1993-cü il oktyabrın 30-da Ermənistanın silahlı qüvvələri öz havadarlarının köməyilə torpaqlarımızı işğal etdilər. O gündən Zəngilanın 30 minə yaxın sakini respublikanın müxtəlif şəhər və rayonlarına səpələndi. Onlar bu onillər ərzində min bir əzab-əziyyətə qatlaşdılar, amma doğma torpaqlara qayıdacaqları ilə bağlı ümidlərini heç vaxt itirmədilər.

Bu dəhşətli haqsızlığın bir sonu olmalı idi. Axı həyatda ilahi ədalət var. Azərbaycan xalqı və dövləti özünü, gücünü toparladı, ordusunu gücləndirdi və yuxarıda qeyd etdiyimiz kimi, 4 il əvvəl yüksək şücaət və qəhrəmanlıq nümayiş etdirərək xain düşməni torpaqlarımızdan qovdu.



Bu gün Zəngilan torpağı azad nəfəs alır. Son 2-3 ildə rayonda olduqca geniş tikinti-quruculuq işləri aparılıb. Xüsusi qeyd etmək lazımdır ki, Füzulidəki böyük aeroportdan sonra Zəngilan Beynəlxalq Hava Limanı qısa zaman kəsiyində inşa edilərək istifadəyə verilibdir. Qürurverici haldır ki, Azərbaycan Prezidenti İlham Əliyev və qardaş Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğan bu mühüm obyektin açılışında iştirak ediblər.

Qeyd edək ki, 27 illik işğal dönəmində erməni vandalları bu gözəl diyarın təkcə kəndlərini, məktəb və bağçalarını, məscid və mədəniyyət abidələrini, istisnasız olaraq bütün ev və binalarını dağıdıb viran qoymayblar, həm də zəngin təbii sərvətlərini vəhşicəsinə daşıyıb aparıblar. Oğurlaya bilmədiklərini yandırıblar.

İndi qarşıda duran vacib məsələlərdən biri də işğal dövründə məhv edilən ekosistemin bərpasıdır. Bəsitçay hövzəsi boyunca mövcud olmuş təbii çinar meşəsi Avropanın ən böyük, dünyanın isə ikinci ən böyük çinar meşəsi olub. Ermənistan həmin unikal çinar meşələrinə qarşı ekosid həyata keçirib. Azərbaycan xalqı bu sahədə də yaraları sağaltmaqla məşğuldur. Zəngilanın ekosisteminin bərpası üçün 20 min çinar ağacı və 1000 kiloqrama yaxın palıd toxumu əkilib. Bu sahədə düşünülmüş planlı işlər davam edir.

Hazırda Zəngilanda əhalinin məskunlaşması ilə paralel olaraq, dayanıqlı kənd təsərrüfatı, turizm sahəsi, xüsusilə ekoturizm və kənd turizminin inkişafına təkan verə biləcək layihələr uğurla həyata keçirilir. Bütün bunlar əhalinin məşğulluğunu təmin etmək, rifahını yüksəltmək üçündür.

Bəli, faktlar və reallıq göstərir ki, bir vaxtlar ermənilərin vandalcasına yandırdığı, talayıb apardığı, bir sözlə viran qoyduğu ərazilərdə – Zəngilan rayonunda bu gün qəlbləri doğma yurd yerlərini yenidən abad etmək, qurub-yaratmaq eşqi ilə dolu olan insanların həyat eşqi coşub-daşır. Ona görə ki, bu torpağın həqiqi sahibləri əbədi olaraq qayıdıblar.

***Məsaim ABDULLAYEV***
***XQ***

# Zəngilanın daşı-torpağı da sevinir

**4 il əvvəlin 20 oktyabrında xalqımız cəbhədən gələn növbəti qələbə müjdəsi bu rayonun məcburi köçkün həyatı yaşayan sakinlərini xüsusilə çox sevindirdi.**

Bu gün yenidən qurulan, gündən-günə abadlaşaraq doğmalarına qucaq açan Zəngilanın şəhər günüdür. Bu bayram ərəfəsində Bakının Qaradağ rayonundakı Qobu Park yaşayış kompleksində müvəqqəti məskunlaşmış zəngilanlılarla görüşüdük.

**Burada hamının xətrini çox istədiyi şəhid xanımı Aypara İsmayılova torpaqlarımızın işğaldan azad edilməsindən sonra bütün acıları unutduğunu, qələbə sevinci yaşadığını bildirdi:**

– Həyat yoldaşım Nadir Birinci Qarabağ müharibəsi zamanı topçu idi. Neçə-neçə ağır döyüşlərdə iştirak etmişdi. Vətənini çox sevirdi. Elə canını da Vətən uğrunda fəda etdi, 1993-cü il fevralın 2-də qəhrəmancasına şəhid oldu. Çox şükür ki, onun qanı yerdə qalmadı. Zəngilan şəhərinin azad edilməsi xəbərini eşidəndə sevindiyimdən hönkür-hönkür ağladım. Bir gün sonra da mənim doğulub-böyüdüyüm Mincivan alındı. Həmin an mənə elə gəldi ki, Nadir də göylərdən bizə baxıb gülümsəyir.

**A.İsmayılova Qobu Parkda növbədənkənar mənzillə təmin edilib. Hər zaman dövlətin qayğısı ilə əhatə olunduğunu deyən şəhid xanımı bir arzusunu da dilə gətirdi:**

– Bu gün Zəngilanın daşı-torpağı da bayram edir. Çünki işğaldan azad edilmiş bütün torpaqlarımızda olduğu kimi, doğma Zəngilanım da yenidən qurulur, cənnətə çevrilir. O yerlərə yenidən həyat qayıdır. İndi mənim ən böyük arzum öz ata-baba yurduma qayıtmaq, orada yaşamaqdır.

Biz Zəngilanın şəhər gününü ən əziz bayramımız kimi qeyd edirik. Bu gün təkcə bizim deyil, bütün xalqımızın bayramıdır. Odur ki, başda bizə bu xoşbəxt günləri bəxş edən möhtərəm Prezidentimiz olmaqla bütöv Azərbaycanımızın hər bir vətəndaşını təbrik edirəm! Allah xalqımıza hər zaman belə bayram əhval-ruhiyyəli günlər qismət etsin!



**Qobu Park yaşayış kompleksində qonağı olduğumuz Birinci Qarabağ müharibəsi veteranı Mahir İbrahimov isə bildirdi ki, 1993-cü ildə Zəngilanın işğalı ilə nəticələnən o acı günləri unutmasaq da, artıq 4 ildir qürur və fəxarət hissi ilə torpaqlarımızın azad edilməsi tarixlərini qeyd edirik:**

– Mən rayonun Dəlləkli kəndindənəm. Erməni işğalçılarının Zəngilana amansız hücumları başlayanda 22 yaşım vardı. Könüllü olaraq o vaxt yeni yaranmış Milli Orduya yazılıb doğma yurdumun müdafiəsinə qoşuldum. Ancaq həmin vaxt silah-sursatımız çatışmırdı, azğınlaşmış düşmənin qarşısını almaq üçün kifayət qədər gücümüz yox idi. Ona görə də göstərdiyimiz müqavimət nəticəsiz qaldı. Vətən müharibəsi isə bir başqaydı. Mən köhnə döyüşçü kimi ordumuzun sürətlə irəliləməsini fəxrlə izləyirdim. Deyirdim ki, bax, müharibə belə olar! Komandanlıq, təchizat belə olar! Hamılıqla bütün torpaqlarımızın, o cümlədən Zəngilanın tezliklə erməni faşistlərindən azad ediləcəyinə inanırdıq. Şükür ki, bu xoşbəxt günləri yaşamaq bizə qismət oldu. Allah Prezidentimizi qorusun! Ordumuzu hər zaman müzəffər etsin!

**Söhbətimizə Mahirin həyat yoldaşı Validə xanım da qoşuldu:**

– Məcburi köçkünlüyün ilk illəri ağır keçdi. Ancaq dövlətimiz bizi heç zaman tək qoymadı, sahibsiz buraxmadı. Belə gözəl, rahat evlər tikib bizi müvəqqəti yerləşdirdilər ki, əziyyət çəkməyək. Dünyanın harasında müharibə şəraitində olan bir dövlət qaçqınların, məcburi köçkünlərin qayğısına bu qədər qalıb? İndi hamımız səbirsizliklə doğma yurd-yuvamıza qayıdacağımız günü gözləyirik.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

Zəfər marafonunun 24-cü günü

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu sonradan "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi, təxminən, 30 illik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.**

# Vətən müharibəsinin xronikası: 20 oktyabr



• Zəngilan şəhəri və rayonun 6 kəndi, Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının 18 yaşayış məntəqəsi işğaldan azad olunub. Prezident İlham Əliyev bununla bağlı xalqa müraciət edib.

Dövlət başçısı müraciətində bildirib: "Müzəffər Azərbaycan Ordusu döyüş meydanında yeni qələbələr qazanır. Bu qələbələr hər bir Azərbaycan vətəndaşını sevindirir. Torpaqlarımızı 30 ilə yaxın işğal altında saxlayan düşmən döyüş meydanında da Silahlı Qüvvələrimizin gücünü görür. Biz öz torpağımızda vuruşuruq, öz torpağımızı qoruyuruq və işğalçıları bundan sonra da öz torpaqlarımızdan qovacağıq".

Ali Baş Komandan daha sonra xalqımızın döyüş meydanından, cəbhə bölgəsindən səbirsizliklə yeni xəbərlər gözlədiyini, indi də belə şad xəbərləri Azərbaycan xalqına çatdırdığını və hər bir kəndin, hər bir şəhərin, hər bir strateji yüksəkliyin işğalçılardan azad edilməsinin böyük peşəkarlıq, cəsarət, rəşadət, qəhrəmanlıq tələb etdiyini vurğulayıb: "Bir sözlə, döyüş meydanında bizim üstünlüyümüz artıq heç kimə sirr deyil. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz öz torpağımızda vuruşuruq, şəhidlər veririk, öz ərazi bütövlüyümüzü bərpa edirik. Bundan sonra da bu addımlar atılacaq. Ermənistan hələ nə qədər gec deyil bəyanat verməlidir ki, işğal edilmiş torpaqlardan çıxıram. Ondan sonra döyüşlər dayana bilər".

Prezident İlham Əliyev xalqa müraciətinin sonunda deyib: "Əziz xalqım, əziz zəngilanlılar, füzulilər, xocavəndlilər, cəbrayıllılar və işğal edilmiş digər rayonların sakinləri, biz öz missiyamızı yerinə yetiririk. Düşmənə layiqli cavab veririk. Düşməni cəzalandırırıq. Düşmən bizim qarşımızda acizdir. Düşmənin belini qırırıq, qıracağıq! Qarabağ bizimdir! Yaşasın Azərbaycan! Eşq olsun Azərbaycan xalqına!".

• Birinci vitse-prezident Mehriban Əliyeva Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması ilə bağlı rəsmi instaqram səhifəsində paylaşım edib: "Füzuli, Cəbrayıl, Xocavənd və Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması münasibətilə xalqımızı təbrik edirəm. Yaşasın Azərbaycan xalqı və Azərbaycan Ordusu! Uca Tanrı xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!".

• Azərbaycan Ordusunun həyata keçirdiyi əməliyyatlar nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 4 ədəd BM-21 "Qrad" YARS qurğusu, 1 ədəd D-30 haubitsa topu və 5 ədəd avtomobil texnikası məhv edilib. Ordumuzun artilleriya zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə sahəsində düşmən bölmələrinin şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan olub. Alayın 1-ci motoatıcı taborunun şəxsi heyəti və döyüş texnikası tamamilə sıradan çıxarılıb, 2-ci motoatıcı alayın müdafiə sahəsində düşmənin bir bölməsi döyüş mövqelərini tərk edərək geri çəkilib. Füzuli rayonu istiqamətində əks-hücuma keçən düşmən bölmələrindən birinin 30 nəfər şəxsi heyəti Azərbaycan Ordusunun atəşi nəticəsində darmadağın edilib.

• Müdafiə Nazirliyi Azərbaycan Ordusunun artilleriya bölmələrinin Ermənistan silahlı qüvvələrinin atəş nöqtələrinə zərbələr endirməsi ilə bağlı videogörüntülər təqdim edib.

• Zəngilan şəhərində Azərbaycanın dövlət bayrağı ucaldılıb. Azərbaycan hərbçiləri bununla bağlı Prezident İlham Əliyevə məruzə ediblər. Məruzədə deyilir: "Möhtərəm cənab Prezident, cənab Ali Baş Komandan, əmrinizə uyğun olaraq məruzə edirəm ki, Zəngilan şəhəri və ətraf əraziləri işğaldan azad olunmuşdur. Hazırda Azərbaycan bayrağı dalğalanmaqdadır. Yaşasın, Azərbaycan! Yaşasın, Ali Baş Komandan! Qarabağ Azərbaycandır!".

Xatırladaq ki, oktyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqa müraciətində Füzuli rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı, Cəbrayıl rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli, Xocavənd rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Günəşli kəndinin keçmiş adı Noraşen idi), Vəng (yeni adı Çinarlı), Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunduğunu elan edib.

• Gəncə istiqamətində Ermənistan silahlı qüvvələrinə məxsus pilotsuz uçuş aparatı Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən məhv edilib.

• Müdafiə Nazirliyinin məlumatına əsasən, cəbhənin Ağdərə–Ağdam, Füzuli–Hadrut–Cəbrayıl və Qubadlı–Zəngilan istiqamətlərində itirdiyi mövqeləri bərpa etməyə cəhd edən düşmənə qarşı uğurlu əməliyyatlar aparılıb. Ümumilikdə düşmənin xeyli sayda canlı qüvvəsi, döyüş və avtomobil texnikası, artilleriya və zenit-raket qurğuları, silah və döyüş sursatları, əməliyyat-taktiki və ballistik raket qurğuları, yaylım atəşli, radioelektron mübarizə və tank əleyhinə vasitələri, o cümlədən S-300 tipli zenit-raket kompleksləri məhv edilib. Xeyli sayda silah-sursat, tank və artilleriya qurğuları ələ keçirilib.



• Ermənistan silahlı qüvvələrinə məxsus növbəti PUA Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən Goranboy rayonunun Tapqaraqoyunlu kəndi üzərində məhv edilib.

• Qubadlı istiqamətində gedən döyüşlərdə Azərbaycan Ordusunun artilleriya atəşləri nəticəsində Ermənistan silahlı qüvvələrinin bölmələrinin məhv edilməsinin videogörüntüsü yayımlanıb.

• Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində sentyabrın 27-dən oktyabrın 20-si saat 12:00-dək 61 mülki şəxs həlak olub, 291 nəfər xəsarət alıb, 1941 ev, 90 çoxmənzilli yaşayış binası və 382 mülki obyekt yararsız vəziyyətə düşüb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.

***XQ***

**Naxçıvan MR – 100**






# Naxçıvanın muxtariyyəti erməni millətçiləri üzərində tarixi qələbə idi

*Bu qurumun yaradılması qədim diyarı Azərbaycan ərazisi kimi qoruyub*

**Ötən il dekabrın 30-da Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb. Bu sənəddə Naxçıvanın Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutması, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynaması, əsrlər boyu yetirdiyi görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə töhfələr verdiyi qeyd olunub.**

Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyi ilə bağlı belə bir dövlət sənədinin imzalanması çox böyük əhəmiyyət daşıyır. Çünki 1924-cü ildə Naxçıvana Azərbaycanın tərkibində muxtar respublika statusunun verilməsi tarixi zərurətdən yaranmışdı, eyni zamanda bu cür yüksək statusa malik olmasına baxmayaraq son iki yüz ildən artıq bir dövrdə davamlı olaraq haqqında əsassız ərazi iddialarının irəli sürüldüyü bir bölgə kimi Naxçıvan daim ermənilər və onların havadarları tərəfindən ön planda saxlanılıb.

Ən yaxın tarixin təcrübəsi də göstərir ki, əgər ötən əsrin 90-cı illərində ümummilli lider Heydər Əliyev Naxçıvanda olmasa idi, bu qədim Azərbaycan torpağı da işğal ediləcəkdi. Hər halda o dövrün reallıqları bunun üçün münasib idi. Təsadüfi deyil ki, sərəncamın preampula hissəsində də məxsusi olaraq vurgulanır ki, "… Strateji mövqeyi ilə seçilməsi tarixən Naxçıvanı vaxtaşırı gərgin siyasi mübarizələr meydanına çevirsə də, bu diyar qarşılaşdığı bütün sınaqları qətiyyətlə dəf etmişdir".

Sərəncama əsasən, Naxçıvan Muxtar Respublikasının yaranmasının Azərbaycanın siyasi tarixində çox mühüm hadisə olduğu nəzərə alınaraq ölkəmizdə keçirilən silsilə yubiley tədbirləri davam edir. Təbii ki, il ərzində 100 illik yubiley tədbirlərinin keçirilməsi muxtar respublikada bir çox sahələrin tarixi inkişaf yoluna yenidən nəzər salmağa imkan verir. Amma bunlar içərisində ən önəmlisi muxtar respublikaya muxtariyyət statusunun verilməsinin zəruriliyinin gündəmə gətirilməsidir. Bunun da əsas səbəbi erməni millətçilərinin qədim diyara əsassız ərazi iddialarının Qarabağ məğlubiyyətindən sonra da davam etməsidir. Və burada istər-istəməz belə bir sual ortaya çıxır ki, həqiqətənmi ermənilərin Naxçıvana torpaq iddialarının kökündə bu qədim diyarın strateji mövqedə yerləşməsi dayanır?



Tarixi mənbələrə görə, 1787-1791-ci illərdə rus-türk müharibəsi başa çatdıqdan sonra 1799-cu ildə Rusiya imperatriçəsi II Yekaterinanın verdiyi fərman əsasında ermənilər Krım yarımadasından köçürülərək "Şimali Qafqazın qapısı" hesab edilən Rostov qalasının ətrafına yerləşdirilir. Don çayının sahilinə köçürülən ermənilər yerləşdikləri yerə "Yeni Naxçıvan" adı verirlər. 1838-ci ildən sonra isə bu ərazini "Naxiçevan-na Donu" adlandırırlar. 1928-ci ildə isə bu kiçik qəsəbə Rostov-Don şəhərinin bir hissəsinə çevrilməklə "Proletarnıy" rayonu adlandırılır və hazırkı adı da belədir. Əslində isə ruslar ermənilərin bu həyasız təbliğatının bir gün onların özlərinə qarşı da istifadə olunacağını dərk edib bu addımı atırlar.

ABŞ-da yaşayan və milliyətcə gürcü olan, "Unudulmuş genosid", "Erməni təbliğatının ikiüzlülüyü və yalanı" kitablarının müəllifi Feliks Sersvadze 2005-ci ildə Nyu-Yorkda nəşr olunmuş "Ermənistan və Dağlıq Qarabağ. Miflərin formalaşdırılması" kitabında yazır ki, 1799-cu ildə erməni arxiyepiskopu İosif Donda erməni muxtariyyəti təşkil etmək qərarına gəlir. Bu məqsədlə o, həmin əraziyə Türkiyə və Krımdan köçürülmüş on minlərlə erməni gətirdi və hətta gələcək muxtariyyətin paytaxtı kimi – Don üzərindəki Naxçıvan adlı şəhər də saldı. Rusiya hakimiyyətindən əla güzəştlər aldı: erməni əmlakının Krımdan dövlət hesabına daşınması, iribuynuzlu mal-qaranın saxlanması üçün bir neçə min desyatin torpaq, 10 il ərzində vergilərdən sərbəst olmaq, erməni gənclərinin rus ordusunda xidmətdən azad edilməsi.

Bundan başqa, hər ev sahibinə 30-40 desyatin torpaq, ev tikmək üçün pulsuz inşaat materialları ayrılırdı. Toxum, mal-qara və iş alətləri 10 illiyinə verilirdi… Rusiya hakimiyyət dairələri erməni icması üçün böyük güzəştlərə gedir, hətta şəhər salmağa icazə verirdilər, lakin muxtariyyət yaratmağa qətiyyətlə icazə vermədilər. Yuxarıda adıçəkilən Don üzərindəki Naxçıvan şəhəri sonradan Rostov-Don şəhərinin tərkibində "əridi" və itdi. Amma Donda yaşamaları ermənilərə özlərini "Don kazakları" adlandırmaları üçün bəhanə verdi…

Maraqlıdır, ermənilər niyə yerləşdikləri bu yeri "Yeni Naxçıvan" adlandırmalı idilər?

Hamımıza məlumdur ki, qədimdən də qədim olan Naxçıvan Nuh Peyğəmbərin quruya ilk ayaq basdığı torpaqdır. Yəni bəşər sivilizasiyasının ikinci yaranışı bu müqəddəs yerdən başlayır. Ermənilər də hər kəsə özlərini qədim sivilizasiyanın bir hissəsi olduqlarını sübut etmək üçün Nuhun övladlarının soyundan gəldiklərini sırımağa çalışırlar. Erməni alimləri Nuhun Vətəni olan Naxçıvanı "Naxiçevan" formasına salmaqla sözü iki hissəyə ayırır və "Nax" hissəsini "birinci", "ilkin", "icevan" hissəsini isə "çıxış yeri", "dayanacaq" kimi izah edirlər. Halbuki ermənicə "ilkin" ifadəsinin qarşılığı "himnakan", "çıxış yeri", "dayandığı yer" ifadəsinin qarşılığı isə "vayrejk"dir. Ancaq indiyə kimi heç kim Naxçıvanın adına heç bir mənbədə "Himnakan vayrejk" kimi rast gəlməyib. Türk dillərində isə, xüsusən Azərbaycan türkcəsində bu ifadə çox sadə və asan "Nuh çıxan yer" kimi izah olunur.

Əlavə şərhə ehtiyac yoxdur. Artıq 2024-cü ilin son aylarıdır və Naxçıvan muxtariyyətinin 100-cü ildönümü təntənələri davam edir. Bu gün Naxçıvan qalib Azərbaycan–Qərb tranzitində açar rolunu oynayan region kimi diqqət çəkir. Zəngəzur dəhlizinin açılmasından sonra mühüm nəqliyyat habına çevriləcək qədim diyar həm də Cənubi Qafqazın iqtisadi inkişafına və təhlükəsizliyinə öz töhfəsini verəcəkdir.

*Səbuhi HƏSƏNOV*
*XQ-nin Naxçıvan müxbiri*

# Nuh yurdunda "yaşıl" mediatur



**Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin təşkilatçılığı ilə COP29-a hazırlıq çərçivəsində və Naxçıvanın "Yaşıl enerji" zonası elan olunması ilə əlaqədər enerji keçidi təşəbbüslərini təbliğ etmək və bu sahədə görülən işləri ictimaiyyətə daha geniş çatdırmaq məqsədilə ölkənin aparıcı media qurumları nümayəndələri üçün mediatur təşkil edilib. 2 günlük aksiyada jurnalistlərə muxtar respublikada qurulan və istismar olunan müxtəlif alternativ və bərpa olunan enerji mənbələri tanıdıldı.**

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin rəis müavini Məhərrəm Abbasov jurnalistlərə bildirdi ki, bu gün Naxçıvandakı stansiyaların generasiya gücü 244,8 MVt-dır. Yaxın illərdə 1500 MVt güc əlavə olunaraq enerji istehsalının 5 dəfə artırılması planlaşdırılır. O, dövlət proqramına əsasən, "yaşıl enerji" istehsalı üçün 7 min 992 hektar ərazi ayrıldığını qeyd edib. Artıq yerli və xarici şirkətlərlə memorandum imzalanıb. İlkin mərhələdə gücü 30 meqavat olan yeni Günəş Elektrik Stansiyasının tikilməsi üçün 688 hektar ərazi ayrılıb.

Görülən bu işlərin nəticəsində Naxçıvanda ümumi elektrik enerjisinin istehsalında "Yaşıl enerji"nin payı illər üzrə davamlı olaraq artır. Belə ki, 2023-cü ilin 9 ayında "yaşıl enerji"nin istehsal payı 35,1 faiz olduğu halda, 2024-cü ilin müvafiq dövründə bu rəqəm 53 faizə yüksəlib. Hazırda ümumi elektrik enerjisinin 55 faizi "yaşıl enerji"nin hesabına təmin olunur. Çaylarda suyun səviyyəsinin yüksək olması ilə əlaqədar elə ay olub ki, bir ay ərzində ümumi elektrik enerjisinin 100 faizi "yaşıl enerji"nin payına düşüb.

Sonra media nümayəndələri Culfa Külək Elektrik və Külək-Günəş Hibrid Elektrik stansiyalarında oldular. Burada jurnalistlərə məlumat verildi ki, Culfa şəhərinin külək potensialı nəzərə alınaraq burada ümumi gücü gücü 0.3 MVt olan külək stansiyası yaradılıb. Stansiyada 10 ədəd gücü 30 kVt olan külək turbini və 30 kVt gücündə olan invertor quraşdırılıb. Bu stansiya ANE şirkəti və yerli mütəxəssislər tərəfindən ərsəyə gətirilib. 2022-ci ildə istifadəyə verilən stansiya bu il 442 min kVt/saat enerji istehsal edib. Culfada 3,3 hektar sahədə yerləşən və gücü 1,1 MVt olan Külək-Günəş Hibrid Elektrik Stansiyası da yaradılıb. Burada gücü 280 Vatt olan 3 520 ədəd günəş paneli və 20 ədəd gücü 50 kVt olan invertor, 12 ədəd gücü 10 kVt olan külək turbini və 12 ədəd invertor quraşdırılıb. 2021-ci ildə istifadyə verilən stansiya 2023-cü ildə 1 milyon 600 min kVt/saat enerji istehsal edib.



Həmin gün jurnalistlər muxtar respublikanın ən böyük su elektrik stansiyası olan Araz SES-də də oldular. Stansiya ilə tanışlıq zamanı Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin rəis müavini Tural Murtuzəliyev bildirib ki, Araz Su Elektrik Stansiyası Naxçıvanın enerji qıtlığı baxımından çətinlik çəkdiyi dövrlərdə muxtar respublikanın elektrik enerjisi ilə təminatında mühüm rol oynayıb. Stansiyanın ümumi generasiya gücü 22 meqavatdır. Gələn il Araz Su Elektrik Stansiyasının 55 illiyi Energetika Xidməti tərəfindən geniş şəkildə qeyd olunacaq. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"na görə Araz SES yenidən qurulacaq.

Media nümayəndələri səfərin ikinci günündə Naxçıvan Günəş Elektrik Stansiyasının işi ilə tanış oldular. Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin mətbuat xidmətinin rəhbəri Mətin Abbaslı jurnalistlərə bildirdi ki, Naxçıvanda ilk dəfə 2015-ci ildə 22 meqavat gücündə Naxçıvan Günəş Elektrik Stansiyası tikilib. Bu stansiya 230 meqavat gücündə Qaradağ Günəş Elektrik Stansiyasından sonra generasiya gücünə görə ölkədə ikinci Günəş Elektrik Stansiyasıdır. Hazırda Naxçıvanda 4 Günəş Elektrik Stansiyası – Xalxal, Şərur, Kəngərli Günəş Elektrik və Culfa Külək-Günəş Hibrid Elektrik stansiyaları fəaliyyət göstərir.

Bildirildi ki, ötən dövrdə mövcud potensialdan istifadə etməklə elektrik enerjisinin ixracı istiqamətində müvafiq tədbirlər reallaşdırılıb. Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında elektrik enerjisi mübadiləsi imkanlarına dair zəruri araşdırmaların aparılması məqsədilə Azərbaycan Respublikası energetika nazirinin 2021-ci il 3 avqust tarixli əmri ilə yaradılmış işçi qrupla Türkiyə Respublikasının aidiyyəti qurumlarının nümayəndələri arasında da müxtəlif vaxtlarda görüşlər keçirilib.

Türkiyə və Naxçıvan tərəfində olan ötürücü və paylayıcı yarımstansiyalar, elektrik verilişi xətlərinin mövcud vəziyyəti, sayğacların yerləşmə nöqtələri, rele-mühafizə sistemlərinin tətbiq sahələri, TEİAŞ (Türkiye Elektrik İletim Anonim Şirketi) və Xidmət arasında enerji ixracı ilə bağlı müvafiq "Əməliyyat müqaviləsi"nin bağlanılmasına görə sənədləşmə işlərinin qarşılıqlı müzakirəsi aparılıb. Müqavilənin yaxın zamanlarda imzalanması planlaşdırılır.

Türkiyə–Naxçıvan elektrik enerjisi idxalı-ixracı əlaqəsi haqqında ENTSO (European Network of Transmission System Operators) tərəfindən 75 meqavat ixrac (Türkiyə tərəf passiv ada rejimində olmalıdır), 40 meqavat idxal (Naxçıvan tərəf passiv ada rejimində olmalıdır) ötürməyə icazə verilib.

Mediatur COP29 öncəsi ölkə jurnalistlərində Naxçıvanda "yaşıl" enerji təşəbbüslərinin uğurla gerçəkləşdirilməsi ilə bağlı canlı və geniş təsəvvür yaratdı.

***XQ***

**20 Oktyabr Energetiklər Günüdür**

# İşıq şəhərinin işıqlı adamı



**İşıq deyəndə öncə insanların gözü qarşısına Mingəçevir gəlir. Hələ bu şəhər enerji istehsal etmədiyi 1948-ci ildə Xalq şairi Səməd Vurğun “Muğan” poemasında yazırdı: “Alo, Mingəçevir, Bakıyam, mənəm, Bir az işıq göndər...”**

Ötən əsrin 50-ci illərdə Mingəçevir SES-in, 80-90-cı illərdə Azərbaycan İES-in tikintisi ilə ölkəmizin nur şəhərinə, enerji paytaxtına çevrildi. Prezident İlham Əliyevin 2004-cü il 13 oktyabr tarixli sərəncamı ilə Energetiklər Gününün qeyd edilməsi də 1981-ci il oktyabrın 20-də Heydər Əliyevin Mingəçevirə gəlişi ilə bağlıdır. Ulu öndərin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə tikilən Azərbaycan İstilik Elektrik Stansiyasının birinci enerji bloku məhz həmin gün istifadəyə verildi. Son 44 ildə bu stansiyada və şəxsi həyatında baş verənləri qəhrəmanımız Ramiz Qasımovun dilindən eçitmək oxucularımız üçün maraqlı olacaq.



## Kənddən Bakıya

Təhsil almaq üçün Sarıcalıdan Bakıya gələndə Ramizin 17 yaşı var idi. Hüquqşünas olmaq arzusunda idi. İmtahanlara yaxşı hazırlaşmışdı. Düşünürdü ki, 5-6 ildən sonra qanun keşikçisi kimi rayona qayıdacaq, haqsızlıqlara qarşı mübarizə aparacaq. Amma 12-13 yaşlı məktəbliyə bənzəyən bu çəlimsiz gəncə sənəd qəbulu komissiyasında “yox” dedilər: “Get, bala, iki-üç il staj qazan, sonra gələrsən...”

Hünbət kişi oğlunun istəyinə qarşı çıxmasa da, başa düşürdü ki, onun hüquq fakültəsinə qəbul olması asan deyil. Riyaziyyat fənnindən dərs deyən Xasay müəllim də atası ilə həmfikir idi: “Ramiz, gəlsənə səninlə bir az məşğul olum, texniki ali məktəbə gedəsən, mühəndis olasan”.

Sinif yoldaşlarından bir neçəsi məktəbi qurtaran ili Neft və Kimya İnstitutuna daxil olmuşdu. Orta məktəbdə, rəsmxət dərsində cizgiləri çəkərkən onların köməyinə çatan Ramiz isə kənarda qalmışdı. Amma həyat elə gətirdi ki, növbəti il həmin institutda istilik energetika mühəndisliyi ixtisasına qəbul olan Ramiz Qasımov ali məktəbi həmkəndlilərindən tez bitirdi. Ötən əsrin 80-ci illərində yaşayanlar yaxşı bilirlər ki, Neft və Kimya İnstitutuna girmək asan olsa da, 5 ilə onun diplomunu almaq hər kəsə qismət olmurdu. Çünki təhsil proqramı çox ağır idi, bəziləri bu ağırlığa dözmür, ya bir neçə il kursda qalır, ya da məktəbi tərk edirdi...

## Bu dəfə kənddən Mingəçevirə

Ramiz Qasımov mühəndis kimi iş həyatına Füzuli rayonunun Alxanlı kəndində, o dövrün nəhəng şərab zavodunda qazanxana rəisi kimi başladı. Təyinatla gəlmişdi, azı 3 il çalışmalı idi, yoxsa, gənc mütəxəssisə verilən imtiyazlardan məhrum olacaqdı. Amma burdakı iş ürəyindən deyildi, çünki bacarıqlarını üzə çıxarmaq, yenilik etmək üçün meydan dar və cansıxıcı idi. Baxmayaraq ki, çoxları həmin vəzifəni tutmaq üçün nəyə desən razı idi. Onun isə əmək haqqından başqa, nəsə qazanc əldə etmək heç ağlına da gəlmirdi.

Tələbə ikən müəllimləri institutda, elmi işlə məşğul olmağı məsləhət bilmişdilər. Amma cüzi məvaciblə Bakıda qalmaq, kirayə pulunu ödəmək çətin idi. Sonradan da cəhd göstərdi, paytaxta yaşayış qeydiyyatına düşə bilmədiyi üçün geri qayıtmalı oldu.

İş elə gətirdi ki, 80-ci ilin sonunda Mingəçevirə gəldi. Burada Zaqafqaziyanın ən nəhəng müəssisəsi olan Azərbaycan İstilik Elektrik Stansiyasının tikintisinə başlanmışdı. Qışda palçıqdan, yayda tozdan keçilməz olan ərazidə həm yeni qəsəbə salınır, həm də birinci enerji bloku inşa edilirdi. Keçmiş SSRİ-nin bir çox yerlərindən təcrübəli mütəxəssislərin cəlb olunduğu tikinti meydanında yerli işçilərə də ciddi ehtiyac duyulurdu.

## Yüksək etimada cavab

Qəhrəmanımız o günləri belə xatırlayır:

– Direktor Süleyman Lətifov məni özü qəbul etdi, diplomuma baxandan sonra bir neçə sual verdi, elə yanımdaca kadrlar şöbəsinin rəisinə zəng vurdu: “Bu cavan oğlanı yanacaq-nəqliyyat sexinə qəbul edin”. Beləcə, 1981-ci il yanvarın 15-də bu möhtəşəm stansiyada əmək fəaliyyətimə başladım. 1984-cü ildə isə məni bu sexə rəis təyin etdilər.

Həmsöhbətim deyir ki, həmin sex stansiya üçün damarlarda axan qan kimi vacib idi: “Qış aylarında bir sutka ərzində 12 min tona yaxın (hər biri 60 ton olan 200 sistern) mazut yandırılırdı. Yayda enerjiyə tələbat azaldığından sutkalıq mazut istifadəsi 9-10 min ton olurdu. Hələ mazutun daşınması zamanı yaranan çətinlikləri demirəm.

Bizim öhdəmizdə 7 teplovoz var idi, bir-ikisinin xarab olması işimizə ciddi əngəl törədirdi. Çünki onların ehtiyat hissələrinin gətirilməsi xeyli vaxt alırdı. Ona görə də təmir işlərini özümüz edirdik, hətta bəzi detalları da hazılayırdıq. Dəmir yolunu təmir etmək də bizim sexin üzərində idi. Bütün bu işlərin öhdəsindən heç də kiçik olmayan, 156 nəfərlik kollektivlə gəlməyə çalışırdıq.

## Stansiya yaşıllığa bürünür

Təkcə yanacaq-nəqliyyat sexində deyil, tikintinin hər yanında tör-töküntü qalaqlanmışdı. Mazuta bulaşmış avadanlıq



və ehtiyat hissələrinin sayı-hesabı yox idi. Ağcabədinin Sarıcalı kəndində bağ-bağçalar qoynunda böyümüş Ramiz üçün bu mənzərə ürəkbulandırıcı idi. Düşünürdü ki, bu əraziləri də yaşıllığa çevirmək, səliqəli vəziyyətə götürmək mümkündür.

Müdiriyyət onun təklifini razılıqla qarşıldı. Əvvəlcə kollektiv şəkildə iməcilik keçirdilər, ərazini təmizləməyə nail oldular. Ardınca yaşıllıq zolaqları salmağa qərar verdilər. Gənc mühəndis müxtəlif bəzək və meyvə ağacları gətizdirərək, bir neçə ilə yanacaq-nəqliyyat sexinin ətrafını yaşıllıq zolağına çevirə bildi. Bundan sonra təşəbbüs digər ərazilərə də ayaq açdı. Bu gün isə stansiyanın ərazisinə daxil olanda özünü istirahət parkında hiss edirsən.

Ramiz müəllimin fikrincə, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü və maliyyə yardımı ilə son illər stansiyanın yenidən qurulması prosesi ərazidə yaşıllığın artmasına da gətirib çıxarıb: “Azərenerji”nin prezidenti Baba Rzayev, stansiyamızın direktoru Təhmasib Hüseynov bu işdə də diqqətlidirlər, hər balaca tingin qol-budaq atması, böyüməsi üçün əllərindən gələni edirlər. Bir zamanlar insanlar inanmırdılar ki, burda ağac yetişdirmək olar. Amma indi hər cür bəzək və meyvə ağacları stansiyanın həyətini bəzəyir. Həm də işçilərimiz meyvələrdən evlərinə də aparırlar”.

## Mazutla, yoxsa qazla?

80-ci illərdə və sonralar stansiyanın qaz, yoxsa mazutla işləyəcəyi böyük müzakirə mövzusu idi. Hamı başa düşürdü ki, enerjiyə ciddi ehtiyac var, amma mazutdan yanacaq kimi istifadə edilməsi havaya külli miqdarda karbon emissiyasının atılmasına gətirib çıxaracaq. Hətta İrandan qaz alınması variantı üzərində də iş gedirdi. Ramiz müəllim o günləri isə belə yada salır:

– 1981-ci ilin oktyabrında Heydər Əliyev stansiyaya gəldi, 1-ci blokun açılışında iştirak etdi. Ulu öndər görüşdə dedi ki, Azərbaycan DRES-də ancaq qaz yandırılması üçün Moskva ilə danışıqlar aparıram və bundan ötrü bütün gücümlə çalışacağam. Biz ilkin olaraq 2 çəni mazutla doldurmuşduq. Onun bütün çətinlikləri – daşınma, saxlama problemlərinin içində idim. Başa düşürdüm ki, mazut yandırılanda kükürd anhidridi ekologiyaya ciddi ziyan vuracaq. Amma tale elə gətirdi ki, sovet vaxtı Azərbaycana qaz vermədilər, öz qazımızla işlədik, 50 faiz qaz və 50 faizi mazutla. Sonradan qaz dayandırıldı. Mazuta keçdik. Ta 2002-ci ilə kimi. Ondan sonra stansiya qazla işləməyə başladı. Bu gün stansiya 100 faiz qazla işləyir.

Ramiz Qasımov 1999-cu ilədək yanacaq-nəqliyyat sexinin, 2019-cu ilədək avadanlıqların sazlanması və sınaq sexinin rəisi olub. Burdakı iş yerində enerji bloklarının iş rejimi ilə məşğul olurdu. Son 4 ildə isə stansiyanın beyni hesab olunan texniki istehsalat şöbəsinə rəhbərlik edir. Bütün tapşırıqlar, hesabatlar bu şöbədə hazırlanır. Gündəlik iş rejimləri, istehsalın həcmi, yanacaq məsrəfi, bloklarda və qazanlarda təmirlərin təşkili, mal-material planlaşdırılması, sifarişi və alınması və digər məsələlərlə məşğul olmaq gündəlik işidir.

## Ramiz, toyundur...

Gələn ilin fevralında Ramiz Qasımovun 70 yaşı tamam olacaq. Amma o, kifayət qədər gümrah və güclü qalıb. Gənclərin bacarmadığı işləri də rahatlıqla icra edir: “Mən xaraktercə çöl-bayır adamıyam. Əvvəllər daha hərəkətli işdə idim, təbiətin qoynunda olurdum, bir dəqiqə oturmağa vaxtım yox idi. İndi onlardan məhrumam, çünki oturaq işdə çalışıram”.

Onu da öyrəndik ki, 28 yaşında evlənib. Ramiz müəllim bununla bağlı maraqlı bir əhvalatı yada salır:

– Əslində, mənim evlənməyim “Əhməd haradadır?” filmindəkinə bənzəyir”. Nazim adlı bir iş yoldaşım var idi. Həm də birgə oxumuşduq. Atam onu Bakıdan, institutdan tanıyırdı. Bir gün atam Mingəçevirə gələndə görüşmüşdülər. Nazim də zarafatla demişdi ki, bəs Ramiz çox əziyyət çəkir, ona bir paltaryuyan lazımdır. Cəmi iki köynəyim vardı, birini yuyub, o birini geyirdim. Bir həftədən sonra bir KamAZ sürən qohumum maşını ilə qaldığım yerə gəldi ki, bəs atan sənə paltaryuyan göndərib. ORS markalı soyuducu idi.

Atam evdə deyir ki, bəs Ramizə paltaryuyan lazım idi, Mingəçevirdən qum gətirməyə gedən qonşumuzla yolladım. Evdə düşürlər kişinin üstünə ki, bəs sən o eyhamı düzgün başa düşməmisən. Bir həftədən sonra gəldilər ki, bəs kəndə gəl, toyundur. Beləcə mənim qonşumuzun qızı ilə evləndirdilər.

Ailə quran kimi Ramizgilə xidməti, iki ildən sonra isə 3 otaqlı mənzil veriblər. Bu evdə ailə 2 oğul, 1 qız böyüdüb. İndi Ramiz müəllimin 7 nəvəsi var. Kiçik oğlu ailəsi ilə birgə onlarla yaşayır. Nəvələr babanın hər gün işdən gələcəyini səbirsizliklə gözləyirlər. Gələn kimi onun qucağına çıxıb, təzə suallarını verirlər.

Bu gün də ömür yolu barədə bizim suallarımızı cavablandırdı. İşıq şəhərinin işıqlı bir mühəndisinin işıqlı həyatı qəlbimizə işıq gətirdi.

***Fərman NƏBİYEV,***
***“Mingəçevir işıqları” qəzetinin baş redaktoru, Əməkdar jurnalist***

# “Charlie Hebdo”nun növbəti həyasızlığı və...

**(əvvəli 1-ci səhifədə)**

Bəli, “Charlie Hebdo” əvvəllər də qərəzli, təfriqəçi, həqarət dolu baxışlar yayıb. Manipulyativ mahiyyət daşıyan dəstxəti ilə özünü peşəkar jurnalistika prinsiplərinə meydan oxumağa kökləmiş jurnalın satira adı altında söz və ifadə azadlığından aşkar sui-istifadə cəhdlərinə qarşı zəruri ictimai reaksiya yoxdur, qanuni ölçü tədbiri götürülmür. Elə onun 2021-ci ildə Məhəmməd Peyğəmbərin (s.) karikaturasını yayımlamaqla, diqqəti özünə cəlb etməsinə də göz yumulmuşdu. Ancaq Fransanın, o cümlədən, Avropanın müsəlmanları media orqanına qarşı qəzəb və hiddətlərini bildirmişdilər. Bundan əvvəl isə...

“Charlie Hebdo”ya qarşı qəzəb və hiddətin nəticəsi idi ki, 2015-ci ilin yanvarında jurnalın redaksiyasına silahlı basqın olmuşdu. Belə ki, Paris şəhərində yerləşən baş ofisinə naməlum 2 silahlı şəxsin etdiyi hücum nəticəsində dərginin 12 nəfər əməkdaşı qətlə yetirilmişdir. Öldürülənlər arasında baş redaktor Stefan Şarbonye də var idi. Həmçinin, Jan Kabu, Bernar Verlak və Jorj Volinski kimi karikaturaçı və digər jurnalistlər də faciənin qurbanı olmuşdular.

Əlbəttə, məqsədimiz heç də bu qorxunc hadisəyə haqq qazandırmaq ola bilməz. Hər bir halda, zorakılıq və qətl yolverilməzdir. Amma yuxarıda da vurğuladığımız kimi, “Charlie Hebdo” kimi nəşrlərin mövcudluğu söz və ifadə azadlığına ləkədir. Buna rəvac verən isə Fransa hakimiyyətidir. Prezident Makron administrasiyası duruma göz yumduqca, jurnalla bağlı qanuni ölçü tədbiri götürmədikcə, üstəlik, onun yarıtmaz fəaliyyətini ifadə azadlığı baxımından əsaslandıran açıqlamalar verdikcə, vəziyyət daha da gərginləşəcək. Nəzərə alaq ki, qanunların işləmədiyi bir məmləkətdə insanlar özləri qanunsuzluğa qarşı tədbir görməyə başlayırlar. “Charlie Hebdo”nun redaksiyasına basqın bunun əyani təzahürüdür. Ən pisi isə budur ki, məsələnin bütövlükdə Avropa üçün mənfi presedent təmayülü var.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Bişkekdə TDT iqtisadiyyat və ticarət nazirlərinin 13-cü görüşü

**Bişkekdə Türk Dövlətləri Təşkilatının (TDT) üzvü olan ölkələrin iqtisadiyyat və ticarət nazirlərinin 13-cü görüşü keçirilib.**




Tədbirdə Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, həmçinin müşahidəçi kimi Macarıstan nümayəndələri iştirak edib. Ölkəmizi bu görüşdə iqtisadiyyat nazirinin müavini Rövnəq Abdullayev təmsil edib.

Tədbirdə TDT çərçivəsində bütün istiqamətlərdə əlaqələrin genişləndirilməsi, ticarət-iqtisadi sahədə əməkdaşlığın daha da möhkəmləndirilməsi, inteqrasiya proseslərinin gücləndirilməsi məsələləri müzakirə olunub.

Görüşdə deyilib ki, TDT çərçivəsində yaradılan Türk İnvestisiya Fondu TDT ölkələrinin dinamik inkişafı və çiçəklənməsi üçün iqtisadi və investisiya əməkdaşlığının genişləndirilməsi, birgə investisiya layihələrinin həyata keçirilməsi, kapitalın, yeni texnologiyaların cəlb edilməsində ümumi istəkdən xəbər verir.

Tədbir iştirakçıları Qazaxıstanın Yaşıl Maliyyə Şurasının, eləcə də təşkilata üzv dövlətlərin Mərkəzi (Milli) Banklar Şurasının yaradılması təşəbbüslərini dəstəkləyiblər.

İqtisadiyyat və ticarət nazirlərinin növbəti görüşü Qazaxıstanın Türküstan şəhərində keçiriləcək, burada Qazaxıstanın TDT ölkələri tərəfindən dəstəklənən digər təşəbbüsü olan “TURAN” xüsusi iqtisadi zonasının açılışı planlaşdırılır.

# Azərbaycanın Özbəkistandakı hərbi attaşelik aparatının təşkilatçılığı ilə tədbir keçirilib



**Azərbaycanın Özbəkistandakı hərbi attaşelik aparatının təşəbbüsü ilə Daşkənd şəhərindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) ilə tanışlıq tədbiri keçirilib.**

Tədbirdə Amerika Birləşmiş Ştatları, Almaniya, Belarus, İtaliya, Koreya, Polşa, Rusiya, Türkiyə və Türkmənistan hərbi attaşelik aparatının nümayəndələri iştirak ediblər.

Əvvəl qonaqlar mərkəzin foyesindəki kitab və suvenirlərdən ibarət sərgiyə tamaşa ediblər, sonra onlara AMM-nin fəaliyyəti haqqında məlumat verilib, deyilib ki, burada müxtəlif mədəni tədbirlər, görüşlər, təqdimatlar keçirilir.

Hərbi attaşelik aparatının nümayəndələri üçün Azərbaycan haqqında videofilm də nümayiş etdirilib.

Qonaqlar Mədəniyyət Mərkəzində fəaliyyət göstərən Heydər Əliyev Muzeyi, Azərbaycanın Dövlətçilik Tarixi Muzeyi, Azərbaycan–Özbəkistan Dostluq Muzeyi və Xalça Muzeylərinə baxıb, burada nümayiş etdirilən fotoşəkillər və tarixi eksponatlarla ilə tanış olublar.

Sonra mərkəzin “Azərbaycan qızları” rəqs ansamblının ifasında təqdim edilən musiqi nömrələri qonaqlar tərəfindən böyük maraqla qarşılanıb.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***

**Daşkənd**

20 Oktyabr Energetiklər Günüdür

# Azərbaycan çoxşaxəli enerji ölkəsidir

## *Alternativ mənbələrin payı isə getdikcə artır*

**(əvvəli 1-ci səhifədə)**

Ötən il ərzində energetika sistemində 29,3 milyard kilovat-saat istehsal, 3,2 milyard kilovat-saat ixrac göstəriciləri əldə olunub. Bu dövrdə 23,2 milyard kilovat-saat elektrik enerjisi istehlak edilib. Elektrik enerjisi itkiləri isə 2,9 faiz azaldılıb. Cari ilin 9 ayında isə 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə elektrik enerjisi istehsalı 247,7 milyon kilovat-saat artımla 21,8 milyard kilovat-saat olub. Elektrik enerjisinin ixracında da müsbət nəticələr qeydə alınıb. Belə ki, yanvar–sentyabr aylarında Gürcüstana 898,7 milyon kilovat-saat, Türkiyəyə 176,4 milyon kilovat-saat, Rusiyaya 137,4 milyon kilovat-saat və İrana 27,9 milyon kilovat-saat, ümumilikdə, 1,2 milyard kilovat-saat elektrik enerjisi ötürülüb. Elektrik enerjisinin idxalı isə 9 ayda azalaraq 139,4 milyon kilovat-saat olub.

Azərbaycanın işğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpaolunan enerji istehsalı üçün geniş imkanlar var. Mütəxəssislərin son hesablamalarına görə, sözügedən ərazilərdə 10 qiqavat həcmində günəş və külək enerjisi potensialı mövcuddur. Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin məlumatına görə, Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonları texniki potensialı 7200 meqavatdan çox olan günəş enerjisindən istifadə üçün əlverişli şəraitə malikdir. Bununla yanaşı, ilkin proqnozlara görə, Laçın və Kəlbəcər rayonlarının dağlıq ərazilərində külək enerjisinin texniki potensialı 2 min meqavat həcmində qiymətləndirilir. Kəlbəcər və Şuşa rayonlarında isə geotermal enerji mənbələrindən "yaşıl enerji" kimi istifadə olunması imkanları daha çox diqqət çəkir.

Belə bir zənginliyi nəzərə alan ölkə Prezidenti İlham Əliyev Qarabağ və Şərqi Zəngəzurun 10 min kvadratkilometrlik ərazisini "yaşıl" enerji zonası elan edib. Dövlət başçısı "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" 2021-ci il 3 may tarixli Sərəncamına əsasən, Nazirlər Kabineti "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022–2026-cı illərdə "yaşıl enerji" zonasının yaradılması ilə bağlı Tədbirlər Planı" təsdiqləyib.

Ötən müddətdə işğaldan azad edilən ərazilərdə bir neçə su elektrik stansiyası inşa edilərək istismara verilib. Hökumətin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında günəş və külək elektrik stansiyalarının yaradılması ilə bağlı hazırladığı konsepsiyaya əsasən, həmin ərazilərdə istehlak edilən elektrik enerjisinin yalnız bərpaolunan enerji mənbələrindən alınacağı nəzərdə tutulub.

Yeri gəlmişkən, hidroenerji potensialı yüksək olan Qarabağ və Şərqi Zəngəzurda su elektrik stansiyaları bölgənin "yaşıl" enerji təminatının əsas mənbəyidir və bu regionların elektrik enerjisi tələbatı 100 faiz "təmiz" enerji hesabına təmin edilir və tələbatdan artıq qalan həcm ölkə enerji sisteminə ötürülür. İndiyə qədər 270 MVt gücündə 32 su elektrik stansiyası istismara verilib. Bu, il ərzində 600 milyon kVt-st-dan çox "yaşıl" enerjinin istehsalı, 160 milyon kubmetrdən artıq təbii qaza qənaət edilməsi, atmosferə atılan karbon qazının həcminin isə 330 min tondan çox azalması deməkdir.



Prezident İlham Əliyevin prioritet vəzifə kimi müəyyənləşdirdiyi bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi və 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə payının 30 faizə çatdırılması istiqamətdə Qarabağ və Şərqi Zəngəzurla bərabər, Naxçıvanı da "yaşıl" enerji zonası elan etməsi bu hədəfə çatmağın mühüm istiqaməti kimi diqqət mərkəzində saxlanılır. Muxtar respublikanın yerləşdiyi əlverişli coğrafi mövqe və iqlim şəraiti burada ekoloji cəhətdən təmiz enerji istehsalına imkan verir. Bu sırada isə Günəş enerjisindən istifadə imkanları daha çox ön plana çıxır. Hesablamalara görə, Naxçıvan ərazisində günəşli saatların orta illik miqdarı 2600–2800 saat, hər kvadratmetrə düşən Günəş enerjisinin intensivliyi isə 0,8–1,2 kilovatsaat təşkil edir. Bu isə o deməkdir ki, qədim diyarda bütün fəsillərdə Günəş enerjisindən istifadə imkanı mövcuddur.

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda 11 prioritet istiqamətin biri elektrik enerjisi istehsalının və ixracının artırılması ilə bağlıdır ki, burada da əsas məqsəd "yaşıl" enerji istehsalıdır. Həmin proqramın qəbul olunduğu 2023-cü ildə muxtar respublikanın elektrik stansiyalarında 474 milyon 569 min 561 kilovat-saat elektrik enerjisi istehsal edilib ki, bunun da 19,89 faizi su elektrik və 12,75 faizi günəş elektrik stansiyalarının payına düşür. Ümumilikdə, alternativ və bərpaolunan enerji mənbələrində istehsal edilən elektrik enerjisi ümumi enerji istehsalında 32,64 faiz təşkil edib. Bununla da qədim diyarda günəş elektrik stansiyalarının ümumi gücü 39 meqavata çatdırılıb.

Muxtar respublikada cari ilin 6 ayında isə ümumi elektrik enerjisi istehsalı 221 milyon 597 min 860 kilovat saat olub ki, bunun da 105 milyon 137 min 216 kilovatsaatı su elektrik, 30 milyon 337 milyon 144 kilovatsaatı isə günəş elektrik stansiyalarında istehsal olunub.

Bərpaolunan enerjinin reallaşdırılması "Yaşıl dünya naminə həmrəylik ili" və COP29 çərçivəsində daha geniş vüsət alıb. Bu ilin iyun ayında Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə, təxminən, 1 milyard dollar məbləğində investisiya dəyərinə və 1000 meqavat ümumi gücə malik üç stansiyanın – Neftçalanın Bankə qəsəbəsində 315 meqavat, Biləsuvarda 445 meqavat gücündə günəş və Abşeron–Qaradağ rayonları ərazisində 240 meqavatlıq Külək Elektrik stansiyalarının təməli qoyulub. Həmçinin "ACWA Power" şirkəti ilə 200 meqavatlıq Batareya Enerji Saxlanc Sistemi və 200 meqavatlıq quruda külək enerjisi layihələri üzrə Çərçivə Müqaviləsi imzalanıb.

Asiya İnkişaf Bankının dəstəyi ilə həyata keçirilən "Üzən günəş panelləri sisteminin inkişafına dair bilik mübadiləsi və texniki yardım" layihəsi çərçivəsində Böyükşor gölü üzərində ümumi gücü 100 kilovat olan və illik 160 min kilovat-saat elektrik enerjisi istehsalı imkanına malik ilk üzən Günəş Elektrik Stansiyası istifadəyə verilib.

# Biləsuvarda GES tikintisinə hazırlıq

**Biləsuvar rayonunda Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin inşa edəcəyi 445 MVt gücündə Günəş Elektrik Stansiyasının tikintisinə hazırlıq işlərinin vəziyyətinin qiymətləndirilməsi və gələcəkdə bu istiqamətdə görüləcək işlərin müzakirəsi ilə bağlı görüş keçirilib. Rayon icra hakimiyyətində reallaşan görüşdə tikintiyə hazırlıq işlərinin faktiki vəziyyəti qiymətləndirilib və bu istiqamətdə görüləcək işlər müzakirə olunub.**



Qeyd edək ki, "Masdar" şirkəti MDB-də ən böyük və Xəzər dənizi regionunda ilk sənaye miqyaslı günəş elektrik stansiyası–230 MVt-lıq Qaradağ Günəş Elektrik Stansiyası (GES) istismara verilib. Eyni zamanda, həmin stansiyanın açılışı zamanı digər yeni layihələrin də əsası qoyulub: "Masdar" şirkəti ilə Neftçalanın Bankə qəsəbəsində 315 MVt-lıq, Biləsuvarda isə 445 MVt-lıq GES və Abşeron–Qaradağ rayonları ərazisində 240 MVt-lıq külək elektrik stansiyasının (KES) tikintisi ilə bağlı, ümumilikdə, 1 qiqavat bərpaolunan enerji mənbəyinin istismara buraxılmasını özündə ehtiva edən üç yeni layihə imzalanıb. Bərpaolunan enerjinin payı isə hazırda 17 faizə yüksəlib.

Bu stansiyaların təməlinin qoyulması ölkə iqtisadiyyatının və enerji istehsalının şaxələndirilməsi, müstəqil enerji istehsalının artırılması, sosial inkişafın dəstəklənməsi və ətraf mühitin mühafizəsi baxımından əhəmiyyətli hadisə kimi diqqət çəkir. Təqribən 1 milyard dollara yaxın həcmdə investisiya hesabına reallaşdırılacaq layihələr ekspertlər tərəfindən respublikamızda iqtisadi sabitliyə və əlverişli investisiya mühitinə olan inamın göstəricisi kimi dəyərləndirilir.

Məlum olduğu kimi, artıq bir neçə ildir ki, ölkəmizdə bərpaolunan enerji potensialının hərəkətə gətirilməsi istiqamətində konkret layihələrin həyata keçirilməsinə başlanılıb. Bu baxımdan ölkəmizin əsas investorları sayılan Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" və Səudiyyə Ərəbistanının "ACWA Power" şirkətləri xüsusi fəallıqları ilə seçilib.

Hazırda "Masdar" şirkıtinin layihəsi olan Qaradağ Günəş Elektrik Stansiyası real fəaliyyət sahəsinə çevrilib. Ötən ilin oktyabr ayında istismara verilmiş 230 meqavatlıq stansiyadan təmiz enerji alınır. Bununla yanaşı, hazırda "ACWA Power" şirkəti tərəfindən 240 meqavatlıq "Xızı–Abşeron" Külək Elektrik Stansiyasının tikintisi davam edir. Bütün bunlarla yanaşı, ötən müddətdə imzalanmış müqavilələrə və anlaşma memorandumlarına əsasən, Azərbaycan 2030-cu ilədək 5 min meqavata qədər günəş və külək enerjisi istehsal etməyi hədəfləyir.

Azərbaycan enerji mənbələrini şaxələndirmək istiqamətində mühüm addımlar atır. 2020-ci ildə Səudiyyə Ərəbistanın "ACWA Power" və BƏƏ-nin "Masdar" şirkətləri ilə 240 meqavat gücündə külək və 230 meqavat gücündə günəş enerjisi üzrə pilot layihələrlə başlayan "yaşıl enerji" tərəfdaşlığının miqyası qısa müddətdə genişlənib. Qısa bir vaxtda "Masdar", "ACWA Power", BP, "Fortescue Future Industries", "China Gezhouba Group Overseas Investment", "Total Energies", "Nobel Energy" və "A-Z Czech Engineering" şirkətləri ilə ümumi gücü 28 qiqavatdan çox layihələrə dair əməkdaşlıq sənədləri imzalanıb. Bütün bunlar dövlətimizin başçısının "yaşıl enerji" strategiyasına beynəlxalq marağın, ölkəmizin "yaşıl gələcəy"inə olan inamın göstəricisidir.

# BP Xəzərin altında eksperiment aparıb



**BP Xəzərdə innovativ texnologiyadan istifadə edərək, Azəri-Çıraq-Günəşli (AÇG) yatağında qlobal miqyasda ilk dəfə olaraq lay təzyiqi şəraitində süxur nümunələri çıxarılması əməliyyatını uğurla həyata keçirib.**

BP-dən verilən məlumata görə, təzyiq altında süxur nümunəsi çıxarılması texnologiyası süxurun içərisindəki mayelərin kənara axmasını və çıxarılan nümunələrin zədələnməsini minimuma endirməklə süxuru laydakı ilkin vəziyyətində olduğu kimi götürməyə imkan verir.

Çıxarılmış süxur nümunələri müxtəlif laboratoriya yoxlamalarında istifadə olunacaq. Bunda məqsəd AÇG yatağının Balaxanı lay dəstində sulaşdırılmış vəziyyətdə olan süxurların hazırda laylarda qalmış neftlə nə dərəcədə dolmuş olması ilə bağlı qeyri-müəyyənlikləri azaltmaqdır. Bu isə, öz növbəsində, layın neftvermə əmsalının artırılması metodlarına olan ehtiyac, həmçinin həmin metodların növü barədə məlumat əldə etməyə və Balaxanı lay dəstinin gələcək işlənmə variantlarının müəyyənləşdirilməsini və planlaşdırılmasını təkmilləşdirməyə kömək edəcək.

Təbii lay təzyiqi altında süxur nümunələri Balaxanı VIII layından götürülüb və bu əməliyyat "Qərbi Azəri" platformasında yeni istifadəyə verilmiş bir quyu vasitəsilə həyata keçirilib. Əməliyyat zamanı süxurdakı bütün mayelər olduğu kimi saxlanmaqla və süxurun ilkin vəziyyəti qorunmaqla tam lay təzyiqli dörd süxur nümunəsi uğurla çıxarılıb. Bu nümunələr sahənin analizindən əldə edilmiş məlumatlarla birlikdə əlavə təhlil üçün laboratoriyaya göndərilib.

Mütəxəssislərin fikrincə, sulaşdırılmış lay süxurundan çıxarılan nümunələrdən əldə edilən mühüm maye məlumatları ölkəmizə aid laylar haqqında geoloji bilgiləri artıracaq və ehtiyatların ən uyğun işlənmə strategiyalarının seçilməsinə kömək edəcək.

# "Qara qızıl"ımız "sarı" qızıla çevrilir

## *Dövlət Neft Fondu bu il 25 tondan çox qızıl alıb*

**Azərbaycan Respublikasının Dövlət Neft Fondu qızıla yatırılan investisiyanın həcmini artırıb. Fonddan verilən xəbərə görə, 2024-cü ilin III rübündə qurumun investisiya portfelinin 10 milyard 844,9 milyon dollarlıq hissəsini (17,7 faiz) qızıl sərmayələri təşkil edib.**

3 ay ərzində fond qızıla olan investisiyalarını 2 milyard 270,3 milyon ABŞ dolları və ya 26,5 faiz artırıb. Cari ilin II rübündə qurumun investisiya portfelinin 8 milyard 574,6 milyon ABŞ dollarlıq hissəsini (14,8 faiz) qızıl investisiyaları təşkil edib.

Qeyd edək ki, Dövlət Neft Fondu bu ilin III rübündə 12,1 ton qızıl alıb. Belə ki, 1 iyul 2024-cü il tarixinə maliyyə qurumunun qızıl ehtiyatı 114,9 ton təşkil etdiyi halda oktyabrın 1-nə bu rəqəm 127 tona qədər yüksəlib. Başqa sözlə, fond ilin əvvəlindən III rübün sonuna kimi 25,2 ton qızıl alıb.



# Gömrük gəlirləri 5 faiz artıb

**Bu ilin yanvar–sentyabr aylarında Azərbaycanın dövlət büdcəsinə gömrük daxilolmaları 4 milyard 931,2 milyon manat (ötən ilin eyni dövrü ilə müqayisədə 4,8 faiz çox) təşkil edib.**



Dövlət Gömrük Komitəsinin bu barədə məlumatında bildirilir ki, hesabat dövründə gömrük orqanlarının xətti ilə büdcə daxilolmaları ümumi daxilolmaların 17,8 faizini, dövlət büdcəsinin qeyri–neft–qaz sektoru üzrə daxilolmalarının isə 33,9 faizini təşkil edib.

*Səhifəni hazırladı:*
***Vaqif BAYRAMOV***
***XQ***




# Ekoloji tarazlıq və bəşəriyyətin gələcəyi

**COP 29-un ölkəmizdə keçirilməsi ekoloji tarazlığın qorunub saxlanılması istiqmətində həyata keçirilən əhəmiyyətli tədbirlərdən biridir. İndiyədək bu sahədə müəyyən irəliləyiş olsa da, səmərəlilik baxımından qənətbəxş deyil. 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi isə bu istiqamətdə aparılan məqsədyönlü, ardıcıl dövlət siyasətinin dərin məzmunundan xəbər verir.**

Karbon oksidi qazlarının atmosferdə artması ilə iqlim dəyişikliyinin əmələ gəlməsi, okean və dənizlərin alt qatında buzlaqların əriməsi nəticəsində suyun səviyyəsinin qalxması bəşəriyyətin həyat tərzinin qeyri-normal şəraitə çevrilməsinə səbəb olur.

Cəmiyyətlə təbiət arasında ziddiyyətli münasibət ekoloji gərginliyin artmasına gətirib çıxarır. Təbiətdə baş verən çiddi iqlim dəyişikliyi bir tərəfdən təbii fəlakətlərin baş verməsi, digər tərəfdən isə antropogen amillərin artması ilə müşahidə olunur və nəticədə ekoloji tarazlıq pozulur, ətraf mühit çirklənməyə məruz qalır. Bununla da qlobal ekoloji problem yaranaraq canlı aləmi təhlükə ilə üz-üzə qoyur.

Sənayenin əksər sahələrinin sürətlə inkişafı nəticəsində ətrafa atılan “atqıların” coxalması səbəbindən biosfer davamlı çirklənərək qlobal təhlükəli ekoloji problemə çevrilir və bunun həlli yollarının elmi əsaslarla axtarışı, eləcə də tapılması bu gün bütün alimləri ciddi düşündürməyə vadar edir. Bəşər övladı təbiət qanunlarına qarşı çıxaraq təbii sərvətlərdən şüurlu-şüursuz halda səmərəsiz istifadə etməklə ətraf mühitin çirklənməsinə şərait yaradır.

Təbii sərvətlərin səmərəsiz istismarı təbiətdə böyük bəlaya çevrilən tullantıların gündən-günə artmasını şərtləndirir. Elmi-texniki tərəqqinin sürətlə inkişafı ilə əlaqədar məqsədli son məhsulların alınması ilə yanaşı, küllü miqdarda “yan məhsullar” və tullantılar da əmələ gəlir. Bununla da ekoloji tarazlıq pozulur, nəticədə, insanların sağlamlıqları ciddi təhlükə ilə üzləşir.

Təbiətin saf saxlanılmasına insanların laqeyd münasibətinin nəticədir ki, bu gün Yer kürəsi ekoloji böhran içindədir və dözülməz haldır ki, bu problemi insan yaradıb. Sağlam ətraf mühiti gerçəkləşdirmək üçün təbiətə həssas münasibət bəsləməliyik və bu məsələdə ekoloji bilik, ekoloji mədəniyyyət, eləcə də ekoloji tərbiyə əsas amildir.

Bu gün ekoloji tarazlığın saxlanılması üçün “tullantısız” və ya “az tullantılı” qapalı texnoloji proseslərin gerçəkləşdirilməsi, innovasiya yönümlü texnologiyaların istehsalata tətbiqi diqqətdə saxlanılmalı, təbiətin yaşıllaşdırılmasına xüsusi əhəmiyyət verilməlidir. Bununla da ətraf mühitin mühafizəsinə, təbii sərvətlərimizin səmərəli istifadəsinə nail olmaq mümkündür.

Son illərdə dünyada müxtəlif təhlükəli–yolxucu xəstəliklər çoxalmaqdadır. Bunun başlıca səbəbi ekoloji tarazlığın pozulması, sənaye və məişət tullantılarının ətraf mühitə atılmasıdır. Ekoloji problem ümumbəşəri qlobal xarakter daşıdığından məhz belə bir təhlükəni aradan qaldırmaq üçün yekdil proqram və ya yanaşma təəssüf ki, hələlik, öz yerini tutmayıb.

Ətraf mühitin çirklənməsinin səbəblərini müəyyənləşdirmək məqsədilə inkişaf etmiş ölkələrdə müvafiq qurumlar tərəfindən sorğu keçirilərək aşağıdakı səbəblər diqqətə çatdırılıb:




– ətraf mühitin kimyəvi maddələrlə çirkləndirməsi;

– meşələrin qırılması;

-okean, dəniz və su hövzələrinin neftlə çirkləndirilməsi;

– atmosferdə karbon oksidləri qazlarının çoxalması;

– vəhşi heyvanların məhv olması;

– torpağın eroziyası.

Bəzi alimlər tərəfindən təbiəti qorumaq üçün “geriyə təbiətə doğru” prinsipi irəli sürülür. Bir çoxu isə sənayenin inkişafını ətraf mühitin qorunması istiqamətinə yönəltmək fikrinin tərəfdarı olduğunu bildirilir. Əslində isə təbiətin flora və faunasını qorumaq məqsədi ilə atmosferin mühafizəsi probleminin həlli ətrafa atılan zəhərli atqıların tamamilə ləğv edilməsi, yaxud yüksək qatılıqda toksiki maddələrin minimum həddə endirilməsi ilə bağlıdır. Atmosferin çirklənməsinin qarşısının alınması istiqamətində aşağıdakı texnoloji tədbirlərin həyata keçirilməsi məqsədəuyğun hesab olunur:

– tullantısız yeni qapalı texnoloji proseslərin yaradılması;

– atmosferə atılan toksiki maddələrin ləğv edilməsi və ya onların azaldılması üçün texnoloji proseslərin təkmilləşdirilməsi;

– innovasiya yönümlü texnologiyalara yiyələnmək;

– ətraf mühitə atılan sənaye tullantılarının tərkibindən zəhərli birləşmələrin çıxarılaraq onların zərərsizləşdirilməsi və ya istifadəsi məqsədilə təkrar emal üsullarının yaradılması.

– əksər nəqliyyat vasitələrində qəbul olunan standartlara uyğun normal istismar proseslərinə ciddi nəzarət edilməsi.

Bütün bu sadalananlar bir çox hallarda ya ayrılıqda, ya da bir-biri ilə vəhdətdə olduqda daha səmərəli nəticələr verir. Qeyd olunan problemin geniş miqyasda həlli üçün universal texnoloji proses isə, hələlik, məlum deyil.

Məlumdur ki, ətraf mühitin çirklənməsində qaz və maye halında olan tullantılarla yanaşı, bərk tullantılar da ciddi ekoloji problem yaradır. Nəticədə, ətraf mühitə külli miqdarda atılan bərk aqreqat halında sənaye və məişət tullantılarının da miqdarı gündən-günə çoxalır. Belə tullantılardan ən çox təsadüf edilən plastik kütlə–polimer tullantılardır. Bu tullantılar təbiətdə uzun müddət çürüməyib həll olmadığından, eləcə də utilləşdirilmədiyindən ətrafda qalmaqla ciddi ekoloji gərginlik yaranır və tarazlıq pozulur.

Problemin həlli istiqamətində bir çox üsullar mövcuddur:

– termiki zərərsizləşdirmə yolu ilə ayrılan istilikdən istifadə edilməsi;

– termiki parçalanma yolu ilə məqsədli məhsulların alınması;

– tullantıların təkrar emalı yolu ilə onlardan yüksək istismar göstəricilərinə malik müxtəlif kompozit materialların əldə edilməsi.

Qeyd olunan üsulların hər birinin həm üstün, həm də çatışmayan cəhətləri məlumdur. Uzun illər aparılan tədqiqatların nəticəsində plastik kütlə–polimer tullantılarının utilləşdirilməsində (və ya zərərsizləşdirilməsində) təkrar emal üsulu daha münasib sayılır. Bu baxımdan yüksək fiziki–mexaniki xassəyə malik polimer kompozisiya materiallarının alınması sahəsində elmi-tədqiqat işləri aparılır. Sözügedən üsul ekoloji və iqtisadi cəhətdən daha əlverişli sayılır.

***Valeh CƏFƏROV,***
***AMEA-nın müxbir üzvü,***
***kimya elmləri doktoru,***
***professor***

# Torpaq universal sərvət mənbəyidir

## *Ondan səmərəli istifadə bolluğa aparır*

**İqlim dəyişikliyinin kənd təsərrüfatına təsiri böyükdür. Temperaturun artması, yağıntı normalarının dəyişməsi və tez-tez baş verən ekstremal hava hadisələri torpağın səhralaşmasına səbəb olur, ərzaq təhlükəsizliyinə ciddi problem yaradır.**

***Son 50 ildə səhralaşma ilə bağlı BMT-nin təşəbbüsü ilə keçirilən beynəlxalq konfrans və konqreslərdə əksər ölkələrin dövlət və hökumət rəhbərlərinin iştirak etməsi bu problemin ciddiliyindən xəbər verir. Ona görə də belə çətinliklərin tədricən aradan qaldırılması birgə dərin nəzəri və praktiki fəaliyyətin nəticəində mümkündür. Bu məsələlərə aydınlıq gətirən Coğrafiya İnstitutunun torpaq ehtiyatları coğrafiyası şöbəsinin müdiri İsmayıl Quliyev söhbətə belə başladı:***



– Səhralaşma prosesi demək olar ki, dünyanın əksər ölkələrini bütövlükdə və yaxud qismən əhatə edir. Mərkəzi Asiya artıq çoxdan bu prosesə məruz qalaraq səhraya çevrilib. Azərbaycan hazırda səhralaşma prosesinin intensiv getdiyi ölkələrdən biridir. Bunun qarşısını almaq üçün dövlət başçısı bir sıra sərəncamlar imzalayıb. Sonuncu, 2 fevral 2024-cü il tarixli sərəncamla “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”i təsdiqləyib. Bu, həm də BMT-nin “Dünyanın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində gərginliklər”dən irəli gələn öhdəliklərin icrası istiqamətində mühüm önəm daşıyır. Digər bir hadisə isə ölkəmizin BMT-nin İqlim dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına noyabrda evsahibliyi etməsi, iqlim dəyişikliyi ilə bağlı problemin həllində fəal iştirakıdır.

***– Ətraf mühitin təbii tarazlığının pozulması torpaq örtüyünün aşınmasına, münbitliyin itirilməsinə gətirib çıxarır.***

– İstiləşmə aridliyin artmasına, torpaqların deqradasiyasına, biomüxtəlifliyin azalmasına, bütün bunlar isə nəticədə səhralaşmaya səbəb olur. Bəşəriyyətin belə bir problemlə üzləşməsi torpaqşünas alimlər qarşısında ciddi vəzifələr qoyur. Dünyanın bir çox ölkələrində torpaqların deqradasiyası, bərpası və qorunması istiqamətdə ciddi elmi–tədqiqat işləri yerinə yetirilir. Azərbaycanın torpaq ehtiyatları coğrafiyası şöbəsində səhralaşma prosesi fonunda torpaqların deqradasiyası prosesi dərindən tədqiq edilir. Araşdırmalar zamanı son 100 ilin monitorinq nəticələri və çoxillik peyk şəkilləri təhlil olunur və müqayisə edilərək qiymətləndirilir.

Yeri gəlmişkən, ölkəmizdə səhralaşmaya ən çox Naxçıvan Muxtar Respublikası, Kür–Araz ovalığı, Ceyrançöl–Acınohur, Qobustan və Abşeron əraziləri məruz qalıb. Son zamanlar Xəzər dənizinin səviyyəsinin enməsi ilə əlaqədar iqlimdə kontinentallıq artıb, səhralaşmış landşaftlar daha da genişlənib. Bu ərazilərdə torpaqlar müxtəlif səbəblərdən qidalı maddələri itirib. Ötən 70 il ərzində qida məhsullarının tərkibindəki vitaminlərin və qidalı maddələrin səviyyəsi kəskin şəkildə azalıb. Nəticədə torpağın münbitliyi itib, məhsuldarlıq aşağı düşüb.

Bütün bunlarla bağlı hazırda Azərbaycanın torpaq fondunun müasir vəziyyəti, münbitliyinin mühafizəsi, insanların torpağa münasibətinin dəyişdirilməsi, eləcə də məktəblilər arasında maarifləndirmə işinin genişləndirilməsinə zəruri ehtiyac duyulur.

***– Azərbaycanın münbit torpaq ehtiyatları o qədər də böyük deyil. Çıxış yolu onun münbitliyinin, məhsuldarlığının qorunmasıdır.***

– Respublikamızda vahid torpaq fondu adambaşına 0,78 hektar təşkil edir. Belə bir göstərici getdikcə azalır. Bu, eyni zamanda, istifadə edilən torpaqların təbii münbitliyində də aydın nəzərə çarpır. Ölkədə kənd təsərrüfatı təyinatlı 4,7 milyon hektar torpaq ehtiyatının mövcud durumunu nəzərdən keçirdikdə məlum olur ki, həmin göstəricinin yalnız 42–43 faizi yaxşı keyfiyyətli torpaqlar hesab olunur. Torpaqların qalan hissəsi isə orta və aşağı keyfiyyətli, şərti yararsız sahələrdir.

Azərbaycanın vahid torpaq fondunun istifadəçilik strukturuna diqqət yetirdikdə məlum olur ki, kənd təsərrüfatı sahələri üzrə birinci yer 54–55 faiz örüş və otlaqların payına düşür. Əkin sahələri bu sırada ikinci sırada olmaqla 35,4 faiz təşkil edir. Adambaşına 0,15 hektar düşür ki, bu da dünyanın bir çox ölkələrindən və orta dünya göstəricisindən aşağıdır. Belə olan halda torpaqlarımızdan daha düzgün və səmərəli istifadə etmək tələb olunur.

***– Torpaq fondu deqradasiyaya məruz qalır. Buna təbii və antropogen amillər necə təsir edir?***

– Dünyanın vahid torpaq fondunu deqradasiyaya məruz qoyan bütün amillərə Azərbaycan torpaqlarında rast gəlmək mümkündür. Təbii yolla baş verən deqradasiya amilləri antropogen təsir nəticəsində şiddətli və çox şiddətli xarakter alıb. Ölkəmiz müstəqillik əldə etdikdən sonra sosial və sənaye isnfrastruktur sistemi sürətlə inkişaf edir və nəticədə, münbit torpaq sahələri neft və qaz kəmərlərinin, yeni yaşayış məntəqələrinin, eləcə də yolların altında qalır. Bu amillə üzləşməyən əkin, örüş və otlaqlarda isə antropogen yüklənmə ildən-ilə artaraq sahələr deqradasiyaya məruz qalır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi mövcud yüklənməni bir qədər azaltmaqla yanaşı, əhalinin kənd təsərrüfatı məhsullarına olan ehtiyacının aradan qalxmasına imkan verir. Qarabağın bir sıra inzibati əraziləri, o cümlədən Ağdam, Füzuli, Cəbrayıl, Xocavənd, qismən Zəngilan, Qubadlı rayonları münbit torpaq ehtiyatlarına malikdir. Həmin coğrafiyada yaşayış məntəqələri və infrastrukturun yaradılması üçün münbit torpaqlardan kənar ərazilər seçilməlidir. Regionun şirin su ehtiyatlarından maksimum dərəcədə və qənaətlə yararlanmaqla ölkənin ərzaq probleminin həllinə böyük töhfə vermək olar.

Kəlbəcər və Laçın rayonları çox geniş yay otlaq sahələrinə malikdir. Yaxın keçmişdə Beyləqan, İmişli, Ağdam, Füzuli, Cəbrayıl və s. rayonların yüz minlərlə qoyun sürüləri bu yaylaqlara çıxarılırdı. Beləliklə, Qarabağın, eləcə də Mil, Muğan düzlərində qış otlaqları yüklənmədən 2,5–3 ay müddətində azad olur, torpağın bərpası qismən reallaşırdı. Bu ənənəni bərpa etmək lazımdır.

Azərbaycanın torpaq fondunun müasir səhralaşma prosesi fonunda təbii və antropogen neqativ təsirlərdən qorumasının bir yolu da geniş ictimaiyyət içərisində maarifləndirmə işi aparmaqla ona münasibəti dəyişməkdir. Dövlət nəzarəti ilə yanaşı, torpaqdan istifadənin elmi əsasları işlənilməlidir. Ayrı-ayrı torpaq tipləri üzrə potensial imkanlar qiymətləndirilməli və ona uyğun istifadə edilməlidir. Bütün torpaqlardan eyni qaydada yararlanmaq qida maddələri baxımdan zəif torpaqların daha da gücdən düşməsinə və yüksək dərəcədə deqradasiyasına gətirib çıxarır.

***Müsahibəni apardı:***
***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Azərbaycan həmişə iqlim proseslərinin önündə olacaq

**COP29-un müəyyən olunmuş prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Bakıda keçirilən “Yaşıl maliyyə və dayanıqlı inkişaf” forumunda Azərbaycanın növbəti illərdə də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (COP) iqlim proseslərinin aktiv iştirakçısı olacağını bildirib.**




Onun sözlərinə görə, beynəlxalq ictimaiyyət bu səbəbdən cari il respublikamızdan liderlik, yaxşı nümunələr, eyni zamanda, bank sektorundan da kreativ və maraqlı təkliflər gözləyirlər.

Nazir Azərbaycanın gələn il COP-un iqlim proseslərinə sədrlik edəcəyini də vurğulayıb.

# Bakıda COP29-la bağlı nəqliyyat problemi olmayacaq

**Bu il noyabrın 11-dən 22-dək Bakıda keçiriləcək COP29-a hazırlıq prosesi çərçivəsində yol hərəkətinin fasiləsiz və təhlükəsiz şəkildə təşkili məqsədilə paytaxtda nəqliyyatın idarə edilməsi üzrə gündüz saatlarında keçirilən monitorinqlər uğurla yekunlaşıb.**




COP29 Azərbaycan Əməliyyat Şirkətinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, monitorinq tədbirləri çərçivəsində oktyabrın 19-u saat 11:00-dan 15:30-dək paytaxtın mərkəzində yerləşən qonaqlama məkanları, Heydər Əliyev Mərkəzi və Heydər Əliyev Beynəlxalq Aeroportu istiqamətlərində müvafiq avtomobillərin hərəkəti test edilib.

Qeyd olunub ki, 20-dən artıq avtomobil və 15 avtobusun cəlb edilməsi ilə COP29 Azərbaycan Əməliyyat Şirkəti, Daxili İşlər Nazirliyi və Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi tərəfindən reallaşdırılan monitorinq tədbirləri zamanı yol hərəkətinə məhdudiyyətlər tətbiq edilməyib.




## “Yaşıl dünya” naminə həmrəylik



# Azərbaycan “yaşıl” iqtisadiyyata keçidi dünyaya zərurət kimi təqdim edir

**(əvvəli 1-ci səhifədə)**

Uzun illərdir ki, dünya ölkələrində qlobal istiləşmənin, karbon emissiyalarının təsirlərinin azaldılması, uyğunlaşma və iqlimin sabitləşdirilməsi məqsədilə müxtəlif sahələrin maliyyələşdirilməsi problem olaraq qalır. İnkişaf etmiş və etməkdə olan ölkələr bu problemin həlli üçün 100 milyard dollarlıq fond yaradacaqlarını bildirsələr də, hələlik məsələ həllini tapmır. COP29-da isə bu çətinliyin aradan qaldırılacağına, iştirakçı ölkələrin maliyyə məsələsində razılığa gələ biləcəklərinə böyük ümid bəslənilir.

Bütün bunlara baxmayaraq respublikamızın COP29-a evsahibliyi etmək missiyasına qısqanclıqla yanaşanlar da var. Belə ki, Azərbaycanın neft ölkəsi ifadəsi son vaxtlar heç bir məntiqə əsaslanmadan mənfi kontekstdə istifadə olunur. Halbuki dünyanın iqtisadi sisteminin neft–qaz və daş kömür üzərində qurulması da inkaredilməz faktdır.

malıdır. Ancaq unudulmamalıdır ki, iqlim müqavilələrinin də təsbit etdiyi kimi, bizim ortaq, amma fərqli məsuliyyətlərimiz, fərqli qabiliyyətlərimiz, fərqli milli xüsusiyyətlərimiz var: “Yaşıl” keçid bir məcburiyyətdir, ancaq ədalətli yaşıl keçid yeganə yoldur. Dünyadakı ilk 6 ölkənin emissiyaları ümumi emissiyaların 60 faizini təşkil edir, G20 ölkələrinin emissiyaları isə karbon izinin, təqribən 80 faizi qədərdir”.

Energetika nazirinin müavini, qeyd edir ki, Azərbaycanın kifayət qədər böyük daş kömür yataqları olmasına baxmayaraq, ondan istifadə etmir. Daş kömür təbii qazdan 80 faiz daha çirklidir. Müqayisə üçün deyim ki, Avropa İttifaqının özündə daş kömür kifayət qədər yayğın istifadə olunur. Cənab Prezidentin dediyi kimi, əsas ölçü ölkələrin neftə–qaza sahib olması deyil, “yaşıl” keçid istiqamətində atdıqları addımdır, bu prosesə verdikləri töhfədir. Bu cəhətdən baxsaq, Azərbaycanın iqlim fəaliyyətləri ən yumşaq ifadə ilə təqdirəlayiqdir.

sının 6-cı maddəsinə uyğun gəlmir, bu, “yaşıl” niyyətlər adı altında vəsaitlərdən qeyri–məqsədyönlü istifadə kimi həyata keçirilə bilər. Bununla belə, A.Boiç tərəflər arasında ən vacib razılaşmanın artıq əldə olunduğunu da qeyd edib. “Bu, artıq iqlim dəyişikliyi və ciddi addımlar atmağa ehtiyac olması ilə bağlı heç bir şübhənin olmamasına dair razılaşmadır. Fikir ayrılıqları isə tədbirlərin görülməsi sürəti və iqlimə dəymiş ziyana görə məsuliyyətlə bağlıdır”.

Yeri gəlmişkən, burada ekspertlərin bir məsələyə münasibətini də xatırlatmaq istərdik. Bu, tullantıların emalının iqlim dəyişikliyinə təsiri ilə bağlıdır. BMT-nin qaz və alternativ enerji üzrə ekspertlər qrupunun üzvü Ayaz Salmanovun fikrincə, istər neft-qaz, istərsə də digər sahələrdə “0 tullantı” prinsipinin təmin olunması iqlim dəyişikliyinə təsir edən amillərdən biridir. Hazırda istehsalat prosesində formalaşan hər hansı bir növ tullantını emal və yaxud utilizasiya edilmirsə və birbaşa təbiətə atılırsa, bu, birbaşa ətraf mühitin çirklənmə-



Energetika nazirinin müavini, COP29 Azərbaycan üzrə baş icraçı direktor Elnur Soltanovun sözlərinə görə, dünyada karbohidrogenlərin satılıb-alınması sərbəst fəaliyyətdir, bu, icbari şəkildə baş verməyən bir prosesdir. Bu çərçivədə bütün dövlətlərin neft ölkəsi, başqa sözlə, istehsalçı, yaxud istehlakçı olması fərq etmir. Neft və qaz daha çox vurğulansa da, daş kömürün də karbohidrogen olduğu unudulmamalıdır və bu kateqoriyadakı yanacaqlar içində ən çox emissiya yaradan da məhz daş kömürdür.

Azərbaycanın adambaşına düşən istixana qazları emissiyası isə Avropa və dünya ölkələri ilə müqayisədə aşağıdır. Ölkəmiz, ümumiyyətlə, emissiyalar sistemində dünya üzrə 70–75-ci yerləri tutur və respublikamızın payı mində bir ətrafındadır. Əslində respublikamızın neft ölkəsi olması qürur mənbəyidir, çünki Azərbaycan “qara qızıl”ı ilə bütün dünyanın inkişafını sürətləndirir.

E.Soltanov bildirir ki, dünyanı istixana qazları ilə çirkləndirərək inkişafın ən yüksək mərhələsinə çatmaq, sonra geri baxaraq bəzi inkişafda olan ölkələrə “neft ölkəsi” deyə qınayıcı nəzərlərlə baxmaq mənəvi cəhətdən doğru deyil. Hər kəs prosesə maksimum töhfə verməyə çalış-

Bütün bunlara baxmayaraq iqlim dəyişikliyinin fəsadları bu gün bəşəriyyəti ciddi narahat edir. İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının keçmiş vitse-prezidenti, COP-un büro üzvü Andrey Boiç mediaya müsahibəsində bu problemlə bağlı bildirib ki, Paris razılaşmasının 6-cı maddəsi iqlim dəyişikliyi ilə mübarizədə beynəlxalq əməkdaşlığa və inkişaf etməkdə olan ölkələrə maliyyə dəstəyi göstərməyə əlverişli şərait yaradır. Onun fikrincə, bu maddə iqlim dəyişikliyinə dayanıqlı uyğunlaşma üçün hazırda səmərəli olan ən yaxşı mexanizmdir.

COP-un büro üzvü daha sonra vurğulayıb ki, bütün üstünlüklərə baxmayaraq, bu konsepsiyanın həyata keçirilməsi üçün hələ bir sıra problemlər mövcuddur: “İki ən böyük problem istixana qazlarının azaldılmasının düzgün hesablanması və “karbon kreditləri”ndən necə istifadə ediləcəyi barədə qərar verməkdir”.

A.Boiçin fikrincə, karbon kreditlərinin ticarətində şəffaflıq da vacib məsələdir. Bunun üçün tərəflər arasında tam inamın olması zəruridir. Ekspert bunu onunla izah edir ki, atmosferə məhdud həcmdə qaz buraxılması üçün kvota olan karbon kreditlərindən istifadə Paris razılaşma-

sinə və iqlim dəyişikliyinə gətirib çıxarır.

A.Salmanov qeyd edir ki, bu gün tullantıların emalının iqlim dəyişikliyinə təsiri ilə bağlı trendlər də dəyişib. Hazırda bir sahədə tullantı sayılan məhsul digər sahə üçün unikal xammaldır. Bu, o deməkdir ki, tullantılar emal edilməklə əlavə əmtəə yaradılır. Məsələn, SOCAR uzun illərdir ki, anoloqsuz bir layihə həyata keçirir. Bu da ondan ibarətdir ki, neft gölməçələrindən toplanan tullantılar əmtəə nefti səviyyəsində bərpa olunur. Bu layihənin daha bir uğuru ondan ibarətdir ki, heç bir əlavə vəsait xərclənmir. Beləliklə, bu tip layihələr həm iqtisadi dəyər yaradır, həm də ekoloji tarazlığın bərpasına xüsusi töhfə verilir.

Sonda qeyd edək ki, Azərbaycan hökuməti elektrik enerjisi istehsalı üçün təbii qazdan istifadəni azaltmaq üçün dayanıqlı elektrik keçidinin yaradılması yolu ilə 2030-cu ilə qədər ölkənin ümumi enerji kompleksində quraşdırılmış bərpaolunan enerji potensialının payını hazırkı 17 faizdən 30 faizə çatdırmağı qarşısına əsas məqsəd qoyub. Ölkəmiz, həmçinin qlobal enerji bazarlarına enerji ixracının diversifikasiyası və tərəfdaşlar üçün enerji təhlükəsizliyi sahəsində dəstəyin artırılmasını nəzərdə tutub.

# “Təmiz Daşkəsən”– təmiz mədənə yol




**“AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin (QSC) təşkilatçılığı və qurumun törəmə şirkəti “Daşkəsən Dəmir Filiz”, eləcə də “Regional İnkişaf” İctimai Birliyinin dəstəyi ilə “Təmiz Daşkəsən” ekoloji layihəsi uğurla həyata keçirilib.**

“Yaşıl dünya naminə həmrəy olaq!” şüarı ilə təşkil edilən layihə çərçivəsində növbəti aksiyada “AzerGold” QSC, “Daşkəsən Dəmir Filiz”in əməkdaşları və “Regional İnkişaf” könüllüləri iştirak ediblər.

Aksiya iştirakçıları tərəfindən Zəylik çayının Daşkəsən rayonunun Quşçu kəndindən keçən hissəsində, təqribən, 3 hektara yaxın ərazi plastik, polietilen, metal, şüşə, kağız, karton və digər tullantılardan təmizlənib. Yığılmış tullantılar çeşidlənərək təkrar emala yönəldilib.

Xatırladaq ki, “AzerGold” QSC-nin korporativ sosial məsuliyyət fəaliyyəti çərçivəsində həyata keçirilən layihə cari ilin yay və payız aylarında Zəylik və Qoşqarçay çaylarının sahilində, o cümlədən müxtəlif kəndlərdə təşkil edilən təmizlik aksiyalarını əhatə edib. Ümumilikdə 10 hektara yaxın ərazi tullantılardan təmizlənib, ağaclara quş yuvaları asılıb, Daşkəsən şəhərinin mərkəzi küçələrinə tullantı konteynerləri və zibil qutuları yerləşdirilib.

Qeyd edək ki, “Təmiz Daşkəsən” layihəsində əsas məqsəd təmizliyə riayət olunmasını təbliğ etmək, ərazilərin məişət tullantıları ilə çirkləndirilməsinin qarşısını almaq, ictimaiyyəti ətraf mühitin mühafizəsi sahəsində mübarizəyə cəlb etməkdir. Bu məqsədlə rayonun müxtəlif ərazilərində bu tip aksiyaların təşkili bundan sonra da davam etdiriləcək.

**COP29-un Azərbaycan üzrə baş icraçı direktor Elnur Soltanov mediaya müsahibəsində kiçik ada dövlətlərinin tarixən və hazırda istixana qazlarındakı izi ən az olan, amma istixana qazlarının yaratdığı problemlərə ən çox məruz qalan ölkələr olduğunu bildirib. Baş icraçı direktor sözlərinə əlavə edərək onların bu gün ekzistensial problemlə üz-üzə qaldıqlarını vurğulayıb: “Kiçik ada dövlətlərinin qlobal istixana qazlarına təsirləri 1 faizdən azdır. Ancaq bu dövlətlər yaratmadıqları problem nəticəsində öz ölkələrini itirmək təhlükəsi ilə üz-üzədir. Onlar həm iqtisadi, həm coğrafi, həm də sosial cəhətdən strateji dərinliyi olmayan ölkələrdir. Bir tufan ada ölkəsinin iqtisadiyyatını yox edə bilər”.**

# Kiçik adalar – böyük ekoloji təhlükələr



Elnur Soltanovun sözlərinə görə, iqlim müzakirələrinin ən həssas halqası bu ölkələrdir. Azərbaycan da inkişaf etməkdə olan ölkə kateqoriyasındadır. Ölkəmiz kolonializmin, imperializmin, işğalın, yaratmadığımız problemin hədəfi halına gəlməyin nə olduğunu yaxşı bilir. Azərbaycanın sahib olduğu dəyərlərə görə, biz kiçik ada dövlətlərinin və az inkişaf etmiş ölkələrin qarşılaşdığı problemləri dərindən hiss edirik. Onların iştirakının müəyyən hissəsini öz üzərimizə götürməyimiz bizim tarixi həssaslığımızın iqlim fəaliyyəti çərçivəsində ortaya qoyulmasının bir formasıdır.

Azərbaycan Prezidenti çıxışlarının birində bu məqama toxunaraq deyib: “İnkişaf etməkdə olan kiçik ada dövlətləri iqlim dəyişikliyinin təsirlərinə daha həssasdır. İqlim dəyişikliyinə heç bir təsiri olmayan bu ölkələr onun ən pis fəsadlarına məruz qalır, hətta ekzistensial təhlükə ilə üzləşirlər. İqlim dəyişikliyi onların Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq istiqamətində irəliləyişinə də mane olur.

COP29-a sədrliyimiz zamanı iqlim dəyişikliyinin inkişaf etməkdə olan kiçik ada dövlətləri üçün yaratdığı problemlərin həlli prioritetlərimiz arasında olacaq. Biz Bakıda keçiriləcək COP29 zamanı inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Zirvə toplantısını keçirməyi planlaşdırırıq”.

# Ekoloji fəlakətin maliyyə qalxanı

**BMT-nin Azərbaycandakı Nümayəndəliyinin rezident əlaqələndiricisi Nasar Hayat Bakıda keçirilən “Yaşıl maliyyə və dayanıqlı inkişaf forumu”nda çıxışı zamanı BMT və Azərbaycan Mərkəzi Bankının “yaşıl” maliyyələşdirmə sahəsində birgə gördükləri işlərin iqtisadiyyatın ahəngdar inkişafına, ekoloji fəlakətin önləməsinə yönəldiyini bildirib.**



N.Hayat İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondunun ətraf mühit, sosial və idarəetmə prinsipləri əsasında fəaliyyətini yüksək qiymətləndirib. O, qurumun bu istiqamətdə yol xəritəsi hazırlamaq təşəbbüsünün yaxın perspektivdə gerçəkləşəcəyinə əminliyini diqqətə çatdırıb. Eyni zamanda, BMT-nin Azərbaycandakı Nümayəndəliyinin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasını sürətləndirmək, “yaşıl” maliyyənin inkişafına kömək etmək üçün milli tərəfdaşlar və özəl sektorla işləməyə hazır olduğunu vurğulayıb.

O, çıxışının sonunda BMT-nin qlobal Dayanıqlı İnkişaf Məqsədləri üzrə öhdəliklərin həyata keçirilməsinin Azərbaycanda dövlət siyasətinin mühüm tərkib hissəsi olduğunu, ötən müddət ərzində ölkədə sosial, iqtisadi, ətraf mühit sahələrini əhatə edən 30-dan çox dövlət proqramları, strategiyalar və tədbirlər planlarının bu məqsəd və hədəflərə inteqrasiya edildiyini bildirib.

# COP29 Uniformalarının Paylanması və Akkreditasiya Mərkəzi

### *Burada 10 minədək işçi və fəala xidmət göstəriləcək*

**COP29-un müəyyən edilmiş Prezidenti Muxtar Babayev, COP29 Azərbaycan Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri və Əməliyyatlar üzrə baş icraçı Nərmin Carçalova, COP29-un İqlim üzrə gənclər çempionu Leyla Həsənova və COP29 Azərbaycan Əməliyyat Şirkətinin aparat rəhbəri Hikmət Mustafayevin iştirakı ilə keçirilən mərasimdə uniforma paylama və akkreditasiya prosesinin başlanması izlənilib.**

Mərkəzdə akkreditasiya kartlarının və COP29 uniformalarının paylanması üçün yaradılan zonalarda iqlim konfransının təşkilinə cəlb edilmiş işçi qüvvəsi, könüllülər, podratçı şirkətin nümayəndələri də daxil olmaqla, ümumilikdə, 10 min nəfərə yaxın əməkdaşa həftənin 6 günü ərzində xidmət göstəriləcək. Burada COP29 konfrans məkanı olan Bakı Stadionuna giriş üçün akkreditasiyaların səmərəli və sistemləşdirilmiş şəkildə icrasına, habelə uniformaların paylanılmasına əlverişli imkan yaradılacaq.

Açılış mərasimində COP29 Prezidentliyinə akkreditasiya kartları təqdim olunub. İşçi Qüvvəsi Departamentinin rəhbəri Atif Qənbərov məlumat verib ki, artıq bu gündən mərkəz hər kəsə xidmət etməyə hazırdır: “Tədbir müddətində istifadə



edilən uniforma materialları dayanıqlılıq və davamlılıq prinsipləri əsasında istehsal olunub”.

*Səhifəni hazırladı:*
***Vaqif BAYRAMOV***
***XQ***

# Borçalı səyahətçiləri Xankəndidə



**Xəbər verdiyimiz kimi, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində səfərdə olan Borçalı heyətinin 26 nəfərdən ibarət ikinci qrupu da Xankəndi şəhərində olub.**

Soydaşlarımız şəhərdə aparılan bərpa-quruculuq işləri ilə tanış olub. Erməni işğalının ağır nəticələr qoyduğu Kərkicahan qəsəbəsinin dirçəldilməsi qonaqlarda məmnunluq yaradıb. Onlar yenidən qurulmuş şəhər stadionunda, Qarabağ Universitetində də olublar, tarix və mədəniyyət abidələrini ziyarət ediblər.

**Qrupun üzvü jurnalist Ramilə Əliyeva XQ-yə açıqlamasında dedi:**

– Qarabağda aparılan tikinti işlərinin miqyası bizdə heyrət doğurur. Mən bir neçə dəfə bölgəyə səfər etmişəm və hər dəfə şəhər və kəndlərin dirçəlişini sevinclə izləmişəm. Növbəti dəfə ailəmlə birlikdə Qarabğa gələcəyəm.

Şuşada keçirilmiş media forumlarında da iştirak etmişəm. Bu forumlar mənim üçün çox önəmli idi, orada çox vacib məsələlər qaldırılmışdı. Ərazi bütövlüyünü bərpa etməklə Azərbaycan dünya siyasətindəki rolunu göstərdi. Azərbaycanın çiçəklənməsi Gürcüstanın və Cənubi Qafqazın inkişafına müsbət təsir göstərəcək.

Ziyarətçi Lətif Əhmədov duyğu-düşüncələrini belə ifadə etdi.

– Hazırda Qarabağ dirçəlir və bu, ruhumuza rahatlıq verir. Biz səfər zamanı 30 il işğal altında qalan Azərbaycan torpaqlarında törədilən dağıntıların şahidi olduq, erməni vandalizmini lənətlədik. Nə qədər evlər dağılıb, yuvalar viran qoyulub. Günahsız uşaqlar, qocalar öldürülüb. Bu gün



erməniləri himayə edənlər gəlib görsünlər ki, müdafiə etdikləri quldurlar Azərbaycan xalqının başına hansı oyunlar açıblar.

**Marneuli rayonundan gəlmiş soydaşımız Bafəli Adıgözəlov isə söylədi:**

– Çoxdankı arzumuz idi ki, Qarabağ işğaldan azad olunsun və biz bura səyahət edək. Bu torpaqlara gəldiyim üçün sevincliyəm. Gürcüstanda yaşayan azərbaycanlılar müharibənin hər dəqiqəsini izləyirdilər. İlk dəfədir Qarabağa gəlirəm. Çox sevincliyəm. Mən Azərbaycan dövlətinə təşəkkür edirəm ki, bizə bu imkanı yaratdı. Qarabağın hər yerini gəzmək istəyirəm, çünki hər tərəfi gəzməli, görməlidir.

Xatırladaq ki, qədim türk yurdu Borçalıdan azad Qarabağa 3 qrup ziyarətçi gəlib. Səfərin məqsədi qonşu ölkədə yaşayan soydaşlarımızı regionda aparılan tikinti və bərpa işləri ilə tanış etməkdir. Borçalılıların bölgə ilə tanışlığı oktyabrın 22-dək davam edəcək.

***T.RÜSTƏMLİ***
***XQ***

# 1 teatrın 2 yubileyi

**Bu günlər “Yuğ” Dövlət teatrının 35, onun yaradıcısı, mərhum Vaqif İbrahimoğlunun isə 75 yaşı tamam olur.**



“Yuğ” teatrı bir studiya kimi 1989-cu ilin oktyabrında Vaqif İbrahimoğlu və Həsənağa Turabovun təşəbbüsü ilə Akademik Milli Dram Teatrın nəzdində təsis edilib. 1992-ci ildə bu sənət ocağına dövlət teatrı statusu verilib. Yarandığı gündən bəri teatrda 100-dən çox tamaşa hazırlanıb. Onun repertuarına həm görkəmli Azərbaycan dramaturqlarının, həm də dünya klassiklərinin əsərləri daxildir. Tamamilə fərqli müəlliflərin pyesləri bu teatrın formatına uyğunlaşdırılır və beləliklə, nadir, qeyri-adi tamaşalar alınır.

**Teatrın baş rejissoru Mikayıl Mikayılovun kollektivin 35 illik yaradıcılıq yolu, həmçinin bu sənət ocağının təsisçisi Vaqif İbrahimoğlu haqqında dediklərini təqdim edirik:**

– Ötən illər ərzində teatr bir neçə mərhələdən keçib. Studiya kimi fəaliyyətə başlayıb, sonra dövlət teatrı statusu alıb. Sovet İttifaqının süqutundan sonra “Yuğ” öz mənşəyinə, miflərinə və ayinlərinə müraciət etdi. Teatr, onun poetikası, tamaşaların formatı mübahisələrə səbəb oldu. Amma bu, kökə, türk mədəniyyətinə qayıdış idi və “Yuğ” zəruri bir fenomenə çevrildi. O vaxt Vaqif İbrahimoğlu öz təcrübələrini teatrla sintez edərək, tədricən poetikasının konturlarını müəyyənləşdirdi. Sonrakı dövrdə, yəni Vaqif müəllim aramızdan gedəndən sonra da çətinliklər oldu. Hər bir halda “Yuğ”un ayaqda qalmasına çalışdıq. İndi biz yenidən poetikamız üzərində işləməyə başlayırıq.

Planlar isə həm çoxsaylı, həm də müxtəlifdir. “Yuğ”un 35 illik yubileyini geniş miqyasda qeyd etməyə hazırlaşırıq. Vaqif İbrahimoğlunun A.P.Çexovun əsəri əsasında hazırladığı “Albalı bağı” tamaşasını bərpa edəcəyik. Bu, nadir əsərdir, istəyirəm ki, həmin tamaşa teatrın repertuarında bir növ arxiv materialı kimi qalsın və ondan təsisçimizin yaradıcılığını, poetikasını öyrənmək məqsədilə istifadə olunsun. Bundan əlavə, Vaqif İbrahimoğlunun anadan olmasının 75 illiyi ilə əlaqədar onun poetikasından bəhs edən kitab nəşr etmək istəyirik. Rejissorlarımızın səhnələşdirdiyi yeni tamaşalar da olacaq. Bununla yanaşı, Sandro Axmeteli adına Tbilisi Dram Teatrı ilə birgə layihəmiz var; gürcü baş rejissor tamaşanı “Yuğ”da, mən isə onların teatrında səhnələşdirəcəyəm. Gələcəkdə bu layihəni inkişaf etdirəcəyik. Bundan əlavə, dramaturgiya festivalında iştirak edəcəyik. Süni intellekt kimi texnoloji imkanlardan istifadə edilən layihələrimiz də olacaq. Axı “Yuğ” təkcə repertuar teatrı deyil, həm də layihə məkanıdır”.

“Yuğ”un yaradıcı kollektivinə yeni uğurlar arzulayırıq.

***Ə.DOSTƏLİ***
***XQ***

# “Azərbaycanın yüksəlişi” mövzusunda intellektual yarış

**Oktyabrın 19-da “Yüksəliş” müsabiqəsinin qalibləri, finalçıları və yarımfinalçılarının iştirakı ilə keçirilən “Azərbaycanın yüksəlişi” intellektual kvizi - payız mövsümü uğurla başa çatıb.**



“Azərbaycanın yüksəlişi” intellektual yarışı Azərbaycanın Dövlət Müstəqilliyinin Bərpası Gününə, Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətlərinə və Prezident İlham Əliyevin ölkəmizi yüksəlişə aparan fəaliyyətinə həsr olunub.

Tədbirdə 42 komanda ilə birlikdə 300 nəfərə yaxın iştirakçı öz bilik və bacarıqlarını sınayıb.

Yarışda gənclər və idman nazirinin müavini, “Yüksəliş” müsabiqəsinin işçi qrupunun rəhbəri Fərhad Hacıyev qalib komandaları təbrik edərək onlara uğurlar arzulayıb və mükafatları təqdim edib.

Müsabiqə nəticələrinə görə, “Yaşıl keçid” komandası I yerə, “Perfect Strangers” komandası II yerə, “DAY22” komandası isə III yerə layiq görülüb.

“Yüksəliş” müsabiqəsi artıq üçüncü dəfədir ki, qaliblər, finalçılar və yarımfinalçılar arasında intellektual kviz keçirir. Qeyd edək ki, bu ilin bahar mövsümündə keçirilən kviz “Yaşıl dünya naminə həmrəylik ili”nə, ötən il baş tutan yarış isə Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuşdu.

Xatırladaq ki, “Yüksəliş” müsabiqəsi Azərbaycan Prezidentinin 2019-cu il 26 iyul tarixli Sərəncamına əsasən təsis olunub. Müsabiqənin məqsədi 21-51 yaş aralığında olan, intellektual səviyyəsi yüksək və azı iki il idarəçilik təcrübəsinə malik perspektivli rəhbər şəxslərin müəyyənləşdirilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etməkdir.

“Yüksəliş” müsabiqəsinin qalibini bir il ərzində idarəçi rəhbərlərdən – böyük şirkətlərin top-menecerlərindən və dövlət orqanlarının rəhbərlərindən fərdi karyera məsləhətləri almaq imkanı və 20 min manat məbləğində pul mükafatı gözləyir.

Dördüncü “Yüksəliş” müsabiqəsinin keçirilməsi ilə bağlı Azərbaycan Prezidenti tərəfindən 2023-cü il dekabrın 25-də Sərəncam imzalanıb.

***XQ***

**Müasir kinonun parlaq ulduzu olan aktyor, ssenarist, prodüser, bodibildinq və döyüş sənəti ustası, nəhayət, yazıçısı Jan Klod Van Damm 30 ildən bəri özünə milyonlarla pərəstişkar qazanıb. 1984-cü ildə çəkildiyi “Breyk-dans: film” adlı ekran əsəri ilə məşhurlaşıb və ardınca neçə-neçə filmin qəhrəmanı kimi kinosevərlərin və döyüş səhnələrinə vurğun olan gənclərin könüllərini ələ alıb.**

# Van Damm – azərbaycanlı qızın qayınatası



O, 1960-cı il oktyabrın 18-də Belçikanın paytaxtı Brüsseldə holland (flamand) əsilli ailədə anadan olub. Əvvəlcə idmana könül verib. 1978–79-cu illərdə Peşəkar Avropa Karate Federasiyasının orta çəki üzrə çempionu olub. İştirak etdiyi 22 döyüşün 20-də (13-ü təmiz, 7-si isə texniki) nokautla qələbə qazanıb. Döyüş növləri ustası, məşhur aktyor Çak Norrisin sparrinq tərəf müqabili olub. Yəni kinoya idmandan gəlib. Onun uğurlu film karyerası heç də hər aktyora nəsib olmayan zirvə timsalındadır. “Nə geri çəkil, nə təslim ol”, “Qanlı idman”, “Kikboksçu”, “Kiborq”, “Ölümcül order”, “Şir ürəkli”, “İkiqat zərbə”, “Universal əsgər” kimi döyüş filmləri ilə şöhrətlənən Van Damm 1992–1993 və 1994-cü illərdə ard-arda “MTV Movie Awards” kinomükafatının “Ən arzuolunan kişi” nominasiyasında qalib gəlib, həmçinin “Planetin Qızıl İstedadları” mükafatının qızıl ordeninə layiq görülüb.

Sonrakı dövrlərdə ailə ayrılıqları, narkotik aludəçiliyi kimi həyat sınaqları ilə üzləşən məşhurun populyarlığı azalsa da, öz iradəsi hesabına çətinliklərini dəf edə bilib. Yeni əsrin əvvəllərindən çəkildiyi 20-yə qədər filmdə Van Damm yenidən parlayıb. “JKVD”, 2-ci “Universal əsgər”, “Replikant”, “Cəhənnəmdə”, “Ölümün izi”, “Komandirin müavini”, “Qatillərin oyunu”, “Qabağıalınmazlar” və sair ekran əsərləri, müxtəlif seriallar bu sıradandır.

Jan Klod Van Dammın Azərbaycanda da çoxlu pərəstişkarları var. Əlbəttə, onun adının “Jan”, yəni bizim dillə desək, “Can” olması təsadüfdür, amma 44 günlük “Zəfər Yürüşü”ndə qorxmadan düşmən üstünə gedən, Şuşanı almaq üçün yüngül silahlarla dik və çılpaq qayalara dırmaşaraq, Cıdır düzünə qalxan bir çox igidlərimizin Jan Klod Van Damm təpəri və hünəri göstərmələri bir faktdır. Fərq burasındadır ki, aktyor kinofilmlərdə oyunu ilə fərqlənib, əsgərlərimiz isə canlı döyüş səhnələrində qələbələrini qanları və canları bahasına qazanıblar.

Onun oğlu – azərbaycanlı xanım, Bakı Musiqi Akademiyasının məzunu, pianoçu Suada Hacızadənin həyat yoldaşı olan aktyor Kristofer Van Damm inişil ailəsi ilə Bakıda olarkən müsahibələrindən birində deyib: “Atam 2000-ci illərin əvvəllərində Azərbaycana gəlib. Burada qısa müddət qalmasına baxmayaraq, Azərbaycanı çox sevir, çox bəyənir. O vaxtlar atam həm də Suadanın atası ilə tanış olub. ABŞ-yə, Los-Ancelesə qayıdanda atam məni ofisinə çağırdı və dedi ki, Azərbaycan adlı bir ölkəyə səfər etmişdim. Çox gözəl ölkədir və parlaq gələcəyi olacaq. Bildirdi ki, o ölkənin insanları çox mehribandır, mədəniyyəti çox zəngindir. Sonra mənə məsləhət gördü ki, gələcəkdə mütləq Azərbaycandan olan bir xanımla evlən. Bundan bir qədər sonra Suada ilə “İnstagram”da tanış oldum. Qiyabi də olsa, bir-birimizə mehir saldıq. Azərbaycan adını görən kimi atamın sözləri yadıma düşdü. Suada ilə düz 4 il “İnstagram”da danışdıq və yaxın dosta çevrildik. Zamanla isə bir-birimizə aşiq olduq”.

Beləcə, Suadanın qayınatası – dünya ulduzu onun və Kristoferin, necə deyərlər, ulduzunun barışmasında əsas səbəbkar olub. Onda pandemiya dövrü idi və ilk elçilik onlayn olub. O zaman COVID-19-a görə nə elçilər Bakıya, nə də Suadagil Belçikaya gedə bilmədikləri üçün izdivacın rəsmiləşməsi İstanbulda, Azərbaycanın oradakı baş konsulluğunda baş tutub.

**Suada xanımın dedikləri:** “Tanışlığımızın əvvəlində Kristoferin bir əcnəbi olaraq Azərbaycanı tanıması, ölkəmizin mədəniyyəti haqqında məlumatlı olması məni cəlb etmişdi. Atasının isə kim olduğunu bilmirdim. Özü də bu barədə mənə heç nə deməmişdi. Həmişə soyadını gizlədirdi, atası ilə şəkil də paylaşmırdı. Sadəcə, Jan Klod Van Damm Azərbaycana səfər etmişdi və onun söhbətləri Krisdə ölkəmizə maraq oyatmışdı.




Yeri gəlmişkən, Van Dammın həyat yoldaşı rəssam olmaqla bərabər, aktrisadır, özü də bodibildinq üzrə çempion olub. Kristofer isə karate ilə məşğul olub. Onları bilmirik, ancaq Van Damm vegeteriandır (ət yemir, amma gücünə baxın). Yenə də filmlərdə çəkilir. “Minyon: Qriditasiya” (2022), “İnsan zülməti” (2024) filmləri buna misal ola bilər. Hazırda isə çəkilişləri davam edən “Frençi” filmində baş rol ifaçısıdır. Kino rejissurasında da sözünü deyir, musiqi videokliplərdə, reklam çarxlarında da çəkilir.



Bu yazıda Van Damm və Azərbaycan mövzusuna da toxunduq. Sonda oxucuların bu barədə bilgiləri daha çox olsun deyə, onu da bildirək ki, bizim Qəbələ rayonunun Vəndam qəsəbəsində onun heykəli vardı: axı, bir növ adaşdırlar – Van Damm və Vəndam! Amma öyrəndik ki, yerli sənətkar Azad Əliyevin ağacdan yonduğu bu heykəl yol çəkilişi ilə əlaqədar, müvəqqəti olaraq, götürülüb. Ümid edirik ki, Van Dammın heykəlinə yenidən bir yer tapılacaq.

***XQ***

## Həyatın içindən

# “Qiymət körpüsü”

**Yuxudan gec oyanmışdım. Geyinib pəncərədən bayıra baxdım. Göyün üzü yaman tutulmuşdu. Üşüdüyümdən pəncərənin nəfəsliyini bağladım. İşə getməyə həvəsim yox idi. Ancaq evdə qalıb darıxacağımı yəqin etdikdən sonra çaydanı doldurub qazın üstünə qoydum və mətbəxdə dayanıb həyəti gözdən keçirməyə başladım. Ağabala kişi “Meyvəli”dən alıb gətirdiyi meyvə-tərəvəzi dükanının qarşısında yerbəyer eləyirdi. Süpürgəçi Pakizə isə onun yanında dayanıb nəsə deyirdi. Xlorsatan qadının özü görünməsə də incəlmiş səsi eşidilirdi: “Xlor, xlor var, xlor...”**



Sonra oturub çay içə-içə bu gün görəcəyim işləri, görüşəcəyim adamları sıralamağa çalışdım. Arada yadıma düşdü ki, bu gün dostlarımdan birinin ad günüdür, gərək ona zəng edim.

Telefon zəng çaldı. İş yerimdən idi. Katibə bildirdi ki, sizi burada kənddən gəlmiş qohumlarınız gözləyir. Deyirlər, mümkünsə, tez gəlsin... İstədim gələnlərin kimliyini öyrənim. Xanım bildirdi ki, onlar yaxınlıqdakı çayxanaya gedəcəklərini və tezliklə qayıdacaqlarını dedilər.

Fikir məni götürdü. İş yerimə gələnlər kimlər ola bilərdi? Çünki kənddəki qohum-qardaşın, yaxınların çoxu həm telefonumu, həm də evin yerini bilir. Yanıma gəlmək istəyəndə, yaxud nəyisə soruşmaq istəyəndə zəng edirlər. Bəs indi zəng etməyib iş yerimə gələnlər kimlərdir?

Həyətə çıxdım. Bakının solaxay küləyi başlamışdı. Arabir Şubanı dağları tərəfdən qar dənələri gəlirdi. Binamızın arxasındakı dayanacaqda gözlədim. Xəyalımda yenə iş yerimə gələn qohumların kimliyini müəyyən etməyə çalışırdım. Öz-özümə dedim, bəlkə, heç qohum deyillər? Yaxşı, əgər qohum deyillərsə, niyə belə ərklə “tez gəlsin” deyirlər?

İş stoluma yenicə oturmuşdum. Xəbər gəldi ki, qohumların aşağıda gözləyirlər. Durub maraqla aşağı mərtəbəyə yollandım. Foyedə dayananları tez tanıdım – Məhərrəm və oğlu Orxan idi. Məhərrəm mənə qohum deyil. Ancaq bir kənddə böyümüşük. O, pedaqoji məktəbi bitirib, bir neçə il müəllimlik edib. On ildən çoxdur ki, Rusiyada qardaşı ilə alış-verişlə məşğuldur. Deyilənə görə, Sumqayıtda bir neçə mənzil alıb, rayon mərkəzində mebel dükanı açıb. Hər il bahalı xarici maşınını dəyişir. İki oğlunu da hansı yollasa universitetə düzəldib. Uşaqlar pullu təhsil alırlar. Necə deyərlər, daha o, əvvəlki Məhərrəm deyil, “gözü ayağının altını görmür”.

Onunla axırıncı dəfə iki il əvvəl bir toyda rastlaşmışdıq. Məhərrəm çadır toyunda yuxarı başda oturub naqqallıq edir, yekə-yekə danışırdı. Arabir də gəlib-gedənə söz atırdı. Necə oldusa, söhbət oxumaqdan düşdü. Məhərrəm yaşlılardan birinin sözünü ağzında qoydu:

– Əə, biz də oxumuşuq, daa. Oxuyana nə verirlər ki? İrəli getmək üçün gərək adamın, pulun olsun. Mən ölüm, elə döyül, müəllim? Odur, gözümüzün qabağındadı, onun biliyi kimdə olsaydı, çox yuxarılara getmişdi...

Kimsə dedi:

– Oxuyana pul vermirlərsə, niyə uşaqlarını oxudursan?

Məhərrəm də qayıtdı ki, qoy diplom alsınlar, qağan onları pulla istədikləri vəzifəyə otuzduracaq.

Məclisdə ağsaqqallar olduğu üçün Məhərrəmə cavab vermək istəmədim. Demədim ki, bu kənddə bilməyən yoxdur ki, sən o pulları ona-buna “ata-ata” toplamısan. Doğma qardaşınla pul üstündə qırğına çıxmısan, onun halal qazancını oğurlamısan...

Mənim əvəzimdə kimsə dilləndi:

– Bu da əyri yolla beş-on manat qazanıb, elə bilir ki, ağıllı adamdı, camaata dərs demək istəyir.

Məhərrəm isə kiməsə deyirdi:

– Hansı müəllimin ağzı nədi, mənim oğluma qiymət yazmasın. O yazmaz, dekana yazdıraram. Yüz dollara yazmaz, iki yüz verərəm. Pulun açmadığı qapı yoxdur...

Görüşdük. Sanki, Məhərrəm o gur-gurulduyan, hamı ilə pul diliylə danışan adam deyildi. Elə asta, şirin-şirin danışırdı ki... Yanıma niyə gəldiklərini əvvəlcə açıb demədi. Sadəcə Ancaq hiss etdim ki, Məhərrəm məndən kömək istəyir. Buna görə dedim:

– Mən nə edə bilərəm? Yaxşı olar ki, hazırlaşsın.

Məhərrəm dedi:

– Yeməklə doymayıb, yalamaqla doyacaq. Deyirlər, o müəllim sizin tələbə yoldaşınız olub. Səidə Abdullayeva, tarixdən dərs deyir.

– Doğrudur, Səidə xanımla eyni fakültəni bitirmişik. Amma heç vaxt bir-birimizdən belə xahişimiz olmayıb. Çox ciddi xanımdır.

Məhərrəm dedi:

– İki dəfə adam tapıb xahiş etdirdim, alınmadı. Dedim ki, 500 dollar azdırsa, 1000 dollar verim. Yenə bir şey çıxmadı.

… Səhər evdən çıxıb birbaşa universitetə getdim.

Səidə məni görcək sevinən kimi oldu və zarafatla: “Sizi hansı rüzigar gətirdi buralara?” – dedi.

Səidə tarix fakültəsini ən yaxşı oxuyan qızlardan biri idi. Onunla Tələbə Elmi Şurasının toplantılarında, müzakirələrdə görüşürdük. Universiteti bitirdikdən sonra Akademiyanın Tarix İnstitutunda çalışdı, elmlər namizədi oldu. Ancaq, nədənsə, indiyədək ailə qurmayıb. Bəlkə, Səidə çox ciddi qız olduğuna görə oğlanlar ona ürək açmağa cəsarət etməyiblər. Bəlkə də, ürəyində kiməsə sevdalanıb, amma istəyi baş tutmayıb. Belə, qızlarımız az deyil – ciddi, tərbiyəli. Onlar fikrini-zikrini oxumağa verir, öz səyi, bacarığı ilə həyatda mövqe tutmağa çalışırlar. Amma bəzən onda ayılırlar ki, gəncliyin ən gözəl illəri arxada qalıb, yaş ötüb, təravət itib. Nədənsə, oğlanların çoxu bu qızlara meyilli olmur, gözləri önündəki “xəzinə”ni görmürlər.

Səidə bir neçə ildir ki, universitetdə dərs deyir. Elmi konfranslarda üz-üzə gəlirik, yanaşı olaraq, bildirdi ki, Orxana dedim, gedək müəllimlə də görüşək. Hər halda, qohumuq, bir-birimizi yoxlamalıyıq...

Mən Orxandan dərslərinin necə getdiyini soruşdum. Məhərrəm oğluna imkan verməyib dedi:

– Əmisi, mən də bunun zibilinə düşmüşəm. Bir müəllimi var, qiymət yazmır. Zalım qızı pula-zada da baxmır. İş-gücümü atıb Moskvadan gəlmişəm. Bu dəfə də qiymət almasa...

Bilmədim nə cavab verim. əyləşib söhbətləşirik. Hərdən hiss edirəm ki, onun ürəyində nisgil var, mənə söyləməyə utanır. Amma mən də bəlli “sərhəd”ləri keçməyib bunun səbəbini soruşmağa cəsarət etmirəm.

Artıq saçlarına dən düşüb, amma rəngləməyib. Xurmayı saçlarını səliqə ilə darayaraq bağlayıb. Gülümsəyəndə çöhrəsi daha da işıqlanır...

Arada o mənə dedi:

– Mətbuatda gedən yazılarınızı həmişə oxumağa çalışıram. Azərbaycanın ən qədim dövrlərinə aid publisistik tonda yazdığınız tarixi oçerklər dəyərlidir. Maraqla oxunur...

Bu sözlərə görə həmkarıma təşəkkür etdikdən sonra dedim:

– Sizin kimi gözəl xanımdan belə sözlər eşitmək xoşdur. Ancaq ayağınıza gəlməmişəm ki, məni tərifləyəsiz.

Bu sözlərdən sonra o, bir az qızaran kimi oldu və üzünü yana tutdu.

– Mən düzünü deyirəm.

Mən isə mətləbə keçdim:

– Sizin Orxan adlı tələbəniz var, mənim qohumumdu...

– O atası bazar adamı olanı deyirsiz. Söz vermişəm, oxumasa, ona qiymət yazmayacam. Qoy getsin atası kimi alverlə məşğul olsun. O tələbənin Azərbaycan tarixindən xəbəri yoxdur. Aydın, siz vicdanlı adamsınız, hər zaman bunu hiss etmişəm... Sizin xətrinizə bu dəfə ona qiymət yazaram. Amma gələn semestrdə güzəşt olmayacaq...

– Sağ olun, heç mən də haçansa sizin yanınıza belə xahiş üçün gəlmərəm.

– Ümid edirəm ki, gələn dəfə qapımızı daha xoş istək üçün açacaqsınız.

– Çalışaram. Ancaq bu, bir az sizdən asılıdır.

Sonra hər ikimiz gülümsündük....

Məhərrəm izləyirmiş kimi, universitetin əsas giriş qapısında mənə yanaşdı. “Qohumum” problemin həll olunacağını eşitdikdən sonra sevincək oldu və mənə dönə-dönə təşəkkür etdi.

Sonra dedi:

– Bəlkə, restorana gedib, boğazımızı yaşlayaq.

Mən vacib işlərim olduğunu söyləyib ondan ayrılıb metroya tərəf getdim. Arada dönüb geriyə boylandım. Məhərrəm hələ də yerindəcə dayanıb arxamca baxırdı.

Artıq sulu qar yağırdı...

***Səməd MƏLİKZADƏ***

# Ölkəmizdə qış idman növləri də inkişaf edir

*ISMF-in 17-ci Plenar Assambleyasında bu barədə geniş söhbət açılıb*



**(əvvəli 1-ci səhifədə)**

Azərbaycan Qış İdman Növləri Federasiyasının vitse-prezidenti Florian Zenqstşmid bu idman növünün geniş yayılması, bu sahəyə insanların marağının artırılması istiqamətində həm dövlət, həm də federasiya tərəfindən əhəmiyyətli işlərin görüldüyünü bildirib. Qeyd edilib ki, cari ilin mart ayında ölkəmizdə xizək alpinizmi üzrə beynəlxalq seriya yarışının keçirilməsi, buz meydançasının açılması bu sahənin inkişafının bariz nümunəsidir. Qurum rəsmisi 2025-ci ilin yanvar ayında “Şahdağ” Turizm Mərkəzində keçiriləcək xizək alpinizmi üzrə Dünya Kubokunun ən yüksək səviyyədə təşkili ilə bağlı müvafiq işlərin aparıldığını diqqətə çatdırıb.

Beynəlxalq Xizək Alpinizmi Federasiyasının prezidenti Requla Meyer Azərbaycanda xizək idman növlərinə marağın artmasını yüksək qiymətləndirib. Bildirilib ki, ölkəmizdə beynəlxalq standartlara cavab verən yamaclar və infrastrukturun yaradılması bu idman növünün inkişafı üçün geniş imkanlar açır. Qurum rəhbəri Beynəlxalq Federasiyanın gələcəkdə də Avropa və dünya çempionatları kimi irimiqyaslı yarışların Azərbaycanda keçirilməsinə hazır olduğunu deyib.

Plenar Assambleyada Beynəlxalq Xizək Alpinizmi Federasiyası tərəfindən il ərzində həyata keçirilən tədbirlər, qarşıda duran hədəflər və nəzərdə tutulan layihələr haqqında məlumat verilib, yeni üzvlər qəbul edilib. Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Tomas Bax videomüsahibə vasitəsilə tədbir iştirakçılarına uğurlar arzulayıb.

Tədbirdən sonra jurnalistlərə açıqlama verən Azərbaycan Qış İdman Növləri Federasiyasının baş katibi Günel Bədəlova ölkəmizin bu tədbirə ev sahibliyi etməsinin böyük əhəmiyyət olduğunu bildirib. Qeyd edilib ki, gələn ilin yanvar ayında “Şahdağ” Turizm Mərkəzində keçiriləcək xizək alpinizmi üzrə Dünya Kubokunun ən yüksək səviyyədə təşkili ilə bağlı bütün lazımi işlər görüləcək.

Requla Meyer isə jurnalistlərə açıqlamasında ölkəmizdə keçirilən assambleyada iştirak etməyin onlar üçün böyük şərəf olduğunu deyib.

Qeyd edək ki, Beynəlxalq Xizək Alpinizmi Federasiyasının Bakıda keçirilən 17-ci Plenar Assambleyasında 24 ölkədən 60-a yaxın nümayəndə iştirak edir.

***L.AZAD***
***XQ***

## Soruşun, cavab verək

# Tələbə dərsə getməyibsə...

**Tələbələrin qızılca və digər yoluxucu xəstəliklərə tutulmaları, bədbəxt hadisə nəticəsində xəsarət almaları onların dərslərə davam etməsinə mane olur. Bu səbəbdən tələbələrin dərsdə iştirak etməməsi üzürlü sayılırmı?**



Bu sualın cavabında təhsil eksperti Kamran Əsədov XQ-yə bildirdi:

– Dərsdə iştirak etməmək heç bir halda üzürlü hesab olunmur. Düşünə bilərik ki, bu, məcburi dərsburaxmadır, tələbənin istəyindən asılı deyil. Amma qüvvədə olan “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nda “qayıb” yazılmasının vacibliyi qeyd olunur.

Ekspert həmin qaydaların 3.2.23-cü maddəsinə istinad edərək bildirdi ki, fənn üzrə ayrılmış auditoriya saatlarının 25 faizindən çoxunda iştirak etməyən tələbə (milli yığma komandaların üzvləri olan idmançı-tələbələr istisna olmaqla) həmin fəndən imtahana buraxılmır. Bu hədd ali təhsil müəssisəsi tərəfindən azaldıla bilər: “Tələbə yoluxucu xəstəliyə düçar ola, yol-nəqliyyat hadisəsi nəticəsində xəsarət ala bilər. Bu zaman tibbi məntəqədə ona qeydiyyat vərəqi açılır və bülleten verilir. Amma bu da dərsdə iştirak etməməyə əsas vermir”.

K.Əsədov onu da diqqətə çatdırdı ki, universitet rəhbərliyi daxili nizamnaməyə görə, tələbələrin “qayıb”larını üzürlü hesab edə bilər.

***Hazırladı:***
***Rizvan FİKRƏTOĞLU***
***XQ***

## Xarici müsahibimiz

# İpək yolu incəsənətində Türk xalqlarının da böyük payı var

**ABŞ-nin Uilyam Paterson Universitetinin professoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Fulbright təqaüdçüsü He Çjan Azərbaycan Milli İncəsənət Muzeyində “İpək yolu incəsənəti” adlı mühazirə ilə çıxış edib. Böyük İpək Yolu üzərində yerləşmiş qədim dövlətlərin mədəniyyətinə həsr olunmuş məruzədə ellinizm mədəniyyəti dövründə formalaşmış Qərb və Şərq üslublarının sintezi, qədim xalqların yaratdığı tanınmış sənət nümunələri və mədəni yüksəliş dönəmlərində Çin incəsənətinin qonşu ölkələrə təsiri kimi məqamlar əksini tapıb.**



Mühazirədən sonra Çin əsilli ABŞ professoru “Xalq qəzeti”nə eksklüziv müsahibə verib.

**– Əsrlər boyu Çin mədəniyyəti İpək yolu üzərində yerləşən ölkələrin incəsənəti ilə sıx təmasda inkişaf edib. Bu qarşılıqlı əlaqə tarixdə də silinməz izlər buraxıb.**

– Əvvəlcə onu qeyd edim ki, “İpək yolu” terminini XIX əsrin sonlarında alman tədqiqatçısı Ferdinand fon Richtofen işlədib. Bəli, Çin, Yaponiya, Monqolustan, Hindistan, Azərbaycan və başqa Mərkəzi Asiya ölkələrinin bir-birilərinin mədəniyyətinə, incəsənətinə təsiri olduqca güclü olub. Əsrlər boyu Çin mədəniyyəti Türk mədəniyyətinə böyük təsir göstərib. Bu əlaqələr, xüsusilə monqolların məğlubiyyətindən sonra güclü olub və eramızın XIII əsrində öz yüksəliş nöqtəsinə çatıb. Bu proses Çində Ming sülaləsi dövrünə təsadüf edib və nəticədə, sənət əsərlərindəki Çin motivləri və rənglər Türk xalqları sənətində müxtəlif üslub, material və əşyaların üzərində nəfis şəkildə işlədilməyə başlayıb. Keramika, çini qablar, plitələr, xalçalar və dekorativ memarlıq xüsusiyyətləri bunlara misaldır. Həmin dövrdə daha məşhur olan əjdaha motivləri, qartal, simurq, tovuz quşu, lotus çiçəyi və bulud təsvirləri bura daxildir.

**– İpək yolu sənətinin yaranmasında türk xalqlarının da böyük payı var. Bəs bu sənət növü Çin incəsənətində hansı məna daşıyır?**

– Bu sənət növü xalqlar arasında dinə olan inamı, sədaqəti göstərmək üçün yaransa da, bu gün mütəxəssis olaraq biz onu Çin incəsənəti və tarixinin mədəni mövzusu kimi araşdırırıq. Dini motivlər hər dövrdə sənət və sənətkarlar üçün ilham mənbəyi olmuşdur. “İpək yolu” sənətinin çox hissəsi də dini mənşəlidir. Çində qədim dövrlərdən bu günə qədər istehsal olunan bir çox sənət nümunələri insanlarda böyük maraq doğurur. Bunun başlıca səbəbi həmin əsərlərdə İpək yolu ölkələrinin incəsənət və memarlıq üslubuna məxsus naxışların, təsvirlərin əks olunmasıdır.

Müxtəlif dövrləri özündə əks etdirən hekayə və rəvayətlərlə bağlı lövhələr, Çinin şimal-qərbindəki məbədlərdə və mağaralardakı divar rəsmləri, nəhəng heykəllər, çap nümunələri və s. həmin təsviri sənətdə geniş əksini tapıb. İpək yolu sənəti Çində ellinistik sənət mədəniyyətinin əsasını qoyub. Bura isə rəngli çiçəklərin təsviri ilə hazırlanmış şüşə çərçivələr, zərgərlik nümunələri, Hun sülaləsi dövründə tunc materialdan hazırlanmış nəfis güzgülər, həndəsi fiqurlarla işlənmiş incəsənət növləri və s. aiddir.




**– Çin incəsənəti Türk xalqları və ellinizm mədəniyyətindən başqa hansı coğrafi məkanlarla təmasda olub?**

– Buddist mədəniyyəti və dini də Çin sənətinə bir neçə yeniliklər gətirib. Məsələn, Çin mədəniyyətində Buddanın təsviri Buddist mədəniyyətinin Çin sənətində qoyduğu dərin izlərin təzahürüdür. Çin sənətində Tang dövrü mədəniyyəti də məşhur olub. Təsviri sənət toxuculuqda da üstünlük təşkil edib. Parçaların üzərində dairə içərisində üzbəüz dayanmış iki heyvan fiquru təsvir olunurdu.

Tang dövrünə aid olan bu toxuculuq növü həm də müxtəlif rəngli boyalardan istifadə edərək parçada naxış yaradan bir texnika hesab olunur. Hindistanda yaranan bu mədəniyyət əvvəl İranda, sonra isə Çinin qərbində məşhurlaşıb.

**– Bakı ilə bağlı təəssuratlarınız da oxucularımız üçün maraqlıdır.**

– Şəhərinizi çox bəyəndim. Olduqca mədəni bir meqapolisdir. Burada muzeylər, musiqi zalları, göz oxşayan parklar diqqətimdən yayınmadı. Bakı Şərq və Qərb mədəniyyətinin ən yüksək şəkildə vəhdətini təcəssüm etdirir. Ən çox bəyəndiyim məkanlardan biri də “Xalça Muzeyi” oldu. Burada o qədər qədim və gözəl naxışlı xalça növləri var ki. Bir anlıq tarixi keçmişə səyahət edirsən. Çox istərdim ki, Bakı turistlərin mədəni mərkəzinə çevrilsin. COP29-a hazırlıq şəhərinizi daha da gözəlləşdirib. Düşünürəm ki, konfrans günlərində bütün dünya Bakını görəcək və sevəcək.

***F.SALMANOVA,***
***Elşən AĞALAROV(foto),***
***XQ***

# Şirvanda ağacəkmə aksiyası

**Şirvanda “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində şəhərin Heydər Əliyev prospekti boyunca olan ərazidə, M.Füzuli adına Mədəniyyət və İstirahət Parkında 18 Oktyabr Müstəqilliyin Bərpası Gününə həsr olunmuş ağacəkmə aksiyası keçirilib.**

Şirvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən aksiyada şəhərdəki idarə və müəlssisələrin kollektivləri, məktəblərin yuxarı sinif şagirdləri, ictimaiyyət və media nümayəndələri iştirak ediblər.

Həmin gün şəhərdə 920-dən çox şam və sərv ağacı əkilib, ərazidə təmizlik və abadlıq işləri aparılıb.

***Fidan SALMAN***
***XQ***



Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 231 (30635) 20 oktyabr 2024-cü il, bazar

# İnsan beyni – xəzinələrin açarı

## *Hər şeyi bəxtə – taleyə bağlamaq tənbəl adamların işidir*

**İngilis şairi Edmund Spenser yazır ki, insanı sağlam yaxud xəstə, bədbəxt yaxud xoşbəxt, zəngin yaxud yoxsul edən onun zehnidir. Davranışlarımız içində olduğumuz vəziyyətlərin nəticəsidir. İnsanın şəxsi gücündən istifadəyə imkan verən inam, sevgi, daxili güc, sevinc, həzz kimi durumlar mövcuddur. Bununla bərabər həmin enerjini iflic edən situasiyalar da var. Depressiya, qorxu, həyəcan, təşviş, kədər, məyusluq... İnsan bəzən o dərəcədə bu neqativ hisslərə aludə olur ki, zaman gəlir, bu hislər səbəbsiz yerə yaranmağa başlayır. Heç bir səbəb olmadan həyəcan, təşviş hissi xirtdəyimizdən yapışıb bizi boğmağa çalışır.**



Bu kimi nevrotik pozuntular əksər hallarda qeyri-sağlam həyat tərzinin, uşaqlıq travmalarının nəticəsi kimi meydana çıxır. Hər halda elm bu qənaətə gəlib çıxıb. Amma insan bu simptomların hardan, nədən qaynaqlandığını anlayarsa, vəziyyəti dəyişə, altşüurda belə demək mümkünsə, səliqə-sahman yarada bilər. Durumunuzu idarə edərək həyatınızda arzuladığınız nəticəni almağın ilk açarı beyninizi səmərəli çalışdırmaqdır. Amerika yazıçısı və psixoloqu Entoni Robbins də bizə bunu məsləhət görür. O, bu sahə üzrə xeyli kitablar yazıb və dünyada milyonlarla insan onun kitablarını oxuyaraq motivasiya əldə ediblər, uzunmüddətli depressiyaya əlvida deməyi bacarıblar.

Entoni Robbins bizə davranışlarımızı nəzarətdə saxlamağın metodlarını öyrədir. Bunun üçün davranışların tipini müəyyənləşdirmək lazım gəlir. İnsanlar ətraf mühit haqqındakı bilgiləri xüsusi reseptorlar və duyğu orqanları vasitəsilə qavrayır. Bu reseptorlar xarici stimulları beyinə ötürür, beyin bu siqnalları süzgəcdən keçirərək daxili təsəvvürə göndərir, depolayır. Bu proses insanın dünyanı qavrama diapazonunun genişliyini göstərir. Lakin insanların daxili təsəvvürü baş vermiş hansısa hadisənin dəqiq ifadəsi deyil. Bəlkə də Eynşteyn buna görə belə deyirdi: "Həqiqət və bilgi sahəsində özünü hakim hesab edənlər tanrıların gülüşü ilə darmadağın edilib cəzalandırılırlar".

Güclü insanlar o şəxslərdir ki, daxili təsəvvürlərini dəyişməyi bacarırlar. Hər bir insan bu gücə malik olduğuna inanmalıdır. Belə olan halda öz dincliyimizin, xoşbəxtliyimizin zəmanətçisinə çevrilə bilərik. Robbins yazır ki, insan mənəviyyatının ən böyük hərəkətverici mexanizmlərindən biri onun öz individuallığını saxlamaq gücündən ibarətdir. Düşüncə mövqeyindən yox, nevrologiya mövqeyindən yanaşaraq beyin və davranışımızla məşq etməliyik. Özümüzün fərdi inanclarımız olmalıdır.

– İstənilən istiqamət bizi lazım olan yerə – taleyimizə tərəf aparır. Yetər ki, özümüzdə pozitiv düşüncə tərzini formalaşdıraq. Bundan sonra həyatımızda da, işimizdə də müsbət dəyişikliklərin baş verdiyini görəcəyik. Bunun üçün zaman və möhkəm iradə tələb olunur. Zaman Tanrıya, iradə isə insana məxsusdur. Uğur reseptində ardıcıllıq və iradə birinci sırada yazılır. Hər şeyi taleyin boynuna yükləmək tənbəl adamların işidir. Sürət əsrində "Oblomovçuluq" ölümə bərabərdir. Pessimizmi özünə qalxan edənlərdən mümkün qədər uzaqlaşmaq lazımdır. Onlar enerji vampirləridir, onların özünün də xilasediciyə ehtiyacı var.

Yaxşı olar ki, lüğətinizdən "amma" sözünü çıxarasınız. Bu söz özündən əvvəl deyilmiş hər şeyə kölgə salır, yersiz bəhanələrə yol açır. Biz öz punktuallığımızla taleyimizin yardımçısına çevrilirik. Neçə yaşda olmağımız önəmli deyil. İstər 18 olsun, istər 88! İrəli getməyimiz üçün mütləq nəsə lazımdır. Daxilimizdə özünə yer etmiş həvəs, entuziazm, sadəcə, əvvəlcədən müəyyən olunmamış bir hadisəni gözləyir. Biz hisslərimizi tərbiyə etdikcə, həm də özümüz də bilmədən əsəbləri müalicə edirik.

Bir sözlə, nikbin olmağa çalışın. Nikbinlik sağlamlığın vacib şərtidir.

***Kənan HACI,***
***yazıçı-publisist***

# Naxçıvanlı musiqiçilər İğdırda

**18 Oktyabr – Müstəqilliyin Bərpası Günü və Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100 illiyi münasibətilə Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblı Türkiyənin İğdır şəhərində konsert proqramı ilə çıxış edib.**



Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini, nazir vəzifələrinin müvəqqəti icraçısı Həsən Seyidov, İğdır valisi Ercan Turan, Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının əməkdaşı Gülçin Dünyamalıyev, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin rəisi Vüsal Ələkbərli və digər hökumət nümayəndələrinin iştirak etdikləri tədbir Türkiyə və Azərbaycanın Dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb.

Çıxış edənlər Azərbaycan–Türkiyə qardaşlığının tarixi bağlarından bəhs ediblər.

Musiqili gecədə "Sizə salam gətirmişəm", "Şuşanın dağları", "Çırpınırdı Qaradəniz", "Azərbaycan-Türkiyə" və digər mahnı və rəqslər ifa olunub.

***XQ***

## İdman xəbərləri

### Stolüstü tennisçilərimiz 4 medal qazanıblar

**Birləşmiş Ərəb Əmirliklərində "WTT Youth Contender" turnirinə yekun vurulub. Komandamız yarışı 4 medalla başa vurub.**




Yarışın ilk günlərində Rüstəm Hacılı – Aylin Əsgərova tandemi qarışıq qoşa, Onur Quluzadə ilə Yağmur Məmmədli isə şəxsi yarışlarda bürünc mükafata layiq görülmüşdü. 13 yaşlı idmançıların şəxsi mübarizəsində 3-cü yeri tutan Onur Quluzadə 15 yaşlıların yarışında da eyni nəticəni təkrarlayıb.

### "Qarabağ"ın yeni rekordu

**"Qarabağ" Azərbaycan çempionatları tarixində yeni rekord qazanıb.**



Ağdam klubu səfərdə ən çox qol vuran komandadır. Bu, Misli Premyer Liqasının X turunda gerçəkləşib. Qurban Qurbanovun yetirmələri "Kəpəz"ə 5:0 hesabı ilə qalib gəliblər. Matçda vurulan 3-cü qol "Qarabağ"ın Azərbaycan çempionatlarındakı 648-ci səfər qolu kimi yadda qalıb. Bu qolu Leandro Andrade vurub. Bununla da, Ağdam təmsilçisi hesabında 647 səfər qolu olan "Neftçi"nin rekordunu keçib.

"Kəpəz"lə Tovuzdakı görüşdə vurulan sonuncu top isə klub tarixinə çempionatda rəqib meydanlarındakı 650-ci qol kimi düşüb. Yubiley topuna Aleksey Kaşuk imza atıb.

Qeyd edək ki, "Qarabağ" 650 qol vurduğu səfərdə 461 oyun keçirib.

### Şumaxerin bolidi hərracda

**Formula 1 üzrə yeddiqat dünya çempionu Mixael Şumaxerin dünya çempionatının son mövsümündə idarə etdiyi bolid (yarış avtomobili) hərraca çıxarılıb.**



"Ferrari" komandasının almaniyalı sabiq pilotunun bolidi 15 milyon ABŞ dolları dəyərində qiymətləndirilir.

Qeyd edək ki, Mixael Şumaxer Ferrari 248 F1 ilə 2006-cı ildə Formula 1 Dünya çempionatında 5 Qran-Pridə qələbə qazanıb.

***LQ URBANOVA***
***XQ***

## Sağlamlıq

### Kivi əlac eləyər – soyuqdəymə tez keçər

**Payız fəslində mövsümlə əlaqədar, həm uşaqlarda, həm də yaşlı insanlarda tez-tez burun tutulmaları, öskürək, yüksək hərarət müşahidə edilir. Bir çox mütəxəssislər dərman müalicəsinə üz tutmazdan öncə təbii vasitələrlə bu əlamətləri aradan qaldırmağın mümkünlüyünü tövsiyə edirlər. Bildirirlər ki, indiki sayda və növdə dərman pereparatları istehsal edilməyən dövrdə insanlar bir çox xəstəliklərini təbii üsul və vasitələrlə – bitki çayları ilə, masajla, ayağı isti suya, kürəyə banka qoyduramaqla sağaldıblar.**



Hazırda kənd yerlərində yaşlı insanların əksəriyyəti yenə də dərmanlardan imtina edir, "dədə-baba" qaydası ilə sağalmağa üstünlük verirlər. Təbii vasitələrlə müalicə aparan həkimlərin də fikrincə, belə vaxt köməyə gələn ilk üsul kividən istifadədir.

1. Güclü, boğucu və davamlı öskürək zamanı kivi kömək edir. Bir dilim kivi, 1 qaşıq bal və yarım çay qaşığı əzilmiş darçın qarışdırılır. Alınan kütləni gecə yatmazdan öncə qəbul etmək lazımdır.

2. Yüksək temperatur, boğaz ağrısı, hıçqırıqlı öskürək zamanı kivi şirəsi, əzilmiş cirə, bal götürülür. Qarışım zəif odda yüngülcə qaynadılır. Gün ərzində 5–6 dəfə 1 çay qaşığı qəbul edilir.

3. Zəif immunitetə malik insanlar kivinin təzə çəkilmiş şirəsini içməlidirlər. 2 ədəd kivinin şirəsi birdəfəlik qəbul üçün yetərlidir. Şirədəki turşuluğu azaltmaq üçün zövqə görə, ona kök, yaxud şirin alma şirəsi əlavə etmək olar.

***Z.HÜSEYNLİ***
***XQ***

## Hava

### Yağışlı, dumanlı, şaxtalı bazar günü

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, oktyabrın 20-də Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Gecə yarımadanın bəzi yerlərində qısamüddətli intensivləşəcəyi, şimşək çaxacağı ehtimalı var.**



Gündüz tədricən kəsiləcək. Mülayim şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 11-13°, gündüz 14-16° isti olacaq. Atmosfer təzyiqi 763 mm civə sütunundan 766 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 70-80, gündüz 60-65 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi, dağlıq rayonlarda qar yağacağı ehtimalı var. Gündüz yağıntılar tədricən kəsiləcək. Arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 9-13°, gündüz 14-18° isti, dağlarda gecə 1° şaxtadan 4°-dək isti, gündüz 4-7° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4002
SİFARİŞ 2375
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00